www.musavat.com

# YENİ MÜSAVAT

Qurucusu: Rauf Arifoğlu Gündəlik qəzet 7 avqust 2019-cu il Çərşənbə № 164 (7334) Qiymətı 60 qəpik

Xəbər

## Yevlaxda qəbiristanlıqda narkoplantasiya aşkarlandı

yazısı səh.14-də

# BAKI VƏ ANKARANIN İŞĞALÇIYA QARŞI ORTAQ "YOL XƏRİTƏSİ"

"Azərbaycan və Türkiyə Ermənistanı tullantı ölkəyə çevirib" - İrəvanda Soçi təlaşı; düşmən ölkənin təcridi güclənir; Rusiya və İran da Ermənistana xilas əli uzada bilmir - səbəblər; **erməni ekspert:** "Bakı bizə qarşı effektli rıçaqlar yaradıb..."



yazısı səh.8-də

Gündəm

## Paşinyan Qarabağda sərsəmlədi, Bakıdan sərt cavab aldı



Ermənistanın baş naziri Xankəndində eyforiyaya qapılıb ağlına və ağzına gələni danışdı; İrəvan müharibə yolunu seçir?..

yazısı səh.11-də

## "Taxta bazarı"nda son durum: Rusiyada meşə yanğınları qiymətlərə təsir edibmi? - əməkdaşımızın qeydləri

yazısı səh.10-da

## "Aynanın heykəli var, Atatürkün yox" - bağlanan iki parkdan bir reportaj

yazısı səh.14-də

## Paytaxtda 2 nəfəri öldürən Sirus Qoçqaninin cərrah olmadığı üzə çıxdı

yazısı səh.5-də

*Ekspert:*

## "ABŞ-ın İranla bağlı indiki siyasəti nəticə verməyəcək"

yazısı səh.12-də

## Azərbaycanda şəhərdən kəndə dönüşü necə stimullaşdırmalı - araşdırma

yazısı səh.7-də

## Türkiyə tarixi əməliyyatın anonsunu verdi - Ağ Ev əndişədə...

yazısı səh.12-də

## Plastik qablarda satılan qazlı sulardan gələn təhlükə - SOS!

yazısı səh.14-də

## "Cin çıxaran" dəstə hakim qarşısında: 25 yaşlı gənci çubuqla döyüb öldürmüşdülər

yazısı səh.6-da

## "Dəvə kəsmək istəyirəm..." - məşhurlardan kimlər qurban kəsəcək?

yazısı səh.2-də

## Qəbələdə toyda zəhərlənənlərin sayı 89-a çatdı, cinayət işi açıldı - yeni təfərrüat

Tanınmış həkimdən və istehlakçı hüquqlarının müdafiəçisindən xəbərdarlıqlar; "Şadlıq evləri ilə müştəri arasında müqavilə bağlanmayınca..."

yazısı səh.4-də



## Fazil Mustafanın açıqlamaları erməni mətbuatında - həmkarı od püskürdü

yazısı səh.9-da



Vladimir Zelenski

## Zelenski Ərdoğanla görüşdən sonra Bakıya gələ bilər

yazısı səh.4-də



*Tofiq Zülfüqarov:*

## "Azərbaycanın ayrı seçimi qalmayıb"

yazısı səh.5-də



# Əsəd Ərdoğanla anlaşır? - bölgədə sensasion gəlişmə

**“Suriya Türkiyə ilə anlaşıb ordusunu Fərat çayının şərq sahillərinə çəksə, nə ABŞ, nə də PYD/PKK bölgədə qala biləcək”. Bunu Türkiyə Silahlı Qüvvələri baş qərargahının kəşfiyyat xidmətinin keçmiş başçısı, general İsmayıl Hakkı Pekin deyib. General Türkiyənin Fərat çayının şərqində yeni əməliyyata hazırlaşdığını bildirib (Teleqraf.com).**

“Türkiyənin indiyədək bu əməliyyatı gecikdirməsinin səbəbi ABŞ-la təhlükəsizlik zolağının yaradılması məsələsində anlaşa bilməməsi idi. Türkiyənin əsas məqsədi 500 kilometrlik sərhədində kürd dövlətinin qurulmasının qarşısını almaqdır. Çünki Türkiyə PKK-nın qolu olan PYD-nin daxil olduğu belə bir dövləti öz təhlükəsizliyinə qarşı təhdid kimi görür. ABŞ isə PYD-ni ”müttəfiq"i adlandırır. Buna görə də ABŞ-ın Türkiyəyə verdiyi təhlükəsizlik zolağı təklifi PYD-nin müdafiə edilməsini ehtiva edir. Türkiyə Fərat çayının sahilindən İraqadək olan 455 km-lik sərhədin PKK-PYD-nin nəzarətində olmasını istəmir, ABŞ isə bunu etirazla qarşılayır".

**“Bəs ABŞ bölgədən çıxa bilərmi” sualına Pekinin cavabı belə olub:** “ABŞ-ın bölgədən çəkiləcəyini düşünmürəm. Sadəcə olaraq, öz qüvvələrini bir qədər cənuba doğru çəkəcək və on illərlə orada qalacaq. ABŞ-ın Suriyada bir unitar dövlət qurmaq niyyətində olduğunu düşünmürəm. ABŞ danışıqlar masasında əlini gücləndirmək üçün Suriyada yeni ərazilər ələ keçirmək istəyir, bu isə o deməkdir ki, parçalanmış Suriya uzun illər özünə gələ bilməyəcək.

**General Suriya və Türkiyə rəhbərliklərinin işbirliyində olmasının vacibliyinə diqqət çəkib:** “Bu, mövcud ssenarilərin qarşısını almaq üçün lazımdır. Belə bir işbirliyi hər şeyi tərsinə çevirəcək, mövcud mənzərəni dəyişəcək. Hətta indi Suriya Türkiyə ilə anlaşaraq, qüvvələrini İdlibdən Fərat çayının şərqinə çəksə, ABŞ və PKK/PYD bölgədə qala bilməyəcək. Lakin Suriya və Türkiyənin anlaşması ehtimalı aşağıdır”.



# “Qızıl Xaç” nümayəndələri Dilqəm və Şahbaza baş çəkib

**Beynəlxalq Qızıl Xaç Komitəsinin (BQXK) nümayəndələri Dağlıq Qarabağ münaqişəsi nəticəsində saxlanılan şəxslərlə görüşüb. BQXK-nın Azərbaycan nümayəndəliyinin İctimaiyyətlə əlaqələr şöbəsinin rəhbəri İlahə Hüseynova APA-ya bildirib ki, təmsil etdiyi qurumun nümayəndələri iyul ayında Dağlıq Qarabağ münaqişəsi nəticəsində saxlanılan şəxslərə bir daha baş çəkib:**

“Biz münaqişə nəticəsində saxlanılan şəxslərə mütəmadi baş çəkməkdə davam edirik. Mandatına uyğun olaraq, BQXK saxlanılan şəxslərə ona görə baş çəkir ki, saxlanma şəraiti və onlarla rəftarı monitorinq etsin, həmçinin saxlanılan şəxslərə ailələri ilə əlaqə saxlamalarına şərait yaratsın”.

Qeyd edək ki, 2014-cü ilin iyul ayında Rusiya vətəndaşı Dilqəm Əsgərov və Azərbaycan vətəndaşı Şahbaz Quliyev Kəlbəcərdə öz ata-baba yurdlarını ziyarət etmək istəyərkən Ermənistan əsgərləri tərəfindən girov götürülüblər, Azərbaycan vətəndaşı Həsən Həsənov isə güllələnərək öldürülüb. H.Həsənovun meyiti düşməndən alınaraq Bakıda dəfn edilib. İşğal altındakı Dağlıq Qarabağda D.Əsgərov və Ş.Quliyev üzərində qanunsuz “məhkəmə” qurulub. “Məhkəmə”nin qərarı ilə D.Əsgərov ömürlük, Ş.Quliyev 22 il müddətinə azadlıqdan məhrum edilib.

# Qurban bayramı ilə əlaqədar üç dövlət qurumu gücləndirilmiş rejimdə işləyəcək

**Azərbaycan Qida Təhlükəsizliyi Agentliyi, Kənd Təsərrüfatı və Daxili İşlər nazirlikləri Qurban bayramı münasibətilə birgə açıqlama yayıb. Musavat.com-un məlumatına görə, açıqlamada bildirilir:**



“Hər zaman milli-mənəvi dəyərlərə və ənənələrə sədaqət və qayğı ilə yanaşan Azərbaycan xalqı Qurban bayramını böyük ruh yüksəkliyi ilə qeyd edir. Bu bayram cəmiyyətimizdə mənəvi həmrəyliyin, xeyirxah əməllərin, şəfqət və mərhəmət duyğularının təntənəsinə çevrilir. Adi günlərlə müqayisədə daha çox heyvanın kəsimi və satışının həyata keçirildiyi Qurban bayramında qurbanlıq heyvanın kəsiminin qaydalara uyğun, sanitar-gigiyena tələbləri çərçivəsində həyata keçirilməsinə xüsusi diqqət yetirilməlidir. Kəsimdən əvvəl və sonra müvafiq baytarlıq müayinəsinin keçirilməsi heyvandan insana keçə biləcək xəstəliklərin qarşısının alınması baxımından zəruri şərtdir.

Bayram günlərində Azərbaycan Respublikasının Qida Təhlükəsizliyi Agentliyi, Kənd Təsərrüfatı və Daxili İşlər nazirlikləri tərəfindən əhalinin təhlükəsiz ət və ət məhsulları ilə təmin edilməsi istiqamətində həyata keçirilən tədbirlərin miqyası genişləndirilib. Bununla əlaqədar bildiririk ki, heyvanların kəsimi və satışı aidiyyəti dövlət orqanlarının müəyyən etdiyi yerlərdə həyata keçirilməli, sanitariya-gigiyena tələblərinə uyğun olmayan küçə, yol kənarları, məhəllələr, parklar və digər ictimai yerlərdə heyvan kəsimi və satışı, eyni zamanda baytarlıq arayışı olmadan iri və xırda buynuzlu heyvanların daşınması yolverilməzdir. Qurban bayramı ilə bağlı hər üç qurum gücləndirilmiş iş rejimində fəaliyyət göstərəcək. Bayram günlərində heyvan kəsiminin müvafiq qaydada həyata keçirilməsini təmin etmək üçün respublika üzrə 44 stasionar və 30 çadır tipli kəsim məntəqəsi vətəndaşların ixtiyarına veriləcək. Qida Təhlükəsizliyi Agentliyi, Kənd Təsərrüfatı və Daxili İşlər nazirlikləri bu bayram günlərində qurbanlıq heyvanların satışı və kəsimi ilə məşğul olan şəxslərə küçələrdə və yol kənarlarında antisanitar şəraitin yaradılmaması üçün heyvan satışı və kəsimini, baytarlıq-sanitariya və gigiyenik normalara cavab verən stasionar və çadır tipli heyvan kəsimi məntəqələrində həyata keçirməyi bir daha tövsiyə edir.

Vətəndaşlardan xahiş olunur ki, bayram günlərində sağlamlığı şübhə doğuran heyvanlarla bağlı, eyni zamanda küçə və yol kənarlarında antisanitar şəraitdə heyvan kəsimi və satışı müşahidə olunduqda Daxili İşlər Nazirliyinin “102" Xidməti - Zəng Mərkəzinə, Qida Təhlükəsizliyi Agentliyinin 1003 ”Çağrı Mərkəzi"nə, Kənd Təsərrüfatı Nazirliyinin isə 1652 “Çağrı Mərkəzi”nə zəng edib məlumat versinlər".

# 3 minə yaxın iş yeri açılacaq - rəsmi

**“Sənaye parklarında və məhəllələrində 11 mindən çox iş yeri açılıb və daha 3 minə yaxın iş yerinin açılması nəzərdə tutulur”. Musavat.com xəbər verir ki, bu sözləri AzərTAc-a müsahibəsində iqtisadiyyat naziri Şahin Mustafayev deyib. Nazir bildirib ki, sənaye parklarında 10 yeni rezident istehsala başlayacaq:**


Şahin Mustafayev

“Sənayedə yeni modellərin tətbiqi, sənaye parkları və məhəllələri, aqroparklar kimi mütərəqqi mexanizmlər innovativ müəssisələrin yaradılmasına, ixracyönümlü məhsulların istehsalının genişləndirilməsinə böyük imkanlar açır. Qeyd edək ki, hazırda Azərbaycanda 5 sənaye parkı - Sumqayıt Kimya, Balaxanı, Mingəçevir, Qaradağ və Pirallahı sənaye parkları fəaliyyət göstərir. İndiyədək sənaye parklarında 40-dan çox rezident qeydiyyata alınıb. Bu rezidentlərin 24-ü artıq istehsal fəaliyyətinə başlayıb. Bu il daha 10 rezident istehsala başlayacaq. İndiyədək sənaye parklarında 1,5 milyard manatlıq məhsul istehsal edilib. Bu məhsulların 300 milyon manatlıq hissəsi xarici ölkələrə ixrac olunub. Sevindirici haldır ki, bugünlərdə Balaxanı Sənaye Parkının rezidenti istehsal etdiyi mebel məhsullarının ABŞ-a ixracına başlayıb”.

**Şahin Mustafayevin sözlərinə görə, 51 aqroparkın yaradılması nəzərdə tutulub:** “Aqroparkların yaradılması istiqamətində tədbirlər görülür ki, bu da regionlarda iş yerlərinin açılması və məşğulluğun təmin olunması ilə yanaşı, ixracyönümlü məhsulların istehsalında əhəmiyyətli rol oynayır. Ölkəmizdə 51 aqroparkın yaradılması ilə bağlı ciddi addımlar atılır. Artıq 22 aqropark fəaliyyətdədir, bu ilin sonuna qədər 11 aqroparkın fəaliyyətə başlaması gözlənilir. Bu layihələrin icrası nəticəsində 4 mindən çox yeni iş yerinin yaradılması proqnozlaşdırılır”.

**Qəzet, jurnal və kitab əldə etməyin ən rahat yolu!**

Siz sifariş edirsiniz, biz istədiyiniz ünvana çatdırırıq!

Xaricdə və Azərbaycanda nəşr olunan bütün qəzet və jurnallara abunə olmaq, həmçinin Rusiyada və Azərbaycanda nəşr olunan kitabları daha sərfəli qiymətə və daha qısa vaxt ərzində əldə etmək üçün sadəcə zəng etməyiniz kifayətdir.

**Telefon: (012) 434 93 01**

# Bu gün Bakıda mülayim külək əsəcək

**Avqustun 7-də Bakıda və Abşeron yarımadasında havanın dəyişkən buludlu olacağı, arabir tutulacağı, əsasən yağmursuz keçəcəyi gözlənilir. Lakin səhər bəzi yerlərdə qısamüddətli yağış yağacağı ehtimalı var. Mülayim şimal-qərb küləyi əsəcək. Ekologiya və Təbii Sərvətlər Nazirliyinin Milli Hidrometeorologiya Departamentindən Musavat.com-a bildirilib ki, havanın temperaturu Abşeron yarımadasında gecə 21-24, gündüz 27-30, Bakıda gecə 22-24, gündüz 28-30 dərəcə isti olacaq. Atmosfer təzyiqi norma daxilində 762 mm civə sütunu təşkil edəcək, nisbi rütubət 50-60 faiz olacaq.**

Abşeron çimərliklərində gözlənilən hava şəraiti: Mülayim şimal-qərb küləyi əsəcək. Dəniz suyunun temperaturu şimal çimərliklərində (Sumqayıt, Novxanı, Pirşağı, Nardaran, Bilgəh, Zaqulba) 23-24, cənub çimərliklərində (Türkan, Hövsan, Sahil, Şıx) 24-25 dərəcə isti təşkil edəcək.

Azərbaycanın rayonlarında havanın əsasən yağmursuz keçəcəyi gözlənilir. Lakin bəzi şimal və şərq rayonlarında gecə və səhər şimşək çaxacağı, yağış yağacağı ehtimal olunur. Ayrı-ayrı yerlərdə dolu düşəcəyi gözlənilir. Şərq küləyi ayrı-ayrı yerlərdə arabir güclənəcək.

# Sumqayıtda həkim baş həkimi bıçaqladı

**Ötən gün Sumqayıt şəhərində yerləşən özəl klinikalardan birində bıçaqlanma hadisəsi baş verib. Publika.az xəbər verir ki, axşam saatlarında Sumqayıt şəhəri Səməd Vurğun küçəsi, 163A (Göyərçin abidəsi ilə üzbə-üz) ünvanında yerləşən “Sum Modern Dental Clinic”də həkim işləyən Pərviz İbrahimov klinikanın baş həkimi Şahin Baxşəliyevə bıçaqla hücum edib. P.İbrahimov baş həkimin otağına daxil olaraq ona çoxsaylı zərbələr endirib.**

Ş.Baxşəliyev ağır vəziyyətdə başqa xəstəxanaya çatdırılıb və orada əməliyyat edilib. Onun vəziyyəti ağır olaraq qalır.

Hadisəni törədən həkim artıq saxlanılıb. O, baş həkimi işlətdiyi ağır ifadələrə görə bıçaqladığını deyib. Faktla bağlı Cinayət Məcəlləsinin 126-cı (qəsdən sağlamlığa ağır zərər vurma) maddəsi ilə cinayət işi açılıb, araşdırmalar davam etdirilir.

**BP şirkəti Şəfəq-Asiman üzrə hasilatın pay bölgüsü haqqında sazişin operatoru kimi elan edir ki, podratçı tərəflərin adından Ətraf Mühitə və Sosial-iqtisadi Sahəyə Təsirin Qiymətləndirilməsi (ƏMSSTQ) sənədini hazırlayıb və dərc edib.**

bp

Sənəddə Şəfəq-Asiman dəniz blokunda kəşfiyyat quyusunun qazılması işlərinin ətraf mühitə və sosial-iqtisadi sahəyə potensial təsirləri nəzərdən keçirilir və təsirin azaldılması üçün görülməli tədbirlər tövsiyə edilir. ƏMSSTQ prosesinin məqsədi nəzərdə tutulan işlərdən yarana biləcək hər hansı mənfi ekoloji və sosial-iqtisadi təsirləri müəyyənləşdirmək, minimuma endirmək və mümkün olduqda aradan qaldırmaqdır.

Hazırda Şəfəq-Asiman Kontrakt sahəsində suyun təxminən 624 metr dərinliyində bir kəşfiyyat quyusunun qazılması planlaşdırılır. Qazma işlərinin 2019-cu ilin dördüncü rübündə başlayacağı gözlənilir.

Şəfəq-Asiman Kontrakt sahəsi Xəzər dənizinin Azərbaycan sektorunda Bakıdan cənub-şərq istiqamətində təxminən 125 km məsafədə suyun dərinliyi təxminən 600-800 metr olan ərazidə yerləşir. Məhsuldar layın dərinliyi təxminən 7000 metr təşkil edir.

Maraqlı tərəflərlə məsləhətləşmə ƏMSSTQ prosesinin mühüm elementidir. Maraqlı tərəflərin rəylərinin toplanması və sənədləşdirilməsi prosesi layihənin planlaşdırılmasında və ƏMSSTQ-də əsas maraqlı tərəflərin ümumi rəylərinin nəzərə alınmasını təmin edir.

ƏMSSTQ sənədinin tam layihə variantı və qısa xülasəsi Azərbaycan və ingilis dillərində hazırlanıb və BP-nin vebsaytında yerləşdirilib:

**https://www.bp.com/en_az/caspian/sustainability/environment/env-and- social-documentation.html**

5 avqust 2019-cu il tarixindən etibarən bu sənədlərin nüsxələri ictimaiyyətin tanış olması üçün aşağıdakı ünvanlarda da yerləşdirilib:

- BP-nin Xəzər Mərkəzi ofisinin qəbul şöbəsi: Neftçilər prospekti 153
- M.F. Axundov adına Milli Kitabxana: Xaqani küçəsi 29
- Azərbaycan Milli Elmlər Akademiyasının Mərkəzi Kitabxanası: Hüseyn Cavid küçəsi 31
- Azərbaycan Dövlət Neft və Sənaye Universitetinin kitabxanası: Azadlıq prospekti 20
- Orxus İctimai Ekoloji İnformasiya Mərkəzi, Ekologiya və Təbii Sərvətlər Nazirliyi: Bəhram Ağayev küçəsi 100a
- Bakı Kitab Mərkəzi: Üzeyir Hacıbəyli küçəsi 5, Qoqol küçəsi 2
- Libraff kitab mağazası: Hüseyn Cavid küçəsi 186 (Mirvari Park kompleksi, Blok D)
- Bakı Ali Neft Məktəbinin kitabxanası: Yeni Salyan şosesinin 3-cü km (Bakı Ali Neft Məktəbinin kampusu)

Sizi ƏMSSTQ sənədinin layihə variantına dair rəylərinizi və fikirlərinizi bildirməyə dəvət edirik. Xahiş olunur, öz rəy və təkliflərinizi 5 oktyabr 2019-cu il tarixinədək BP-nin tələblərə riayət və icazələr üzrə qrup rəhbəri Səadət Qafarovaya göndərəsiniz:
e-poçt: **esiafeedback@bp.com**;
telefon: (012) 4046919 və ya (055) 2259013



# İnsan alverində ittiham edilən qadın azadlığa buraxıldı

**Bakıda yetkinlik yaşına çatmayan qızları fahişəliyə cəlb etməkdə təqsirləndirilən qadın məhkəmə zalından azadlığa buraxılıb.**

Musavat.com xəbər verir ki, Bakı Ağır Cinayətlər Məhkəməsində insan alverində ittiham edilən 1989-cu il təvəllüdlü Aygün Xasməmmədovanın cinayət işi üzrə məhkəmə iclası başa çatıb.

Hakim Əhməd Quliyevin sədrliyi ilə keçirilən məhkəmə iclasında hökm oxunub. Hökmə əsasən A.Xasməmmədovaya şərti cəza verilib və o, məhkəmə zalından azadlığa buraxılıb.

Qeyd edək ki, Aygün Xasməmmədova barəsində Azərbaycan Respublikasının Cinayət Məcəlləsinin 144-1.2.3-cü (insan alveri yetkinlik yaşına çatmayan şəxs barəsində törədildikdə) maddəsi ilə iş başlanıb.

İş üzrə yetkinlik yaşına çatmayan 2 qız zərərçəkən şəxs qismində tanınıb. Məhkəmə istintaqında onlar şikayətçi olmadıqlarını deyiblər

❑ **İ.MURADOV**
**Musavat.com**



# Anasını öldürən gəncin psixi problemləri varmış

**Bakıda telefon almadığı üçün anasını qətlə yetirməkdə təqsirləndirilən gənc hakim qarşısına çıxarılıb. Musavat.com xəbər verir ki, Bakı Ağır Cinayətlər Məhkəməsində qətl törətməkdə ittiham edilən 26 yaşlı Eldar Müslümovun cinayət işi üzrə məhkəmə iclası keçirilib.**

Hakim İlham Mahmudovun sədrliyi ilə keçirilən məhkəmə iclasında Eldar Müslümov ifadə verib.

O, əməlindən peşman olduğunu, hadisəni törətməsini xatırlamadığını deyib. Onun psixi problemlərinin olduğu məlum olub.

Hadisə bu ilin fevral ayında Bakının Nərimanov rayonu ərazisində baş verib. 26 yaşlı E.Müslümov mübahisə zəminində anası, 66 yaşlı Müslümova Nailə Əzim qızını qətlə yetirib.

Məlumata görə, E.Müslümov anasını smartfon telefon üstündə düşən mübahisədən sonra öldürüb. O, arzuladığı mobil telefonu alması üçün anasından pul istəyib, qarşı tərəf isə razı olmayıb. Qəzəblənmiş oğul anasına əl qaldıraraq, onu qətlə yetirib. E.Müslümov epilepsiyadan və psixi pozuntulardan əziyyət çəkir.

❑ **İLKİN**
**Musavat.com**

YENİ MÜSAVAT
N 164 (7334) 7 avqust 2019

# Zelenski Ərdoğanla görüşdən sonra Bakıya gələ bilər

## Ekspertlər Ukrayna prezidentinin qardaş ölkəyə ilk səfərinin əhəmiyyətindən danışdılar



**"Ukrayna prezidenti Vladimir Zelenskinin prezident seçkilərindən sonra Türkiyəyə ilk rəsmi səfəri başlayıb. Bu yay istirahət məqsədi ilə Türkiyədə olmuşdu. Amma avqustun 7 və 8-i tarixlərindəki səfəri iqtisadi münasibətlərin genişləndirilməsini müzakirə eləmək baxımından xarakterizə olunmalıdır".**

**Politoloq Ramiyə Məmmədova** "Yeni Müsavat"a açıqlamasında Ukrayna prezidenti V.Zelenskinin bu gün qardaş ölkəyə başlayan səfəri barədə danışarkən belə dedi. Onun sözlərinə görə, Ukrayna-Türkiyə münasibətləri hələ 1992-ci ildən var: "Ukrayna ilə Türkiyənin iqtisadi münasibətləri genişdir. Türk iş adamları təkcə ötən il 1,6 milyard dollar bu ölkəyə yatırım ediblər. Eyni zamanda Ukraynada çoxlu türk firmaları fəaliyyət göstərir. Həmçinin əsas münasibətlər turizm üzərində qurulub. Türkiyənin kurort bölgələrinə çoxlu ukraynalı istirahətə gedir. Odur ki, Zelenskinin Türkiyə səfərində Ticarət Nazirliyinin təşkilatçılığı ilə türk-ukraynalı iş adamlarının görüşü də nəzərdə tutulub. Bu mənada Zelenskinin səfəri iqtisadi əməkdaşlığı genişləndirmək niyyəti daşıyır".

**Xanım ekspertin fikrincə, səfərin əhəmiyyəti həm də Zelenskinin Türkiyə prezidenti Rəcəb Tayib Ərdoğanla rəsmi tanışlığıdır:** "Prezidentlərin görüşündə Türkiyədə yaşayan və işləyən Ukrayna vətəndaşlarının vəziyyəti, Krım tatarlarının məsələsi müzakirə edilə bilər. Siyasi məsələyə gəlincə, Ərdoğanın Rusiya-Ukrayna münasibətlərinə toxunacağını gözləmirəm. Ankara-Moskva əlaqələri yüksək səviyyədədir və indiki mərhələdə Ərdoğanın Ukrayna torpaqlarının zəbt edilməsi barədə hansısa mesajlarının olacağı inandırıcı deyil. Ankaraya Rusiya daha çox lazımdır, nəinki Ukrayna. Ona görə Zelenskinin səfərində gündəm iqtisadi mövzular olacaq".

**Siyasi analitik Elxan Şahinoğlu qəzetimizə bildirdi ki, Türkiyə Ukrayna üçün ABŞ və Avropa İttifaqından sonra üçüncü önəmli ölkədir:** "Birincisi, Ukraynanın qonşusu olaraq Türkiyənin investisiyaları Kiyev üçün vacibdir. İkincisi, Kiyev Rusiya ilə strateji tərəfdaşlıq münasibətləri quran Türkiyəni geosiyasi anlamda itirmək istəmir. Ankara Moskva ilə sıx əlaqələrinə baxmayaraq, Ukraynanın ərazi bütövlüyünü dəstəkləyir, Krımın ilhaqını qəbul etmir və Krım türklərinə dəstəkdən vaz keçmir. Bu amillər Kiyevin işinə yarayır. Ona görə də son illər Ankaraya gələn Ukrayna prezidentləri hər səfərlərində heyətə Krım türklərinin lideri Mustafa Cəmiloğlunu da əlavə edirdilər. Türkiyə Cümhurbaşqanı Rəcəb Təyyub Ərdoğanın Cəmiloğluna böyük hörməti var. Mustafa Cəmiloğlu Ukraynadakı son prezident seçkisində Vladimir Zelenskinin rəqibini dəstəkləmədi. Buna baxmayaraq, Zelenski də keçmiş prezidentlər Petro Poroşenko və ya Viktor Yuşşenko kimi Krım türkləri mövzusuna həssas yanaşmalı və Ankaraya gedəcək heyətə Krım türklərinin nümayəndəsini daxil etmək barədə düşünməlidir. Kiyevlə sıx təmaslar Ankara üçün də o mənada vacibdir ki, regional siyasətdə bütün yumurtaların Rusiya səbətinə qoyulmadığı görünsün".

**Politoloq hesab edir ki, Zelenskinin Cənubi Qafqaz ölkələri arasında səfər edəcəyi ilk ölkə Azərbaycan olmalıdır:** "Ən azı biz buna çalışmalıyıq. Azərbaycan Ukraynanın ərazi bütövlüyünü dəstəklədiyi kimi Ukrayna da Azərbaycanın ərazi bütövlüyünü dəstəkləyir. Doğrudur, AŞ PA-da son səsvermədə Azərbaycan nümayəndə heyəti Krımın ilhaqına rəğmən, Rusiyanın bu quruma qayıtmasına səs verdi. Ancaq Rusiyanın geri qaytımasına səs verənlər arasında avropalılar da çoxluq təşkil edirdi. Yeni Azərbaycan nümayəndə heyətinin AŞ PA-da Rusiyanın xeyrinə səsverməsi Bakı ilə Kiyev arasındakı əlaqələrə mənfi təsir etməməlidir.

Petro Poroşenkonun dövründə Azərbaycanın Ukraynadakı dövlət müəssisələrinin özəlləşdiriilməsində iştirakı mövzusu müzakirə olunurdu. Məsələn, Dövlət Neft Şirkəti Odessa və Çernomorskdakı neft terminallarının özəlləşdirilməsinə maraq göstərirdi. Dövlət Neft Şirkətinin Ukraynada artan fəaliyyətini nəzərə alaraq bu özəlləşdirməni Zelenskinin prezidentliyi dönəmində reallaşdırmaq mümkündür. Odur ki, yaxın aylarda prezident İlham Əliyevin ukraynalı həmkarı ilə görüşünün və müzakirə ediləcək mövzuların hazırlanması təlimatı verilə bilər".

Qeyd edək ki, Zelenski 7-8 avqust tarixlərində Türkiyə səfəri çərçivəsində Ərdoğanla, İstanbulda Konstantinopol Patriarxı I Varfolomeylə görüşəcək. Səfər zamanı Zelenskinin həmçinin Ukrayna və Krım-tatar icmasının nümayəndələri ilə də görüşü planlaşdırılıb.

❑ **Emil SALAMOĞLU,**
**"Yeni Müsavat"**

# Qəbələdə toyda zəhərlənənlərin sayı 89-a çatdı, cinayət işi açıldı - təfərrüat

## Eyyub Hüseynov: "Şadlıq evləri ilə müqavilə olmadıqca, zəhərlənmələr davam edəcək"

## Adil Qeybulla: "Hazır qidaları 5-6 dərəcədən yuxarı istidə saxlamaq olmaz"

**Xəbər verdiyimiz kimi, Qəbələnin Zərgərli kəndində keçirilən toy mərasimindən sonra kütləvi zəhərlənmə halı qeydə alınıb. Məsələ ilə bağlı Qida Təhlükəsizliyi Agentliyi və Baş Prokurorluq Qəbələdə baş verən zəhərlənmə ilə bağlı birgə məlumat yayıb. Məlumatda deyilir:**



"Avqustun 5-i Qəbələ rayonu Zərgərli kəndində Həsən Əsgərovun həyətində təşkil olunmuş toy məclisində iştirak edən təxminən 500 nəfər qonaqdan 89 nəferi (19-u qadın, 8-i yetkinlik yaşına çatmayan) qida zəhərlənməsi diaqnozu ilə müalicə müəssisələrinə müraciət edib. Rayon polis şöbəsi və prokurorluğu əməkdaşlarının, eləcə də Qida Təhlükəsizlik Agentliyinin Şəki Regional bölməsinin əməkdaşlarının iştirakı ilə dərhal hadisə yerinə baxış keçirilib, toy məclisində verilmiş ayrı-ayrı qida məhsullarından nümunələr qablaşdırılaraq götürülüb və digər zəruri istintaq hərəkətləri yerinə yetirilib. Fakta görə rayon prokurorluğunda Cinayət Məcəlləsinin 200.3-cü (bilə-bilə pis keyfiyyətli məhsulların istehsalı, satışa buraxılması və ya belə məhsulların satışı, onların keyfiyyətsiz olmasının gizlədilməsi ehtiyatsızlıqdan zərərçəkmiş şəxsin sağlamlığına az ağır və ya ağır zərər vurulmasına səbəb olduqda) və 314.1-ci (səhlənkarlıq) maddələri ilə cinayət işi başlanıb, insanların zəhərlənmə səbəblərinin və digər halların müəyyənləşdirilməsi məqsədilə müvafiq ekspertizalar təyin edilib.

İlkin araşdırma zamanı müəyyən olunub ki, qonaqlar toy məclisində müxtəlif qida və içki məhsulları (kabablar, toyuq əti, salatlar, qarpız, üzüm, düşes, kompot və sair) qəbul etdikdən sonra halları pisləşib, dərhal rayon mərkəzi xəstəxanasına və Qəbələ rayon Müalicə Diaqnostika Mərkəzinə müraciət ediblər. Hadisə zamanı zərər çəkmiş şəxslərin xəstəxanalara yerləşdirilməsi təmin olunub, onlardan 88-i ilkin tibbi yardım göstərilməklə evə buraxılıb, 1 nəfərin isə stasionar şəraitdə müalicələri davam etdirilir. Hazırda iş üzrə təqsirkar şəxslərin dairəsinin müəyyənləşdirilərək məsuliyyətə cəlb edilmələri istiqamətində zəruri istintaq hərəkətləri davam etdirilir. Qida təhlükəsizliyinə və qida məhsulları istehlakçılarının hüquqlarının pozulmasına yönəlmiş qanun pozuntularının qarşısının alınması istiqamətində bundan sonra da ən ciddi tədbirlər görüləcək".

**Bəs toyda əsasən hansı qidalardan zəhərlənmələr baş verə bilir?**

**Məsələ ilə bağlı Azad İstehlakçılar Birliyinin sədri Eyyub Hüseynov "Yeni Müsavat"a**



Eyyub Hüseynov



Adil Qeybulla

**danışdı:** "Ümumiyyətlə, Azərbaycan vətəndaşlarının tədricən və yaxud qəfildən zəhərlənməyə məruz qalması olayları ilə tez-tez rastlaşırıq. Bu illərdir ki, davam edir. Bu cür olayların baş verməməsi üçün cəld reaksiya mexanizmi yaradılmalıdır. Yeni dövlət məmuru işləmədiyi zaman həmin quruma zəng vurulsun və dərhal hadisə yerinə gəlsinlər. Hələlik ölkəmizdə belə bir mexanizm yoxdur. Yeni haradasa təhlükəli qida satıldıqda, heç bir mexanizm yoxdur ki, dərhal gəlib bu məsələni həll etsin. Məsələn, şadlıq evi işə başladığı zaman dövlət orqanlarının iş saatı bitir. Qurumların heç biri saat 6-dan sonra hansısa şadlıq evinə gedib, yoxlama aparmır. Beləliklə, qeyd etdiyim mexanizm olmadığı və təhlükəli qidaların geri çağırması məsələsi olmadığı, Qida Təhlükəsizliyi Agentliyinin öz səlahiyyətlərini tam yerinə yetirə bilmədiyi bir şəraitdə əlbəttə ki, belə bir hadisələr olacaq.

Dəfələrlə qeyd etmişik ki, sertifikatlaşdırma orqanı müstəqil olmalıdır. Bu məsələ QTA-nin tərkibində ola bilməz. Məsələn, şadlıq evləri qida zəncirində iştirak edən bir subyektdir. Bilirik ki, qida zəncirində iştirak edən subyektlər hamısı QTA-nin reysterinə daxildir, yeni guya nəzarəti altından keçir. Tutaq ki, Qəbələdəki həmin şadlıq evi resyterə daxil olub və orada zəhərlənmə baş verib. Bu zaman şadlıq evinin sahibi sertifikatı təqdim edəcək quruma ki, "bunu siz vermisiniz, siz nəzarət etmişiniz". Ona görə də bildirirəm ki, sertifikat verən orqanla, nəzarət verən orqan eyni olmamalıdır. Nə qədər ki, səlahiyyət uğrunda mübarizə gedəcək, əsas məsələ kənarda qalacaq, bu problem davam edəcək".

**Eyyub Hüseynov şadlıq evlərində təhlükə yarada biləcək qidalardan da söz açdı:** "Əsasən salatlarla bağlı təhlükə olur. Əslində salatlar 3-4 saat ərzində qalmalıdır. Lakin şahidi oluruq ki, şadlıq evlərinin bir çoxunda dünəndən qalmış salatlar verilir. Ümumiyyətlə, şadlıq evlərində sifariş verənin hüququ yoxdur. Araşdırmalar aparmışıq ki, nəinki regionlarda, hətta Bakıda olan şadlıq evləri vətəndaşlarla heç bir müqavilə bağlamır. Ortada heç bir şərt, müqavilə, məsuliyyət olmadığından zəhərlənmə hadisələri baş verir".

**Tibb elmləri doktoru Adil Qeybulla isə qeyd etdi ki, istənilən qidadan zəhərlənmə ola bilər:** "Xüsusən də mikroblar üçün mühit olan ət və balıq məhsulları bu şəraiti yarada bilir. Ümumiyyətlə, istənilən məhsulun istifadə müddəti başa çatarsa, təbii ki, onun üzərində olan mikroblar fəaliyyətə başlayır, ona görə də qida məhsullarının saxlanılma qaydalarına riayət etmək lazımdır. Çox təəssüf ki, ölkəmizdə qidaların dövriyyəsi, saxlanılma qaydalarına riayət olunmur. Bütün bunlarla yanaşı, zəhərlənmə olayı cinayət hadisəsi olduğu üçün bu məsələ ciddi araşdırılmalıdır. Yalnız hüquq-mühafizə orqanları sahibkarları cəzalandırmaqla iş bitmir, bu işin kökləri araşdırılmalıdır".

**Adil Qeybulla təhlükəsizlik qaydaları ilə bağlı öz tövsiyələrini də bildirdi:** "Xüsusən bişirilmiş qidanın saxlanma temperaturuna diqqət edilməlidir. Bişmiş qida mümkün qədər tez bir müddətdə istifadə olunmalıdır. Bəzən qidaların uzun müddət açıq şəraitdə saxlanıldığının şahidi oluruq. Hazır qidanı 5-6 dərəcədən yuxarı temperaturda saxlamaq olmaz".

Bəs zəhərlənmə zamanı ilkin yardımı necə etməli?

Mütəxəssislər bildirir ki, zəhərlənmə baş verən zaman ilk əlamətlər ümumi zəiflik, halsızlıq, ürək bulanması, qusma, ishal və bədən hərarətinin artması olur. Beləliklə, zəhərlənmədən şübhələndikdə həkimə müraciət olunana qədər mümkün qədər çoxlu su qəbul edərək, qusmağa çalışmaq lazımdır. İlk olaraq, mədə-bağırsağı yumaq - çoxlu miqdarda sodalı, ya marqanslı su içmək, bağırsağı təmizləyici imalə etmək lazımdır. Əgər bu, mümkün olmazsa, hər 10 kq bədən çəkisinə 1 həb olmaqla kömür dərman vasitəsini əzib onu 1 stəkan suya qatıb içmək lazımdır. Bunu içməklə toksinlərin qana keçməsinin və zəhərlənmənin qarşısı alınır. Bundan sonra isə dərhal həkimə müraciət edilməlidir.

❑ **Xalidə GƏRAY,**
**"Yeni Müsavat"**

YENİ MÜSAVAT
N 164 (7334) 7 avqust 2019



# Paşinyanın açıqlamalarına Qarabağ mitinqi ilə cavab verəkmi?

## Tofiq Zülfüqarov: "Azərbaycanın ayrı seçimi qalmayıb"
## Rey Kərimoğlu: "Bütün qırmızı xətlər keçilib"

**"Qarabağ Ermənistanın ayrılmaz hissəsidir". Bunu Xankəndindəki mitinqdə çıxışı zamanı Ermənistanın baş naziri Nikol Paşinyan deyib. Paşinyan çıxışına "Miatsum" (Azərbaycan torpaqları hesabına "birləşmiş" erməni dövlətinin yaradılması ideyası - red.) şüarı ilə başlayıb: "Bütün dünyanın qürurlu ermənilərini salamlayıram və sözlərimə 1988-ci ildə bu Dirçəliş meydanını silkələyən "Miatsum", "Miatsum" şüarı ilə başlamaq istəyirəm".**

O, ermənilər arasında parçalanmaya son qoymağın vaxtının çatdığını, Ermənistandakı xalq inqilabının ümumerməni inqilabı kimi başa düşülməli olduğunu bildirib: "İnqilab Ermənistanda, Qarabağda və bütün ermənilər arasında davam etdirilməlidir. "İcevanlı", "qarabağlı", "gümrülü" anlayışlarından imtina edilməlidir".

**Paşinyan mumerməni ideyaları üçün Qarabağ, Ermənistan və erməni diasporunun birgə çalışmalı olduğunu bildirib. O, erməni hökuməti üçün repatriasiyanın (Vətənə qayıdış - red) prioritet mövzu olduğunu deyib. Erməni baş nazir həmçinin hökumətin "meqalayihələr"indən danışıb:** "Ermənistan dünyanın 20 ən effektiv ordusundan birinə sahib olmalı, dünyanın ən effektiv kəşfiyyatından birini yaratmalı, turistlərin sayını 15 milyona çatdırmalı, təhsilin maliyyələşdirilməsini 20 dəfə artırmalıdır. Çoxları soruşa bilər ki, bəs Qarabağ niyə bu planlarda yoxdur? Cavab çox sadədir. Qarabağ Ermənistandır, vəssalam".

Erməni baş nazirin sayıqlamaları haqlı olaraq Azərbaycan tərəfdə ciddi etirazla qarşılanıb. Bir ildən çoxdur iqtidarda olan Paşinyanın tez-tez bu cür qıcıq doğuran açıqlamalarına cavab vermək zamanının çoxdan ötdüyü vurğulanır. Onun dedikləri həm də Qarabağla bağlı ümumxalq mitinqinin keçirilməsinin vacibliyini gündəmə gətirib.


Tofiq Zülfüqarov


Rey Kərimoğlu

**Sabiq xarici işlər naziri Tofiq Zülfüqarov müharibə ehtimallarından söz açdı:** "Danışıqlar məsələsi artıq gündəmdən çıxandan sonra müharibənin baş vermə imkanı aydın şəkildə görünür. Bu, demək olar alternativ bir məsələyə çevrilib. Maraqlısı odur ki, hərdən Paşinyan da müharibənin bərpasını istəyir. O, Rusiyadan dönüb qərbmeylli siyasət həyata keçirmək niyyətindədir. İkinci məqsəd ondan ibarətdir ki, ölkədaxili müxalifət olan Köçəryan, bütövlükdə Qarabağ qruplaşması rusiyameylli siyasətçilərdir. Hərbi əməliyyatların bərpasından sonra onun nəticəsindən asılı olmadan Paşinyan Rusiyanı ittiham edəcək ki, bizə kömək etmədiniz, Azərbaycanı silahlandırmısınız, ona görə əlaqələri qırıb Qərbə gedəcəyik. Müxalifəti də bu yolla neytrallaşdıracağını düşünür. Bu baxımdan belə addımlar ata biləcəyi gözləniləndir. Bu bəyanatlar bir daha onu göstərdi ki, Azərbaycanın ayrı seçimi qalmayıb. Azərbaycan bu siyasəti qeyd olunan tezislər əsasında beynəlxalq səviyyədə ifşa etməli, müharibəyə hazır olmalıdır".

**Sabiq nazir Qarabağla bağlı mitinq üslublarının tərəfdarı deyil:** "Mitinq nəyə lazımdır? Əks fikirdə olan kimsə varmı? Hər kəs bu məsələdə eyni mövqedədir. Burada beynəlxalq ictimaiyyətin rəyi çox önəmlidir. Bəlkə bir siyasi hadisə olmalıdır ki, dünya ictimaiyyəti Azərbaycan xalqının bu siyasəti öz hökumətindən tələb etdiyini görsün. Bu şəkildə hər hansı tədbir, zənnimcə, beynəlxalq təbliğat baxımından bizim üçün əhəmiyyətli olar".

**Qarabağ qazisi Rey Kərimoğlu hesab edir ki, Qarabağ problemi elə bir həddə gəlib çatıb ki, hər bir Azərbaycan vətəndaşı üçün çox ağırdır:** "Artıq Ermənistan tərəfi açıq şəkildə hərəkətləri ilə ölkəmizi saymır, hətta dövlətimizi aşağılayır. Bütün "qırmızı xətlər" keçilib. Qarabağ probleminin həllinin danışıqlar yolu ilə mümkünsüz olduğunu anlamayan yoxdur. Bunun yeganə yolu müharibədir. Azərbaycan torpaqlarını ordusunun gücü ilə azad etməlidir. Ölkəmiz bu istəyi səsləndirib həyata keçirməyə başlayanda ermənilər danışıqlara gələcəklər. Başqa yolları da yoxdur. Ermənilər danışıqları pozmaqla məşğuldurlar. Qarabağla bağlı ümumxalq mitinqini keçirmək də olar. Hələ ki təəssüflər olsun hökumət buna getmir. Heç nədən qorxmaq lazım deyil. Qarabağ məsələsi xalqımızı birləşdirən bir məqamdır".

❑ **Cavanşir ABBASLI,**
**"Yeni Müsavat"**

# Azərbaycanda 2 nəfəri öldürən Sirus Qoçqaninin cərrah olmadığı üzə çıxdı





## Həkimlə modelin ölümünə səbəb olan əməliyyatların yeni və ilginc təfərrüatları var...

**Azərbaycanda özünü plastik-estetik cərrah kimi təqdim edən, artıq 2 pasiyentinin əlində öldüyü Sirus Qoçqani əslində cərrah deyilmiş! Bununla belə, Sirus Qoçqani ölkəmizdə liposaksiya (piy sovurma) kimi ağır, riskli əməliyyatları gerçəkləşdirir.**

Bu ilin mayında onun bıçağı altında, əməliyyat masasında Səhiyyə Nazirliyi Elmi-Təhqiqat Ağciyər Xəstəlikləri İnstitutunun ginekoloqu Sona Gürgün Vəliyeva dünyasını dəyişib. "Baku Medikal Plaza"da baş tutan acı sonluqlu əməliyyatdan sonra Sona Gürgün Vəliyevanın yaxınları onun ölümündə plastik-estetik cərrah Sirus Qoçqanini, assistenti olan həyat yoldaşını suçlandırıblar. Sona Gürgün Vəliyeva Sirus Qoçqaninin bıçağı altında dünyadan köçən ilk pasiyent deyil. Bundan əvvəl, 2017-ci ilin iyununda Sirus Qoçqaninin liposaksiya əməliyyatına götürdüyü 22 yaşlı model Leyla Oruclu da dünyasını dəyişmişdi.

O dövrdə Leyla Oruclunun ölümündən sonra Sirus Qoçqani mərhumun yaxınlarından uzaq gəzməyə çalışırdı. Mərhum modelin yaxınlarına xəbər yollamışdı ki, guya əməliyyatdan sonra psixologiyası pozulub.

22 yaşlı modelin anası Sevinc Oruclu qızının vəfatından sonra xəstəxananın anestezioloqunun və icraçı direktorunun onları ziyarət etdiyini, ancaq əməliyyatı həyata keçirən Sirus Qoçqaninin ortalıqda olmadığını açıqlamışdı.

Onun sözlərindən sitat: "Mən onlara əməliyyatı həyata keçirən həkimin harada olduğunu soruşdum. Mənə dedilər ki, guya onun psixologiyası pozulub. O gündən sonra heç bir əməliyyata girməyib. Gedib hansısa bir rayonda ağacın altında oturub və orada da gizlənib".

**Modelin anası qızının əməliyyata götürülməsinə əks göstərişlərin olduğunu, lakin Sirus Qoçqaninin buna baxmayaraq əməliyyatı gerçəkləşdirdiyini də axar.az-ın müxbirinə demişdi.**

**Sitat:** "Həmin gün saat 6-da əməliyyatdan çıxıb. Qızımı sonra palataya köçürüblər. Palatada Leyla kimi əməliyyatdan çıxan qızlar olub. Onlar da deyirlər ki, Leyla palataya daxil olan kimi onun vəziyyətinin ağır olduğu üzündən görünürdü. Həkimlər 5 dəqiqə sonra Leylanı reanimasiyaya aparıblar. Həmin gün biz gec xəbər tutduq. Reanimasiyaya gəldiyimiz zaman qızımın ölü kimi yatdığını gördüm. Ayın 25-də onu xəstəxanadan götürmüşük. Bədəninin aşağı hissəsi tamamilə hərəkətsiz idi. İlk dəfə yanına girən kimi "Qızım, məni eşidirsən?" deyə səsləndim. Yalnız qaşlarını tərpədə bildi. 25 iyun saat 11-12 radələrində də dünyasını dəyişdi. Bilirsiz, Leyla çox qorxaq bir insan idi. O elə bilib ki, bu əməliyyat dırnaq qaynağı kimi bir şeydir. Hətta rəfiqəsinə də mesaj yazıb ki, əməliyyatdan sonra görüşüb bulvara gedərik. Filmə baxıb evə dönərik. Düşünüb ki, gəlib yorğun olacağını deyib keçib otağında yatacaq. Ona əgər bu əməliyyatın 1 faiz belə ölüm riski olduğunu desəydilər, heç vaxt əməliyyat olunmazdı. Həm də o, Mübariz həkimin yanında olub. Mən qanla bağlı elan verəndə Mübariz həkim məni yığdı və "axı o qıza əməliyyat olmaz demişdim" dedi. Leylanın 50 kq çəkisi var idi. Mübariz həkim də onun heç bir əməliyyata ehtiyacı olmadığını, sadəcə, psixoloji olaraq başa salınmalı olduğunu dedi. Bu klinika da Mübariz həkimin analizləri ilə əməliyyatı edib. Ancaq analizlərdən də görünür ki, bu adamı əməliyyat etmək olmaz".

Sirus Qoçqani Leyla Oruclunun əməliyyata götürülməsinə əks göstərişlərin olduğunu bilə-bilə onu əməliyyata götürüb. Model əməliyyatdan sonra dünyasını dəyişib. 2 il sonra, yəni 2019-cu ilin mayında Sirus Qoçqani daha bir əks göstərişli pasiyenti olan Sona Gürgün Vəliyevanı da əməliyyata götürüb və nəticə fərqli olmayıb. Bu, Sirus Qoçqani adlı birinin 2 Azərbaycan vətəndaşını öldürməsi haqda faktlardır. Üstəlik, İranın Azərbaycandakı səfirliyi model Leyla Oruclunun ölümündən sonra Sirus Qoçqaninin cərrah olmadığı haqda açıqlama da verib.

Beynəlxalq hüquq üzrə professor Fərhad Mehdiyev model Leyla Oruclunu əməliyyata götürən Sirus Qoçqani ilə bağlı İran səfirliyi ilə əlaqə saxlanıldığını açıqlamışdı. Demişdi ki, İran səfirliyindən verilən məlumatda bildirilib ki, həmin həkim cərrah ixtisasına sahib deyil. Azərbaycanda isə bu həkim cərrahiyyə əməliyyatlarını həyata keçirir.

**F.Mehdiyev əcnəbi həkimlərin ölkədə fəaliyyət göstərməsi üçün aidiyyəti qurumlardan icazə alınmalı olduğunu vurğulayıb:** "Doğrudur, Sirus Qoçqani icazəli şəkildə ölkədə fəaliyyət göstərsə də, bəzi 1 həftəlik, 10 günlük fəaliyyət üçün ölkəyə gələn həkimlərin çoxu üçün bu icazə alınmır. Bu həkimlərin məsuliyyət daşıması hüquqi əsaslarla tənzimlənir. Bu həkimlər yerli həkimlərlə eyni məsuliyyəti daşıyır. Bu, həm cinayət, həm də mülki məsuliyyətdir. Həkimləri dəvət edən tibb müəssisələri də müvafiq sənədləri yoxlamadan əcnəbi həkimləri işə götürürsə, onda həmin müəssisənin də məsuliyyəti ağırlaşır".

**Hüquqşünas bildirib ki, həkimlər fəaliyyətində yol verdiyi qüsurlara görə cinayət məsuliyyətindən daha çox mülki məsuliyyətə cəlb olunmalıdır:** "Çünki bu qəsdli cinayət sayılmır. Ona görə elə həkimlərə tətbiq edilən sanksiyalar aşağıdakılar olmalıdır:

- Lisenziyası müəyyən müddətdə dayandırılmalıdır;
- Təkrar imtahan vermək üçün oxumağa göndərilməlidir;
- Zərərçəkmiş şəxsə, yaxud onun ailəsinə kompensasiya ödəməlidir.

Təəssüflər olsun ki, Azərbaycanda həkimlər zərərçəkmişə ödəməli olduğu pulu rüşvət formasında verərək, məsuliyyətdən yaxa qurtarmağa çalışırlar. Bu sahədə hüquq-mühafizə xidmətləri, məhkəmələr davamlı surətdə işləməlidir".

❑ **E.MƏMMƏDƏLİYEV,**
**"Yeni Müsavat"**



# 50 il əvvəl "plana düşmüş" həyətin qəmli tarixçəsi

**Samir SARI**

**46-47 il öncəydi, ağlı söz kəsən uşaq idim, hər dəfə Bakıda yaşayan qohumlarımız kəndə qonaq gələndə danışırdılar, eşidirdim ki, onların yaşadığı məhəllə plana düşüb, bu gün-sabah sökəcəklər və onlara başqa yerdə, hansısa mikrorayonda yeni ev verəcəklər.**

Həmin həyətin yerləşdiyi məhəllə o vaxtkı Volodarski adına tikiş fabrikinin arxasındaydı. O ətrafda yavaş-yavaş tikinti gedirdi. O zamanlar orada "Sevil" parkı vardı, amma Rusiya səfirliyi yox idi. Elə Türkiyə səfirliyinin indi yerləşdiyi yerdə də park vardı.

Böyüdükcə bu sözü daha tez-tez eşidirdim: "Bu məhəllə plana düşüb, evləri sökəcəklər, həyətdə yaşayanlara, qeydiyyatda olanlara başqa yerlərdə ev verəcəklər".

Bakıya gələndə hərdən həmin həyətdə qonaq olurdum və görürdüm ki, bu həyət, küçə şəhərin ən yaxşı yerində yerləşir. Təsəvvür edin, dövlət sirkinə, Bəhramov adına stadiona, Lenin sarayına, "28 May"a, "Kubinka"ya, köhnə avtovağzala, bulvara, "Torqovı"ya və sair mühüm yerlərə piyada getmək mümkün olan bir məkan idi.

Amma di gəl, hələ ötən əsrin ortalarında plana düşmüş bu küçəyə yaxın gələn, planı reallaşdıran yox idi.

SSRİ dağıldı, həmin plan reallaşmadı. Sonra Bakıda tikinti bumu başladı, şəhər və onun ətrafında, "Tütək səsi"ndəki Cəbrayılın sözü olmasın, bir çərək yer qalmadı, hamısını aldılar, on minlərlə yeni yaşayış binaları, şadlıq sarayları, alış-veriş mərkəzləri tikdilər. Hətta həmin küçənin yaxınlığındakı məhəllələr də söküldü-tikildi, 50 il əvvəl "plana düşmüş" küçə və həyətlər eləcə də qalır. Nə oraları alan var, nə tikən var.

O həyətlərdə yaşayan və oranın "bu gün-sabah söküləcəyi"ni gözləyən orta yaşlılar artıq rəhmətə gediblər, uşaqlar yaşa dolublar, yeniyetmələr artıq təqaüdə çıxıblar və küçədə nərd oynayırlar, amma "plana düşmüş" küçə diricə yerindədir.

O küçənin taleyi niyə elə oldu, bilmirəm. Necə oldu ki, bütün Bakı yenidən tikildi, paytaxt görkəmini büsbütün dəyişdi, amma şəhərin mərkəzindəki məkan 60-cı illərdə olduğu kimi qaldı?

Kim bilir, bəlkə də inşaat sektorunda çalışan sahibkarlar o küçəyə də gəliblər, o həyətləri alıb sökmək, yerində göydələnlər tikmək istəyiblər, amma yerli sakinlər ucuz qiymətlər təklif edildiyindən razılaşmayıblar, belə əməliyyatlar zamanı 3-4 milyon qabağa düşmək istəyən iş adamları isə acıq edib gediblər?

Deyəsən, məhz belə olub. Yoxsa şəhərin ən yaxşı yerlərindən biri bu cür sahibsiz qalmazdı.

Dünən saytlardan oxuyuram ki, Mirzağa Əliyev küçəsində 130 il əvvəl tikilmiş binanın sakinləri də dirəşiblər, köçmək istəmirlər. Həmin binanın şəkillərini də yaymışdılar və qeyd edirdilər ki, bina qəzalı vəziyyətdədir. Əslində isə qəzalı vəziyyət-zad yoxdur, bina 10 ballıq zəlzələdən çıxmış durumdadır. İki sərçə o binanın damına qonub cilvələşsə, bina çökəcək, orada yaşayanlar binanın qalıqları altında qalacaqlar (hələ srağagünkü külək nə əcəb o binanı havaya uçurtmadı, mat qalmalı işdir).

İndi deyirlər, bu binanın sakinləri qeyri-real tələblər irəli sürürlər. "Qeyri-real" deyəndə, yəqin ki, onların bir çoxu normal yaşayış yeri istəyirlər, amma "mənim bu binadakı evim super təmirli idi, 300 min verməsəniz, çıxmayacağam" deyənlər də var. Elə olarmı ki, olmasın? Mümkün deyil. Necə ki, 39 dərəcə istidə 4 nəfərin işlədiyi otaqda mütləq biri "kondisioneri söndürək" təklifi ilə çıxış edirsə, evləri söküləsi dörd qonşunun biri də mütləq "mən satmıram" deyəcək.

Paytaxtda orda-burda, yeni inşa edilmiş binaların künc-bucağında qalan köhnə, yastı-yapalaq evlərin çoxu o cür adamlara məxsusdur. Onlar dirəşir, evlərinin dəyərindən qat-qat artıq pul istəyirlər, nəticədə evi alıb-söküb-tikən olmur. Beləcə, ömür axır, gedir, bir gün bitir, köhnə ev olduğu kimi qalır, 5-10 minə görə dirəşənlər isə mənzillərini son mənzilə dəyişirlər.

Müəllifin demək istədiyi odur ki, yaxşı müştəri çıxanda, babat pul verəndə, köhnə evləri satmaq, yeni evlərə köçmək, 5-10 gün rahat yaşamaq lazımdır. 50 il oturub əvvəl-axır birinin gəlib o evə 200 min dollar verəcəyini gözləmək havayı işdir. Əlbəttə, bir gün elə olacaq, vaxt gələcək, Rusiya səfirliyinin həndəvərindəki yerlərin 10 sotunun qiyməti yarım milyona olacaq, amma o vaxt siz olmacaqsınızsa, o yerin qiyməti lap 1 milyard olsun, nə faydası var?

# Həcc ziyarəti, Məkkədə dəfn olunmaq şərəfi...

## Hacı İlqar: "Allahın vacib buyurduğu əməli yerinə yetirərkən ölən şəxs Qiyamət günü bağışlanmış olur"

**Xəbər verdiyimiz kimi, Azərbaycanlı zəvvar Səudiyyə Ərəbistanında Həcc ziyarəti zamanı dünyasını dəyişib. Qafqaz Müsəlmanlar İdarəsindən (QMİ) verilən məlumata görə, dünyasını dəyişən zəvvar 1950-ci il təvəllüdlü Bəhmən Şükürovdur. O, Həcc ziyarəti zamanı ürək çatışmazlığından vəfat edib. Ona qan təzyiqinin kəskin aşağı düşməsi diaqnozu qoyulub. Müdaxilələrə baxmayaraq zəvvar dünyasını dəyişib.**



Ümumi qaydalara görə, zəvvar avqustun 5-də Məkkədə Şövqiyyə qəbiristanlığında dəfn olunub. Bəs görəsən, bu müqəddəs yolçuluqda dünyasını dəyişən və orada dəfn olunan insanın axirəti üçün hansı üstünlükləri var?

**Bu sualı cavablandıran ilahiyyatçı-filosof Hacı İlqar İbrahimoğlu** "Yeni Müsavat"a açıqlamasında bildirdi ki, Həcc ziyarəti İslamda böyük əməllərdən biridir. Hər bir müsəlmanın boynuna gələrsə, onu yerinə yetirmək vacibdir, əgər yerinə yetirməzsə, bir vacib əməli tərk etmiş olur və Qiyamət günü buna görə cavab verəcək: "Ancaq Həcc ziyarətini yerinə yetirərsə, Allah qatında namaz, oruc və digər vacib əməlləri yerinə yetirmiş şəxs kimidir. Sözsüz ki, bütün əməlləri yerinə yetirmək üçün insan ilk növbədə niyyətinə fikir verməlidir. Bu əməllərin niyyətində qürbət qəsdi, Allaha yaxınlaşmaq niyyəti olmalıdır və bu niyyətlə vacib əməl yerinə yetirilməlidir".

**İlahiyyatçı bildirdi ki, Həccə gedən insan ilk növbədə səmimi qəlbdən tövbə etməlidir, Allahdan günahlarının bağışlanmasını istəməlidir:** "Səmimi tövbə həm Allahla bəndə arasındakı münasibətlərdə, həm də "həqqünnas"da, yəni insanlarla münasibətdə, onlarla halallaşması baxımından önəmlidir. Yəni Həcc, sadəcə, fiziki olaraq, coğrafi yerdəyişmədən ibarət deyil. Həccə gedən insan ilk növbədə tövbə etməlidir, günahlarının bağışlanmasını istəməlidir. İnsanların haqqına giribsə, onların halallığını əldə etməlidir. Bu mənada həqiqi hacı o kəsdir ki, onun Allaha tərəf dönüşü baş verir, yeni mənəvi təkamül mərhələsinə qədəm qoyur. Bir insanın həqiqi tövbəli halda, günahlardan təmizlənmiş halda, insanlarla münasibətlərini qaydaya salmış halda Həccə getməsi lazımdır".



**İ.İbrahimoğlunun sözlərinə görə, Allahın vacib buyurduğu əməli yerinə yetirərkən dünyasını dəyişən şəxs Qiyamət günü bağışlanmış olur:** "Bunlar baş verməzsə, insanı, sadəcə, yol gedib gəlmiş olar, Həccin həqiqi mahiyyəti baş tutmuş olmaz. Həcc ziyarəti insanın halal yolla qazandığı pulla olmalıdır. Bütün bu şərtlər yerinə yetirilərsə, o zaman Həcc yolu çox müqəddəs bir yoldur. İmam Sadiq (ə.s.) bu barədə buyurub: "Hər kim Həcc ziyarətini yerinə yetirərkən Məkkə yolunda, gedərkən və ya dönərkən dünyasını dəyişərsə, Qiyamət günündə böyük kədər və qəmdən azad olacaq". Qiyamət günü Allah həmin insana inayət edəcək. Çünki o, Allahın vacib buyurduğu əməli yerinə yetirərkən dünyasını dəyişmiş olur və ən gözəl, bəyənilmiş halda dünyadan getmiş olur. Qiyamət günü də bağışlanmışlardan və qurtulmuşlardan olur".

Dünyasını dəyişən zəvvarımıza Allahdan rəhmət diləyirik.

❑ **Nərgiz LİFTİYEVA, "Yeni Müsavat"**

# "Cin çıxaran" dəstə hakim qarşısına çıxarılır

## 25 yaşlı gənci çubuqla döyüb öldürmüşdülər

**"Cin çıxaran" dəstə hakim qarşısına çıxarılır. Musavat.com xəbər verir ki, cin çıxarmaq adı ilə vətəndaşın ölümünə səbəb olan şəxslərin məhkəməsi başlayır.**

6 nəfərlik dəstənin cinayət işi üzrə məhkəmə iclası Bakı Ağır Cinayətlər Məhkəməsində baş tutacaq. İş hakim Əli Məmmədovun icraatına verilib. Məhkəmənin hazırlıq iclası yaxın günlərdə keçiriləcək.

Xatırladaq ki, kifayət qədər səs-küy səbəb olan hadisə ötən il noyabr ayının 10-da Şabran şəhərində baş verib.

Belə ki, 25 yaşlı Murad Soltanovun Şabran şəhərində kirayədə yaşadığı evdə üzərində zorakılıq əlamətləri olan meyiti tapılıb. Polis və prokurorluq orqanları əməkdaşlarının keçirdikləri istintaq və əməliyyat-axtarış tədbirləri nəticəsində hadisənin altı nəfər tərəfindən törədildiyi müəyyən edilib.

Araşdırmalarla onların Şabran şəhər sakinləri Vüsal İbrahimov, Əfqan Tanrıverdiyev, Cəmil Qayıbov, Sahib Xəlilov, Aprel Xəlilov və Füzuli Qəribov olduqları müəyyənləşdirilib və onlar şübhəli şəxs qismində saxlanılıblar. İlkin təhqiqat zamanı saxlanılanlar törətdikləri cinayət əməlini etiraf ediblər. Həmin şəxslərin evdə M.Soltanovu guya xalq təbabətindən istifadə olunmaqla müxtəlif formada müalicə etdikləri, bədənindən şər qüvvələri çıxarmaq adı ilə nar ağacının çubuqları ilə vuraraq ona ağır bədən xəsarətləri yetirdikləri, məhz bundan sonra sonuncunun kirayədə qaldığı mənzildə dünyasını dəyişdiyi məlum olub.





Araşdırmalarla M.Soltanovun Bakı şəhərində əvvəllər də eyni üsulla guya müalicə aldığı, lakin sonuncu belə "seans" zamanı sağlamlıq durumunun qəfil pisləşdiyi müəyyən edilib. Eyni zamanda keçirilən tədbirlərlə Vüsal İbrahimovun yaşadığı evə baxış zamanı oradan 1 ədəd qanunsuz olaraq saxladığı "Toz-8" markalı tüfəng aşkar edilərək götürülüb.

Təqsirləndirilən şəxslərə qarşı Cinayət Məcəlləsinin 126.3 (iki və ya daha çox şəxsə qarşı, habelə təkrar və ya bir qrup şəxs, qabaqcadan əlbir olan bir qrup şəxs, mütəşəkkil dəstə və ya cinayətkar birlik (təşkilat) tərəfindən törədilən qəsdən sağlamlığa ağır zərər vurma ehtiyatsızlıqdan zərərçəkmiş şəxsin ölümünə səbəb olduqda) və 138.2-1-ci (Tətbiqi müəyyən olunmuş qaydada qadağan edilmiş diaqnostika və müalicə üsullarını, dərman vasitələrini tətbiq etmə ehtiyatsızlıqdan şəxsin ölümünə və ya sağlamlığına ağır və ya az ağır zərər vurulmasına səbəb olduqda) maddələri ilə ittiham irəli sürülüb.

❑ **İlkin MURADOV, Musavat.com**

YENİ MÜSAVAT
N 164 (7334) 7 avqust 2019

**Dünyada əhalinin şəhərlərə axışmasının qarşısını almaq üçün müxtəlif proqramlar tətbiq olunur. Çünki son onilliklərdə şəhərləşmə - əhalinin kütləvi şəkildə şəhərlərə köçməsi bir sıra fəsadlar yaratmağa başlayıb. BMT-nin məlumatına görə, bu gün bəşəriyyətin yarısı - 3.5 milyard insan şəhərlərdə yaşayır. 2030-cu ilə qədər dünya əhalisinin təxminən 60 faizi şəhərlərdə yaşayacaq. Qarşıdakı onilliklərdə qlobal urbanizasiyanın 95 faizi inkişaf etməkdə olan ölkələrin payına düşəcək.**

# Azərbaycanda şəhərdən kəndə dönüşü necə stimullaşdırmalı - araşdırma

## **Natiq Cəfərli:** "İkinci milyonluq şəhər yaradılmalıdır"

## **Nicat Nəsirli:** "İlk növbədə kənddən şəhərə axını dayandırmaq lazımdır"

Şəhərlərin ümumi sahəsi Yer kürəsinin quru ərazisinin yalnız 3 faizini təşkil etsə də, enerji istehlakının 60-80 faizi və karbon emissiyasının 75 faizi onların payına düşür. Sürətli urbanizasiya şirin su ehtiyatlarını, kanalizasiya sistemini, yaşayış mühitini və ictimai səhiyyəni təzyiq altında saxlayır.

### Bakının cazibəsi, yoxsa ehtiyac?

Azərbaycan da ötən əsrin 90-cı illərindən etibarən əhalinin regionlardan Bakıya olan köçünü yaşayır. Bakı şəhərində qeydiyyatsız yaşamağa, işləməyə sovet dövründə qoyulan qadağa aradan qalxdıqdan sonra uzun illər boyu regionlarda işsizlik, gəlir, elektrik, qaz problemlərindən bezən əhali ya qonşu ölkələrə, ya da paytaxta axışıb. Bu proses indi də davam etməkdədir: gənclərin böyük hissəsi ya ali təhsil, ya da iş dalınca Bakı və Sumqayıta gəlir. Rayonlarda, xüsusilə kəndlərdə yaşayanların böyük əksəriyyəti yaşlılardır.

Maraqlıdır ki, Azərbaycanda gedən bu proses rəsmi statistikada demək olar ki, əksini tapmır. Belə ki, rəsmi statistikaya görə, 1989-1999-cu illərdə Bakı əhalisinin sayı 1794,9 milyondan 1788,9 milyona düşüb. Növbəti onillikdə isə bu rəqəm 2045,8 nəfərə qədər artıb. Bu isə rəsmi statistikanın, yumşaq desək, mötəbər olmadığını göstərir. Çünki 1993-94-cü illərdə təkcə işğal olunan rayonlardan Bakıya bir neçə yüz min məcburi köçkün gəlib. Bundan əlavə, əhalinin regionlardan Bakıya böyük köçü də məhz 90-cı illərin ikinci yarısında başlayıb.

Digər tərəfdən, 1979-cu il siyahıyaalmasında Bakıda 1533,2 milyon nəfərin yaşadığı qeydə alınıb. 1989-cu ilədək paytaxtda əhali artımının 261,7 min nəfər təşkil etdiyi halda, sonrakı onillikdə birdən-birə 6 min azalma ilə əvəzlənməsi qeyri-realdır. Rəsmi statistikaya əsasən 2009-cu ildə Sumqayıtda 309,5 min, ötən ilin əvvəlinə isə 341,2 min nəfər qeydə alınıb. Gəncə şəhərində yaşayanların sayı isə 313,2 min nəfərdən 332,6 min nəfərə çatıb. 2018-ci ilin 1 yanvarına Bakıdakı əhali sayının 2 milyon 45 min nəfər olduğu deyilir. Halbuki reallıqda paytaxtda yaşayanların azı 3 milyon nəfərdən aşağı olmadığı bildirilir.

Müstəqil ekspertlərə görə, statistikanın Azərbaycanda şəhərlərdə yaşayan əhalinin sayını reallıqdan az göstərməsi iqtisadi inkişafdakı regional disbalansı gizlətmək məqsədi daşıyır. Buna görə də styatistika insanları faktiki yaşadıqları deyil, qeydiyyatda olduqları ünvanın "sakini" kimi qeydə alır. Halbuki bu gün Bakıda, Sumqayıtda qeydiyyatda olmayıb, bu şəhərlərdə işləyən yüz minlərlə, bəlkə də milyonlarla insan var. Bu gün ölkə büdcəsinin gəlirlərinin 90 faizdən çoxu, ÜDM-in 80 faizindən yuxarısı Abşeron yarımadasının payına düşür.

### Türkiyə təcrübəsi: 50, 100 min lirə, 300 baş boğaz qoyun

Qeyd edək ki, kəndlərin boşalması problemini yaşayan ölkələr əhalini geri - şəhərdən kəndə köçməyə həvəsləndirmək üçün bir sıra həvəsləndiric proqramlar həyata keçirirlər. Belə ölkələrdən biri də qonşu Türkiyədir. 2017-ci ildən Türkiyə Qida, Kənd Təsərrüfatı və Heyvandarlıq Nazirliyi tərəfindən "Gənc çiftçi" proqramının icrasına başlanıb. Böyük şəhərlərdən kənddəki torpağına qayıdıb, kənd təsərrüfatının hər hansı sahəsi (heyvandarlıq, əkinçilik, quşçuluq, arıçılıq, baramaçılıq və sair) üzrə istehsal layihəsi ilə çıxış edən şəxslərə 30 min lirə, bu ildən isə 50 min lirə dövlət qrantı verilir. Proqrama yalnız 18-41 yaş arası Türkiyə vətəndaşları müraciət edə bilərlər.

"300 qoyun" proqramı isə 2018-ci ildən tətbiq olunmağa başlayıb. Müraciət edənlərin tərtib etdikləri biznes-plan bəyənilərsə, onlara qrant kimi 300 baş boğaz qoyun verilir, qoyunların sığortalanması dövlət hesabına həyata keçirilir, veterinar və yem dəstəyi zəruri olarsa, təqdim edilir. Bu şəxslər həmçinin dövlətdən minimum əmək haqqı miqdarında maaş da alırlar. Proqrama qoşulanlara yeganə şərt verilən qoyunları 3 il müddətində satmamaqdır.

Türkiyədə həmçinin ayrı-ayrı bölgələrə yönəlik proqramlar tətbiq olunur. Bu ildən tətbiq olunan bir proqram kənd təsərrüfatı, heyvandarlıq, meşəçilik, qida və su məhsulları sahələrində təhsil alan peşə kolleci və universitet məzunlarına 100 min lirə qrantın verilməsini nəzərdə tutur. Pilot qaydada 4 illiyə həyata keçiriləcək layihə uğur qazanacağı təqdirdə davam etdiriləcək. Proqram hələlik yalnız Amasya, Düzce, İzmir və Mardin bölgələrində reallaşdırılır. Proqramda iştirak üçün əsas şərt layihələrin əhali sayı 20 min nəfərdən aşağı olan yerlərdə həyata keçirilməsidir.

Türkiyə rəsmi qurumlarının məlumatına görə, bu kimi proqramların icrasına başlanan 2017-ci ildən 2019-cu ilədək 300 mindən çox insanın şəhərlərdən kəndə qayıtmasına nail olunub.

Azərbaycanda isə 2004-cü ildən bəri bölgələrdə işsizliyin azaldılması, iqtisadi inkişafın təmin edilməsi məqsədilə regionların sosial-iqtisadi inkişafına dair 3 proqram icra olunub, 4-cünün icrasına başlanıb. Rəsmi məlumatlara görə, bu proqramlar çərçivəsində regionlarda həyata keçirilən layihələrə 200 milyard manat vəsait sərf olunub. Son illərdə regionlarda sənaye məhəllələri, parkları, aqroparkların yaradılması prosesi həyata keçirilir. Eyni zamanda dövlət kənd təsərrüfatında inkişafı sürətləndirmək üçün prioritet seçilmiş bitkilərin əkini və məhsuluna, toxum, gübrə, yanacaq, texnika, cins heyvan təminatına, barama, arı yetişdirənlərə subsidiyalar ayırır. Aqrar sahəyə tətbiq edilən dövlət dəstəyi mexanizmlərindən yararlanmaq istəyənlərə hər hansı yaş məhdudiyyəti tətbiq olunmur. Lakin bu dəstək mexanizmləri ümumilikdə aqrar sahənin inkişafına yönəlmiş olub, bilavasitə əhalinin şəhərlərdən kəndə qayıdışını stimullaşdırmaq məqsədli deyil.

### Bölgələrin problemləri necə həll edilsin?

**Kənd təsərrüfatı üzrə mütəxəssis Nicat Nəsirlinin "Yeni Müsavat"a dediyinə görə, hazırda urbanizasiya bütün ölkələrin ən ciddi sosial-iqtisadi problemidir:** "Bizdə də təsəssüf ki, uzun illərdir bu proses gedir. Fikrimizcə, prosesin ən qorxulu təsiri özünü regionlarda əmək bazarının zəifləməsində göstərir. Uzun illər əmək vərdişləri kənd təsərrüfatında formalaşmış insanların, ixtisaslı mütəxəssislərin, xüsusən gənclərin şəhərə axını regionlarda ixtisaslı kadrların çatışmaması problemini ortaya çıxarır".

**Ekspert bildirir ki, bu məsələ uzun illərdir diqqət mərkəzindədir:** "Ard-arda qəbul edilən regionların sosial-iqtisadi inkişafı proqramlarının əsas hədəfi bölgələrdə məşğulluq səviyyəsinin yüksəldilməsidir. İndiyə qədər bir sıra sahələr üzrə mühüm proqramlar qəbul edilib, son illər regionlarda istehsal-emal sahələri açılıb ki, xüsusən gənc yaşda olan sakinlər özlərinə daimi iş yerləri tapıblar. Amma problem aktuallığında qalmaqdadır".



**N.Nəsirlinin fikrincə, hazırda ilk növbədə kənddən şəhərə axının qarşısını almağa yönəlmiş tədbirlər həyata keçirilməlidir:** "Fikrimizcə, bölgələrdə gənclər arasında peşəyönümlü təhsilin qurulmasına böyük ehtiyac var. Bu gün regionlarda vacib peşə sahələri üzrə kadrlara ciddi ehtiyac var. Aqrar sektor üzrə baytar, zootexnik, aqronom kimi ixtisaslı kadrlar çatışmır. Ən əsası, təsərrüfatlarda satılmayan məhsullar itkiyə gedir, təkrar emalın qurulması vacibdir. Bu mənada qida texnoloqları regionlarda yox səviyyədədir".

**İqtisadçı-ekspert Natiq Cəfərli isə deyir ki, rəsmi statistikaya əsasən Azərbaycanda urbanizasiya təhlükəli həddə deyil:** "Azərbaycan hələ ki urbanizasiya problemini tam yaşamayıb. Rəsmi rəqəmlərə görə, bu gün ölkə əhalisinin 42 faizi kənd yerlərində yaşayır. İnkişaf etmiş ölkələrdə kənd əhalisinin sayı 10-12 faiz təşkil edir. Məsələ burasındadır ki, Azərbaycanda urbanizasiya dünya təcrübəsindən bir xeyli fərqli gedir. Yəni bütün ölkə ərazisindən insanlar yalnız bir istiqamətə - Bakı və Sumqayıtın yerləşdiyi Abşeron yarımadasına axışır. Çünki iqtisadi fürsətlər bu ərazidə cəmləşib. Qeyri-rəsmi məlumatlara görə, əhalinin az qala 40 faizə yaxını bu yarımadada məskunlaşıb ki, bu da Azərbaycanda regionların inkişafına mane olan əsas amillərdən biridir. Türkiyədə bunun qarşısını almaq üçün regionlarda iqtisadi fürsətləri genişləndirdilər. Hər bir ildə - vilayətdə universitetlər açıldı, hər bölgə bir sahə üzrə ixtisaslaşdırıldı. Bu isə yeni iş yerlərinin yaranmasına, yerli əhalinin qazanc yerləri əldə etməsinə səbəb oldu".

**İqtisadçının fikrincə, Azərbaycanda regionlardan Bakıya axının qarşısını almaq, insanların öz bölgələrinə dönüşünü stimullaşdırmaq üçün ikinci çoxmilyonlu şəhərin yaradılmasına ehtiyac var:** "Bu, istənilən bir şəhər ola bilər - Gəncə, Lənkəran, Mingəçevir və sair. İkinci milyonluq şəhər ətraf bölgələrin inkişafı üçün lokomotiv rolunu oynaya bilər. Bunun üçün Bakıdan universitetlərin, mərkəzi icra hakimiyyəti orqanlarının bir hissəsini həmin şəhərə köçürmək lazımdır. Məsələn, Kənd Təsərrüfat Nazirliyi, İqtisadiyyat Nazirliyi, Meliorasiya və Su Təsərrüfatı ASC, Ekologiya və Təbii Sərvətlər Nazirliyi, Ali Məhkəmə, Konstitusiya Məhkəməsi kimi qurumlar köçürülə bilər. Bununla biz urbanizasiyanın normal, planlı şəkildə gedişinə şərait yarada bilərik. Əks halda, proses bir istiqamətli - Bakı istiqamətli getməklə, getdikcə daha qarşısıalınmaz xarakter alacaq".

**❑ Dünya SAKİT, "Yeni Müsavat"**



# Yuxusunda kitabxana görən azərbaycanlı

Zamin HACI
zaminhaci@gmail.com

**Xalqımız sarıdan bəzən pis, ümidsiz fikirlərə düşürük, ancaq elə faktlara rast gəlirsən ki, 360 dərəcə fikrini dəyişirsən (riyaziyyatı alababat oxuyanlar cümləmi anlayacaqdır). Məsələn, keçən il bir məktəbli uşaq yağış suyundan elektrik enerjisi almaq üçün qurğu qayırmışdı, bütün millət onun başına and içirdi, hətta deputatlar növbə ilə gedib uşağın yanında durub şəkil çəkdirirdilər. Həqiqətən əcaib qurğu idi, dünyada analoqu olmamışdı: yağış suyu yuxarıdan bir konusvari qabın içinə yığılıb sonra üzüaşağı axmalıydı, nəticədə pərlər hərəkətə gəlib elektrik hasil etməliydi. Düzdür, yuxarıdan tökülən sudan elektrik enerjisi alınması çox da təzə kəşf deyil, su elektrik stansiyaları elə bunun sayəsində işləyir. Ümumiyyətlə, sizə bir sirr açım: əslində bütün elektrik stansiyaları su ilə işləyir, o cümlədən atom və istilik ES-ləri. Birində zəncirvari nüvə reaksiyası, ikincisində qaz (ya da mazut-zad) suyu buxara çevirir, sonra həmin buxar təzyiqlə pərləri fırladır. Ancaq yağışdan enerji almaq təzə icad idi, heyf ki, ondan sonra yağış yağmadı bilək necə olacaq. Mollanın sözü olmasın, nəzəriyyəsi yaxşı idi, əməliyyəsi bir az şey oldu. Təbiətin bizimlə müəyyən mənfi münasibətləri vardır, yağış qurğusu qayırsaq külək əsir, külək qurğusu düzəltsək sel-su Sabirabadı basacaqdı.**

Uzun sözün qısası, bugünlərdə Suraxanı rayonu, Hövsan qəsəbəsi, E.Məmmədov küçəsi (ümid edirəm AMİP lideri Etibar Məmmədovun adına küçə qoyacaq qədər erroziyaya uğramamışıq, bu kimsə ayrı adamdır - Z.H.) ev 5a, mənzil 14-də yaşayan Osman Sərkərov adlı yoldaşdan məktub almışam. Diqqətli oxucu məktub müəllifinin ünvanını qəzetdə yazmaqla bəlkə düzgün etmədiyimi düşünər. Ancaq söhbət ondadır ki, Osman bəy indiyə qədər bütün əlaqədar və qeyri-əlaqədar dövlət orqanlarına o qədər məktub yazıb, bəlkə poçtunuza baxsanız sizdə də onun məktubu çıxacaqdır. Məsələn, mənim hesablamama görə, 2019-cu ilin yayına qədər Osman bəyin təkcə Mədəniyyət Nazirliyinə yazdığı məktubların sayı 29-a yaxındır (bir-ikisini poçtalyon itirə bilər, o üzdən təxmini yazıram). Bəs bu adam kimdir, nəçidir, niyə respublikamızda epistolyar janrın inkişafına belə töhfə verməkdədir? İlk növbədə qeyd edim ki, Osman bəy mətbuatımıza dövlət qayğısı artıb qəzetlər aradan qalxana qədər küçədə qəzet satıcısı işləmişdir, indi nə işlə məşqulat edir, düzü, xəbərim yoxdur.

Ardını məktubdan oxuyaq: "Sağ olsunlar, hansısa təşkilat Hövsanda 2 mərtəbəli kitabxana tikib istifadəyə verib. İçi çeşidli kitablarla doludur. Bədii-siyasi, tarixi-ictimai, texniki-tibbi kitablarla zəngindir. 2-ci mərtəbə oxu zalı üçün nəzərdə tutulub. Geniş, işıqlı kitabxana oxucular üçün hər şəraitlə təmin edilib. Belə mədəni xidmət Hövsanda heç zaman olmayıb. Şükür, bunu da gördüm. Arzum ürəyimdə qalmadı". Ancaq sən demə, müəllif bunu... yuxusunda görürmüş. Osman bəyin 10 mindən çox kitablı şəxsi kitabxanası var. Dövlət orqanlarına saysız məktubları da elə bu məqsədlə yazır ki, Hövsanda "Oxu evi", nəsə bir ictimai kitabxana açılsın, o da kitablarını təmənnasız həmin yerə versin. Xalq da gəlib oxusun, savadlansın, gələn dəfə ulduzların işığından manqal qalamağı, Ay nurundan samovar yandırmağı və sairə bu kimi elmi şeyləri icad etsin.

Lakin hələlik bunu yuxusunda görür. Əlaqədar orqanların cavabları adətən bu cür olurmuş: "Müraciətinizə baxdıq, filankəsə göndərdik. Filankəs müəllim Behmənkəs müəllimə göndərmişdir. Behmənkəs müəllimin yanında məktubunuzla əlaqədar müşavirədə Sehlənkəs müəllim, Şehlənkəs xanım, İlankəs bəy və Zehlənkəs cənabları çıxış etmişdir. Belə qərara gəlinib ki, qəsəbədə müvafiq kitabxananın inşasının zəruri olduğu müəyyən edilərsə növbəti illərdə bunu dövlət investisiya qoyuluşu proqramının layihəsi hazırlanarkən baxılacaqdır". Sitatın sonu. Yaz gələcək, yonca bitəcək - qısa yazsaq.

Ən ləzzətli cavablardan biri isə Mədəniyyət Nazirliyindən gəlibdir, deyir Axundov adına kitabxanaya tapşırmışıq, gəlib sizin kitabları maşına yığıb aparacaqlar. Osman bəy isə buna razı deyil, deyir mən kitabxananın məhz Hövsanda açılmasını istəyirəm.

Halbuki hövsanlılar oxumaq istəsə Çinə qədər getməyə borcludur.

***P.S.** Ümid edək bu yazıdan sonra Siçan-Pişik Nazirliyi Osman bəyin şəxsi kitabxanasını həll eləmək üçün ora bir-iki gəmirici buraxılmasını təmin edər, bizim də canımız dincələr. Rəhmətliyin oğlu, get kababxana açmağı istə də...*



# Bakı və Ankaranın işğalçıya qarşı ortaq "Yol xəritəsi"

## "Azərbaycan və Türkiyə Ermənistanı tullantı ölkəyə çevirib" - İrəvanda Soçi təlaşı; düşmən ölkənin təcridi güclənir; Rusiya və İran da Ermənistana xilas əli uzada bilmir - səbəblər; **erməni ekspert:** "Bakı bizə qarşı effektli rıçaqlar yaradıb..."

**Bu ay Rusiyanın Soçi şəhərində Azərbaycan, Rusiya və İran prezidentlərinin sammiti keçiriləcək. Bundan əvvəl analoji zirvə görüşləri Tehran və Bakıda baş tutub. Əsas hədəf bu üç qonşu dövlətin iştirakçısı olduğu "Şimal-Cənub nəqliyyat dəhlizi" layihəsi çərçivəsində birgə fəaliyyətlə bağı sonrakı ortaq addımları müzakirə etməkdir. Layihədə Azərbaycan mühüm aralıq, tranzit ölkə qismindədir və heç şübhəsiz, bu statusu ölkəmizə əlavə və ciddi iqtisadi dividentlər gətirəcək.**

Söhbət təkcə mal və yüklərin ən sərfəli marşrutla nəqlindən getmir. Bu istiqamət üzrə həm də energetik sahədə bir sıra ortaq fəaliyyəti nəzərdə tutulur ki, bütün bunlar sonunda üç ölkə arasında həm də siyasi bağların artması və bir-birinin problemlərinə həssas yanaşılması üçün zəmin deməkdir. Azərbaycanın ən böyük problemi isə Dağlıq Qarabağ məsələsidir. Bundan əlavə, iki böyük qonşu ilə münasibətlərin inkişafda olmasını bizim milli mənafeyimiz tələb edir - Moskva və Tehranla ABŞ-ın münasibətləri gərgin olsa da.

Ancaq Azərbaycan, Rusiya və İran arasında ilişgilərin sıxlaşması heç şübhəsiz, ABŞ-dan çox işğalçı Ermənistanı narahat edir. Bir səbəb deyildi: üçtərəfli əməkdaşlıq sayəsində Bakının Moskva və Tehran yanında Qarabağ məsələsində daha güclü söz sahibliyi qazanması ehtimalı.

İkinci səbəb təbii ki, düşmən ölkənin blokadasının daha da ağırlaşması, ona ən yaxın müttəfiqlər sayılan Rusiya və İranın Azərbaycana daha çox bağlanmağa başlamasıdır. Hər halda, işğalçı ölkədə də yaxşı anlayırlar ki, iqtisadi bağlılıq siyasi bağlılığa gətirir. Artıq İrəvandan SOS siqnalları səslənməyə başlayıb.

*****

**Məsələn, energetik təhlükəsizlik məsələləri üzrə erməni ekspert Vaqe Davityan qarşıdakı Soçi sammitindən ölkəsi adına narahatdır. Çünki onun sözlərinə görə, sammitin gündəliyində Ermənistanın maraqlarına zidd layihələr yer alıb. "Yeni Müsavat"ın məlumatına görə, bu barədə o, yerli jurnalistlərə açıqlamasında deyib.**

"Məsələn, Şimal-Cənub energetik dəhlizinin inşası - nəyin çərçivəsində ki, İran və Rusiyanın enerji sistemlərinin Azərbaycan vasitəsilə sinxronlaşması nəzərdə tutulur. Həmçinin layihədə Azərbaycana Cənub-Şimal beynəlxalq nəqliyyat-logistik dəhlizində xüsusi status tanıyır", - deyə o qeyd edib.

**Erməni ekspertə görə, bu, Ermənistana açıq-aşkar ziyan vuracaq:** "Ona görə ki, o halda Ermənistanın iştirakı ilə Cənub-Şimal layihəsinə, sadəcə, ehtiyac qalmayacaq və o, öz aktuallığını itirəcək. Onsuz da bu layihə yerindən tərpənmirdi - hərçənd o, Ermənistan üçün mühüm inteqrasiya layihəsi sayılırdı. Bakı 2018-ci ildən etibarən enerji axınlarının qarşılıqlı tənzimlənməsi üçün Moskva və Tehranla Rusiya və İranın enerji sistemlərinin Azərbaycanın infrastrukturları hesabına sinxonlaşmasına yönəlik danışıqlar prosesi aparır. Danışıqların növbəti raundu sentyabrda, ola bilsin Bakıda olacaq. Ancaq artıq biz indidən deyə bilərik ki, tərəflər bu dəhlizin reallaşması üçün prinsipial razılıq əldə ediblər".

**Erməni ekspert ardınca özünə təsəlli ruhunda deyir:** "Bu, əlbəttə, o demək deyil ki, tərəflər Ermənistandan keçən Şimal-Cənub dəhlizi layihəsindən imtina edəcəklər. Ancaq mən düşünürəm ki, bu layihə siyasi ritorika müstəvisində qalacaq. Necə ki, vaxtilə İran-Ermənistan dəmir yolu layihəsi eyni aqibəti yaşadı. O zaman Moskva və Tehran həmin layihəyə çox qısa zamanda alternativ tapmışdı. Əgər obyektiv olsaq, deməliyəm ki, son illər Bakı özünün energetik diplomatiyası üçün effektli rıçaqlar yarada bilib - hansını ki, həm qaz nəqlində, həm də elektrik enerjisi kommunikasiyalarında istifadə edir. Əfsus ki, bizim belə diplomatik rıçaqlarımız yoxdur. Əvvəllər olduğu kimi, indi də bizim onları yaratmaq hədəfimiz yoxdur".

Davtyan acı təəssüf hissi ilə onu da əlavə edib ki, "bu gün Azərbaycan və Türkiyə Ermənistanın energetik təcridi və blokadası proqramını həyata keçirir - hansı ki, gündən-günə yeni-yeni layihələrdə özünü göstərməkdədir".

*****

Əlbəttə ki, bunun tək günahkarı Ermənistan və onun davam etdirdiyi işğalçılıq siyasətidir. İkinci yandan, hər bir dövlət ən əvvəl özünün milli maraqlarından çıxış edir - o cümlədən Ermənistana ən yaxın dövlətlər sayılan Rusiya və İran. Üstəlik, dünya okeanına çıxışı olmayan işğalçı ölkə iqtisadi cəhətcə də maraq kəsb eləmir.

Bu arada məlum olub ki, avqustun 11-12-də Türkmənbaşı şəhərindəki "Avaza" milli turizm zonasında birinci Xəzər İqtisadi Forumu keçiriləcək və tədbirə Ermənistan baş nazirinin müavini Mqer Qriqoryanın başçılığı ilə nümayəndə heyəti də qatılacaq.

**"Rusiyanın böyük əhəmiyyət verdiyi birinci Xəzər İqtisadi Forumu region ölkələri arasında bir çox sahələrdə əməkdaşlığa təkan verəcək". Bu barədə Rusiyanın xarici işlər naziri Sergey Lavrov "Türkmənistanın xarici siyasəti və diplomatiyası" jurnalına müsahibəsində qarşıdakı toplantıdan bildirib (Report).**

"Hökumətlər, aidiyyəti iqtisadi qurumlar, Xəzər regionunda çalışmaqda maraqlı olan işgüzar dairələr arasında birbaşa təmaslar üçün ixtisaslı meydanın qurulması çoxdandır yetişib. Bu mənada mütəmadi keçiriləcək Xəzər İqtisadi Forumuna dair Türkmənistan prezidenti Qurbanqulu Berdiməhəmmədovun təşəbbüsü vaxtında irəli sürülüb", - Rusiya XİN başçısı deyib. O, həmin forumun ticarət, sərmayə, turizm kimi sahələrdə əməkdaşlığa əlavə təkan verəcəyini, nəticədə Xəzərin dünyanın ən iri nəqliyyat və rabitə qovşaqlarından birinə çevriləcəyini söyləyib.

*****

Əlbəttə ki, bu, sırf xoş məramdır. Belə iqtisadi birliklər az deyil, amma onların səmərəli olmasını görən yoxdur. Məsələn, Azərbaycan və Ermənistanın təmsil olunduğu Qara Dəniz İqtisadi Əməkdaşlıq Təşkilatı. Adı var, özü yox. Bir şey dəqiqdir ki, Azərbaycan bu format çərçivəsində də işğalçı ölkə ilə heç bir əməkdaşlıq layihəsində iştirak etməyəcək - məlum səbəbdən. Xəzər hövzəsində Azərbaycanın qatılmadığı çoxtərəfli nəqliyyat-ticari layihələr isə həyata vəsiqə qazana bilməz. Çünki Azərbaycan enerji resursları ilə zəngin, əlverişli tranzit ölkə sayılır. Ermənistan isə hətta müttəfiq Rusiya və İran üçün də iqtisadi maraq kəsb etmir. Yalnız əlavə və boş xərclər.

Demək, Ermənistanın "tullantı ölkə" statusu davam edəcək. Bu kimi acı gerçəkliklərin nəticəsidir ki, artıq Ermənistana İran kimi simsar bir dövlətin rəsmiləri də son vaxtlar Qarabağ məsələsində Azərbaycanın xeyrinə tez-tez açıqlamalar verirlər. Məsələn, İranın xarici işlər naziri Məhəmməd Cavad Zərif son günlər Azərbaycan - Ermənistan dövlət sərhədində atəşkəsin tez-tez pozulmasına münasibət bildirkən deyib ki, İran hər zaman Qarabağ münaqişəsinin sülh yolu ilə və Azərbaycanın ərazi bütövlüyü çərçivəsində həllinə tərəfdar olub.

Odur ki, İrəvan işğal bitənədək "dütdülü" ilə (nərddə qoşa "iki") təsəlli tapmalı olacaq...

❑ **"Yeni Müsavat"ın analitik xidməti**

# Fazil Mustafanın açıqlamaları erməni mətbuatında - həmkarı od püskürdü

## Fazil Mustafa: “Qəsdən məsələ bu şəkildə gündəmə gətirilir”
## Fəzail Ağamalı: “Bundan sonra onunla üzbəüz gəlmək belə istəməzdim”

**Böyük Quruluş Partiyasının sədri, deputat Fazil Mustafanın Azərbaycan Səfəvilər dövlətinin banisi Şah İsmayıl Xətainin adına olan medalın ləğv edilməsi barədə fikirlərindən sonra yaranan qalmaqal səngimək bilmir ki, bilmir. Hər keçən gün yeni-yeni tanınmış simalar polemikaya qoşulur.**

Artıq erməni saytları “Azərbaycanlıların etirafı” başlıqlı yazılar tirajlamaqdadır. Bu da səbəbsiz deyil. Belə ki, F.Mustafa televiziyada Azərbaycan Xalq Cümhuriyyətindən əvvəl bu quruluşda tarixi dövlətimizin olmadığını bildirib. Daim pusquda dayanan düşmən ölkənin mətbuatı deputatın bu fikirləri ilə Azərbaycanın dövlətçilik tarixinin 1918-ci ildən başlandığı barədə kampaniyaya start veriblər.

**“Yeni Müsavat”a açıqlamasında Fazil Mustafa məsələyə bu cür aydınlıq gətirdi:** “Belə yazılar əvvəl qonşu ölkəyə bağlı saytlarda dərc olunur, sonra Ermənistana ötürülür. Düşmən ölkədə də bu cür tirajlayırlar. Ümumiyyətlə, açıqlamalarım ona dayanır ki, Azərbaycan əslən türk ölkəsidir. Türklərin də tarixi kifayət qədər qədimdir. Daha çox türk kütlələri bu əraziyə gəliblər. Qəsdən məsələ bu şəkildə gündəmə gətirilir. Biz ifadə etmişik ki, Azərbaycan, Ermənistan və Gürcüstan adında dövlət 1918-ci ildə yaranıb. Sülalə dövlətləri başqadır. Bunlar bir tarixi faktlardır. Dövlətçiliklə dövlət tarixini eyniləşdirmək olmaz. Azərbaycan Xalq Cümhuriyyətinin yüz illiyini qeyd edirik, bu bizim şərəfli tariximizdir. Yazılı açıqlamamda qeyd etməmişəm. Sadəcə, televiziyada demişəm ki, bu üç cümhuriyyət 1918-ci ildə yaranıb. Onu da qeyd etmişəm ki, hər üç cümhuriyyətin ondan öncə bu cür dövlət quruluşu olmayıb. Sülalə dövlətlərinin olduğunu bildirmişəm”.




**Deputatın həmkarı, Ana Vətən Partiyasının sədri Fəzail Ağamalı məsələyə çox sərt reaksiya verdi:** “Çox təəssüf edirəm ki, sonluqda hər kəsin gözlədiyi kimi oldu. Mən deməzdim ki, bu diskussiyadır, elmi xarakter daşıyan fikir mübadiləsidir. Qətiyyən. Sadəcə olaraq, Fazil Mustafanın əsası olmayan fikirlərinin cavabını vermək üçün söyləmiş olduğumuz alternativ fikirlər həmin zaman onun tərəfindən çox aqressiv qarşılandı. Açığı, bundan sonra onunla üzbəüz gəlmək belə istəməzdim. Görünən odur ki, Azərbaycan dövlətçiliyini təftiş etmək ermənilərə kifayət qədər əsaslar verir. Azərbaycan dövlətçiliyi eramızdan əvvəl VIII-VII əsrlərdən başlayıb. Bu əsrlərdə Azərbaycan ərazisində dövlətçilik yaranıb. İndi bunu doğru olmayan istiqamətə yönəltmək azərbaycanlı ziyalısına yaraşmır. Tariximizi öyrənmək lazımdır. Təkcə onun din tarixini bilməklə kifayətlənmək olmaz. Məhəmməd Əmin Rəsulzadənin, Ağaoğlunun, Mirzə Cəlilin, Axundovun əsərlərini oxumaq kifayət deyil. Bunlar tariximizi öyrənmək üçün yetərli deyil. Mən elə bir tarixçi tanımıram ki, o, universal olsun, tarixin bütün qatlarını mükəmməl bilsin. Tarix o qədər zəngindir ki, onu tam bilmək qeyri-mümkündür. Fazil Mustafa iddia edir ki, guya səlcuqların gəlməsi ilə Azərbaycan xalqı formalaşıb. Bununla o, Azərbaycan ərazisində on minilliklər boyu məskunlaşan və bu gün aborigen olaraq Azərbaycan türklərinin bu ərazidə yerləşməsinin tarixi saxtalaşdırılır. Halbuki Amerika alimləri sübut ediblər ki, 7-10 min il bundan əvvəl indiki Azərbaycan türkləri bu arealda məskunlaşıblar. İndi bunu gətirib 11-12-ci əsrlərə bağlamağın özü çox yanlışdır. Bu cür fikirlərdən hər zaman pusquda dayanan düşmənlərimiz istifadə edirlər. İndi onların Fazil Mustafanın müdafiəsinə qalxmaları təsadüfi deyil. Bu, Fazil Mustafanın faciəsidir. Başqa sözlə desək, Fazil Mustafa bu fikirləri ilə birbaşa erməni ideologiyasına xidmət etmiş olur. Ona görə söz deyən hər kəs cəmiyyətdə tutmuş olduğu mövqedən asılı olmayaraq səsləndirdiyi fikirləri ölçüb-biçməli, bunun nəticələrini nəzərə alıb danışmalıdır. Bir müddət öncə görkəmli akademik Ramiz Mehdiyevin Şah İsmayıl Xətai haqqında son dərəcə fundamental, elmi əsaslara söykənən fikirlərinə də Fazil Mustafa ciddi yanaşmır. Hətta onun konseptual məsələlərin əleyhinə gedərək özü yeni bir xətt açmağa çalışır. Nə fərqi var, sovet dövründə də tariximiz saxtalaşdırılırdı, indi də Fazil Mustafa kimiləri tariximizi saxtalaşdırır. Azərbaycan xalqının mütləq əksəriyyəti Fazil Mustafanın bu fikirlərinə qarşı öz sərt mövqelərini ortaya qoydu. Bu sübut etdi ki, xalqımız tarixinin, tarixi şəxsiyyətinin sahibidir. Çox təəssüf edirəm ki, Fazil Mustafanın fikirləri ermənilərin əsrlərdən bəri yaratmış olduğu konsepsiya ilə üst-üstə düşür. Təsadüfi deyil ki, onlar Fazil Mustafanı müdafiə edirlər. Heç cürə başa düşülən deyil ki, Fazil Mustafanın bu cəfəng fikirlərinə qarşı həqiqəti deyənlərin hamısını o, niyə cahillikdə ittiham edir”.

❑ **Cavanşir ABBASLI,**
**“Yeni Müsavat”**

# Erməni baş nazirin Qarabağ selfisi



## Yaxud bitməyən savaş haqda film-yazı

**Tanınmış rusiyalı tarixçi-analitik Oleq Kuznetsov maraqlı bir fikir söyləyib. Ermənilərin əsassız torpaq davasında haqlı mövqeyimizin müdafiəçilərindən olan tarixçi bizə Qarabağ haqda hələlik film çəkməməyi məsləhət görüb. Deyir ki, ortada Azərbaycan xalqı üçün xoşagəlməz fakt var: müharibə nəticəsində torpaq itirildiyindən, belə məsələlərdə şən filmlər çəkilməsi qəbul edilmir.**

Kuznetsova görə, bu gün Azərbaycan kinosunda Dağlıq Qarabağ mövzusunda bədii film ola bilməz. Onun zənnincə, “məğlubiyyətin səbəb olduğu itki və ağrıları xatırladacaq film çəkməkdənsə, ümumiyyətlə, heç bir film çəkilməsə yaxşıdır”. Ermənilərin Qarabağla bağlı saxta və uydurma faktlar əsasında yeni film çəkməyə hazırlaşmasına toxunan rus ziyalı-alim hesab edir ki, ermənilər - başqa. Onlar təhrif, yalan və saxtakarlıqlarla dolu nəsə yaratmağa öyrəncəlidirlər. Ancaq tarixçi onu da deyib ki, “bütün bunlar heç də Azərbaycanda əsgərlərin üstünlüklərindən bəhs edən tarixi-romantik filmlərin, ümumiyyətlə, çəkilməməli olduğu anlamına gəlmir”.

Bir yandan haqlıdır. Əslində heç kim məğlubiyyət və ya onu kamifulyaj edən film çəkmək istəməz. Bəlkə də məğlubiyyətin səbəbləri haqda nəsə çəkmək olar. Ancaq buna da lüzum qalmır. Ona görə ki, səbəbləri onsuz da hamımız yaxşı bilirik. Hərçənd müharibə hələ bitməyib. Bunu Nikol Paşinyan da az öncə ilk erməni lideri olaraq etiraf edib. Demək, böyük Vətən savaşı və bu savaş haqda əsl film hələ qabaqdadır.

İş də ondadır ki, işğal altındakı torpaqlarımıza illərdir Ermənistandan və ona simsar ölkələrdən oğrun yolla gediş-gəliş davam edirsə, Paşinyanın oğlu Akop Dağlıq Qarabağda rahatca hərbi xidmət keçirsə, ərazilərimizdə süni məskunlaşma səngimirsə, ora Ermənistandan yollar çəkilirsə, erməni Şuşa məscidinin simasını istədiyi kimi dəyişirsə, Dilqəm və Şahbazı illərdir girovluqdan qurtara bilmiriksə, nəhayət, dünəndən Xankəndində separatçı rejimin dünyada təbliğinə yönəlik “pan-erməni oyunları” adlı növbəti şou-məzhəkə başlayıbsa və bütün bunlara biz əngəl ola bilmiriksə, əlbəttə ki, kino zamanı deyil. Savaş zamanı, işğalçını gəldiyi yuvaya kimi qovmaq zamanıdır. Bax, onda film də çəkilər, serial da. Kim istəsə, xaricdən ən ünlü rejissorlar da dəvət edə bilər.

Söz düşmüşkən, sırağagün Nikol Paşinyan arvadı Anna ilə Qarabağa gəlib, burada oğlu Akopla ailəvi şelfi çəkdirib. Mitinqdə çıxış edib, “Dağlıq Qarabağ - Ermənistana məxsusdur. Vəssalam” deyib (hərçənd o, “arsax” sözü işlədib). Dünən isə Xankəndində “pan-erməni oyunları” adlı məzhəkə-şounun təntənəli açılışında iştirak və çıxış edib.

Bizə meydan oxumaqdır təbii ki. “Bacarırsızsa, gəlin başımızı əzin!” ismarışıdır. İndi buna layiqli cavab verməmdən Qarabağ haqda filmdən danışmaq əlbəttə ki, yersiz olar.

Bu dəqiqə bizə əslində Qarabağ haqda bədii yox, sənədli filmlər lazımdır - özü də ingiliscəyə, ruscaya, fransızcaya, farscaya çevrilməklə. Bu, gələcək nəsillərə də gərək olacaq. Çünki belə görünür ki, Qafqazda sonuncu erməni qalana qədər xain qonşuların torpaq iştahası bitən deyil. Hərgah, Qarabağı qansız qaytarmaq variantı da var. Bir neçə dəfə yazmışıq, yenə təkrarlayaq ki, bundan ötrü Azərbaycanın iqtisadi-hərbi qüdrətini o səviyyədə çatdırmalıyıq ki, Ermənistan və onun toplumu bizimlə müharibənin mənasızlığına varlıqları qədər əmin olsunlar.

Azərbaycanın bölgədə təməl insan haqlarının, o cümlədən erməni vətəndaşlarımızın hüquqlarının ən yaxşı qorunduğu örnək məmləkət olduğunu dünyaya sübut eləmək də əsas hədəflərimizdən olmalıdır. Çünki dünya müharibələrə, qırğınlara yaxşı baxmır. Elə ruhən pasifist, humanist cəmiyyəti olan Azərbaycanın da əsas hədəfi müharibə, qırğın deyil. Ona görə ki, qalibiyyətli müharibə də hər iki tərəfdən dağıntı, gənc insanların ölümü deməkdir. On illərdir Bakının sülh danışıqlarına üstünlük verməsinin bir nədəni bu. Erməni gənci ucuz ölümə tuş gəlmək istəmirsə, o zaman yad torpaqlarda - hərbi xidmətdən imtina eləməlidir. Azərbaycan prezidenti İlham Əliyev çıxışlarının birində belə demişdi: **“Erməni əsgərinin Ağdamda nə işi var? Əgər o, ölmək istəmirsə, onda qoy Ağdama getməsin”.**

Doğrudan da onun Ağdamda, Füzulidə nə iti azıb?..

“Bizim ortaq vətənimiz Azərbaycandır, biz Azərbaycan xalqının ayrılmaz tərkib hissəsiyik və şübhə etmirik ki, Qarabağ münaqişəsi Azərbaycanın ərazi bütövlüyü çərçivəsində həll olunacaq”.

Nə qədər qəribə də olsa, bu sözlər ötən həftəsonu bir qrup Qarabağ ermənisinin - Artur Ağacanov, Valeri Eriçyan, Georgi Arakelyan, Leva Yaxşıbəyov və Karina Eriçyanın da daxil olduğu aktivistlərdən ibarət qrupun yaydığı müraciətdəndir.

Bu cür sağlam düşünən ermənilərin çoxluğa çevrilməsi də hədəflərimizdən olmalıdır. Ki, savaşa, itkilərə lüzum qalmasın. Çinlilərin müdrik kəlamında deyildiyi kimi: “Ən bacarıqlı general müharibəni döyüşsüz udan generaldır”.

Torpaqlarımızın qansız, ya savaşla qaytarılması artıq fərq etməz - ən möhtəşəm qələbə məhz onda olacaq. Qarabağ haqda son film də onda mümkündür. Qalır o tarixi günü yaxınlaşdırmaq. Hamılıqla...

❑ **Zahid SƏFƏROĞLU,**
**“Yeni Müsavat”**

YENİ MÜSAVAT
N 164 (7334) 7 avqust 2019



# Paşinyan "Kaliforniya, ya Stavropol Ermənistandır" desəydi...

Elşad PAŞASOY

**Qarabağ canişini Anjey Kasprşik başının dəstəsi ilə Füzuli rayonu ərazisində yerləşən Azərbaycan və Ermənistan qoşunlarının təmas xəttində monitorinq keçirib. 6 avqustda yayılan rəsmi məlumatda deyilir ki, monitorinq insidentsiz başa çatıb. ATƏT-in fəaliyyətdə olan sədrinin şəxsi nümayəndəsinin mandatına uyğun olaraq həyata keçirilən monitorinq nəyə xidmət edirmiş görəsən - Xankəndində keçirilən "ümumerməni oyunları"nın təhlükəsizliyini təmin etməyəmi? Bəlkə narahat olublar ki, Nikol Paşinyanın sərsəm bəyanatlarına cavab olaraq Azərbaycan ordusu işğalçıya növbəti aprel dərsi vermək fikrinə düşər?**

Hər halda, həmsədrlərin, onların təmsil olunduqları ölkələrin liderlərinin səs-sorağı gəlmədikcə şübhələr çoxalır. Azərbaycan ordusu son günlərdə düşmənin sərhədboyu təxribatına cavab verdi və ermənilər 1 hərbçini ölü, digər iki nəfəri isə yaralı halda səngərdən apardılar. Dərhal ermənilərin Moskvadakı himayədarı Mariya Zaxarova "Ermənistan-Azərbaycan sərhədində vəziyyətin kəskinləşməsindən narahatıq" bəyanatı ilə ortada göründü. Kələntəryanın əsas sözçüsü təbii ki, təcavüzkar haqqında kəlmə kəsmədi və bununla da faktiki olaraq erməniləri müdafiə mövqeyində dayandı. Yoxsa "gərginliyin artması bir müddət əvvəl əldə edilmiş atəşkəs rejiminə əməl olunması barədə razılaşmalarla və siyasi vasitələrlə nizamlanmaya nail olmaq barədə açıqlamalarla ziddiyyət təşkil edir" bəyanatına ayrı cür qiymət vermək mümkün deyil. Bundan əvvəl Ermənistan XİN həmsədr ölkələrə Azərbaycandan şikayətlənmişdi və ilk reaksiya Moskvadan gəldi.

Ayrı-seçkilik açıq-aşkar göz deşir. Nikol Paşinyan hələ iki gün əvvəldən elan etmişdi ki, Xankəndinə gələcək, meydanda çıxış edəcək. Amma həmsədr ölkələrdən, Azərbaycanın əl-qolunu bağlayıb, "məsələnin hərbi yolla həlli yoxdur" deyib duran paytaxtlardan erməni baş naziri tənə edən, onu qınayan, bu addımın danışıqlara zərbə vuracağını deyən oldumu? Olmadı. Paşinyan Laçının 10-15 km-liyində asma körpüdə Azərbaycanın "Köçəri" havasına oynayanda da, Xankəndinə helikopterlə uçanda da, erməni separatçıları başına yığıb "Artsax elə Ermənistandır, vəssalam" deyib sərsəmləyəndə də ATƏT-MATƏT-dən səs çıxmadı.

İndi nümunə üçün Azərbaycan işğal altındakı ərazilərdəki "ümumerməni oyunları"nın təpəsinə bir mərmi atsın, gör onda nə həngamə qopar. Bütün ermənipərəst çevrələr "narahatıq" deyib ağız-ağıza, səs-səsə verər, şivən qoparlar.

Hər halda, reallıq budur. Aprel döyüşlərində Azərbaycanın əl-qolunu bağlayan güclər mövqelərini dəyişməyib, bunu bilirik. Amma bu şəkildə də davam edə bilməz. Nəhayət, işğalçının burnunu ovmaq vaxtıdır. Paşinyan son davranışları və bəyanatları ilə danışıqlara yer qoymadı. Bu adam həm də qeyri-ciddi şəxs olduğunu nümayiş etdirdi. Onunla ciddi mövzularda danışmağın mənası qalmır. Bir vaxtlar Bakını Dağlıq Qarabağ erməniləri ilə danışığa çağırdı, arzusu baş tutmayanda "həll Azərbaycan xalqı üçün də qaneedici olmalıdır"-deyə, sülh adamı kimi görünməyə çalışdı. Lakin Qarabağ klanı üstünə getdiyi üçün qiyafəsini və sözünü dəyişdi, iddia etdi ki, Qarabağ elə Ermənistan imiş.

Rəsmi Bakı Paşinyanın hərzə-mərzə bəyanatına cavab verib. Prezident Administrasiyasının rəsmisi Hikmət Hacıyev "Ermənistanın baş nazirinin Azərbaycanın işğal olunmuş ərazilərinə qanunsuz səfər edərək Xankəndi şəhərində "Qarabağ - Ermənistandır" sözlərini qəti şəkildə rədd edirik" deyib. XİN isə "münaqişənin sülh yolu ilə həllinə vurulan zərbənin və beləliklə də yaranmış vəziyyətin tam məsuliyyəti Ermənistan üzərindədir" bəyanatını verib.

Əslində Nikol Paşinyan son davranışları ilə Azərbaycana töhfə vermiş oldu. Azərbaycanın rəsmi mövqeyi, Paşinyanın təxribatçı addımları, Xankəndində sözün bütün mənalarında çıxarılan oyunların dəlil-sübutları, fotolu, videolu şəkildə BMT-nin Baş Ofisindən tutmuş, ATƏT ölkələrinə, Avropa Parlamentinə qədər bütün ünvanlara təqdim olunmalıdır. XİN-in təlimatları əsasında səfirliklərimiz bu arada tam səfərbər olunmalı, Ermənistanın gerçək mövqeyi hər kəsə anladılmalıdır. Bəyan olunmalıdır ki, cənablar, sizdən fərqli olaraq Ermənistan savaşı seçdi, Azərbaycansa onu öz arzusuna çatdırmaq haqqına və iradəsinə sahibdir. Sözləri varsa, əvvəlcədən desinlər, cavablarını verək. Biz də deyərik: Paşinyan "Kaliforniya, yaxud Stavropol Ermənistandır, vəssalam" desə, xoşunuza gələrmi?!.

**Rusiyanın Sibir bölgəsi və şərqində ötən həftədən etibarən davam edən yanğın nəticəsində 3 milyon hektardan artıq meşə sahəsi kül olub. Bununla bağlı Rusiyanın Fövqəladə Hallar Nazirliyi məlumat yayıb. Məlumatda bildirilib ki, 20 fərqli bölgədə, 500 yaşayış məntəqəsi tüstü dumanından təsirlənib və 15 min işçi bölgəyə cəlb olunub.**

# "Taxta bazarı"nda son durum - Rusiyada meşə yanğınları qiymətlərə təsir edibmi?

## Satıcılar bildirdilər ki, burada hamı taxtanı qonşu ölkədən gətirir və...

Bildirilir ki, Rusiyada yanan ərazi Azərbaycanın ümumi meşə ehtiyatlarından 3 dəfə çoxdur. Məlum olduğu kimi, Azərbaycana taxta idxalında əsas yeri Rusiya tutur. Azərbaycan meşələri əhəmiyyətinə görə I qrupa aid edildiyindən burada sənaye məqsədli qırıntıların aparılması qadağandır. Bu qadağa Meşə Məcəlləsində öz əksini tapıb. Ümumilikdə ölkə meşələrinin 85 faizi dağlıq, 15 faizi aran zonasındadır. Dağlıq ərazilərdə olan meşələrin də 70 faizini dikliyi 30 dərəcədən yuxarı olan meşələr təşkil edir. Mütəxəssislər bildirirlər ki, belə ərazilərdə də, ümumiyyətlə, qırıntıların aparılması qadağandır. Dünyada qəbul edilən normaya görə, dikliyi 30 dərəcədən çox olan ərazilərdə qırıntı aparılmır. Ona görə də Azərbaycana ağac və ağac məhsulları yuxarıda da qeyd etdiyimiz kimi, əsasən Rusiya, Ukrayna və Belarusdan gətirilir.



Bəs baş verən yanğınlar Azərbaycanın taxta bazarına necə təsir edib?

**Bakıda taxta əsasən "Dərnəgül bazarı" kimi tanınan ərazidə satılır. Biz də elə həmin bazarda olub, mövcud vəziyyətlə maraqlandıq. Taxta sarıdan bazarda hansısa bir qıtlığın yaşandığını müşahidə etmədik. Lakin müştərilər bir o qədər də gözə dəymirdi. Satıcılar bildirdilər ki, hazırda taxtanın 1 kubunu 280 manata satırlar. Əgər müştəri bir neçə kub taxta alırsa, qiymətlərdə endirim edirlər. Taxta satışı ilə məşğul olan Mirsalam Həsənov söylədi ki, son günlərdə bazarda heç bir qiymət artımı yoxdur:** "Aprel-may aylarında qiymətlər 270 manat idi. Hava isinəndən sonra isə satıcılar taxtanı 280 manata satmağa başladılar. Bu da mövsümi bir haldır. Hər il tikintilər başlayan zaman tikinti materiallarının qiymətində müəyyən qədər artım olur. Bu da tələbatın artması ilə bağlıdır. Rusiyada meşə yanğınları ilk dəfə deyil ki, baş verir. Lakin bu dəfə doğrudan da böyük ərazi yanıb. Mən özüm taxtanı Rusiyadan gətirirəm. 15 ildən artıqdır ki, bu işlə məşğulam. Burada bir məsələ var ki, əsasən yanğınlar yay aylarında baş verir. Yay aylarında isə ağac kəsilmir. Çünki yayda ağac kəsirsənsə, taxta hazırlanan zaman rəngi qaralır. Ona görə də meşələri taxta hazırlamaq üçün əsasən qış aylarında qırırlar. İkincisi də Rusiyada təkcə təbii meşələrdən söhbət getmir. Orada qanunvericiliyə görə sahibkarlar özləri də oduncaq sahəsi yaradıb, taxtanı sata, istifadə edə bilirlər. Buna görə də Rusiyada meşə sahəsi olduqca böyükdür. Hesab etmirəm ki, taxtanın qiymətində ciddi bahalaşma olacaq. Bir məsələ də var ki, Rusiyada yanğınlar çox zaman meşənin kənar ərazilərində baş verir. Çünki yanğın əsasən insan ehtiyatsızlığından qaynaqlanır. İnsanlar da meşənin kənarında dincəlirlər və yanan da elə həmin ərazilər olur. Mən özüm həmin meşələrdə olmuşam və görmüşəm ki, artıq kənar ərazilərdə taxta hazırlanması üçün lazım olan ağaclar qırılıb qurtarıb. İndi daha çox meşənin dərinliklərində işlər aparılır, orada ağaclar kəsilib, taxta üçün hazırlanır. Bazarda taxtanın qiyməti adətən dollar bahalaşan zaman artır. Məsələn, devalvasiyadan öncə 170 manata satılan taxta, hazırda 280 manatadır. Söhbət taxtanın bir kubundan gedir. Rusiyadan asılılıq böyükdür. Burada hər kəs demək olar ki, taxtanı Rusiyadan gətirir. Hazırda gətirilən mal ötən qış aylarında hazırlanan taxtalardır. Ona görə də biz malı götürən zaman hansısa qiymət artımı ilə üzləşməmişik".








**Qiymət sarıdan ciddi narahatlıq olmasa da, alıcılar taxtanın ölçüsü ilə bağlı narazılıq edirdilər. Əksər taxta yerində ölçü ilə bağlı mübahisənin şahidi olduq. Belə ki, alıcılar bildirirlər ki, taxtalar qeyd edilən qalınlıqdan aşağı olur. Məsələn, satıcının 5-lik ( qalınlığı 5 sm) adı ilə satdığı taxtalar 4.5-lik və ya 4-lük olur. Satıcılar bildirdilər ki, bu, onların günahı deyil. Rusiyadan gəldiyində taxtanın qalınlığı aşağı olur.** "Taxta quruyan zaman öz qalınlığını bir qədər itirir. Ona görə də qalınlıqda azalma olur", - deyə satıcılar bildirdilər. Alıcılar isə söylədilər ki, sovet dövründə belə bir hal yox idi. Ona görə də bazarda insanlar köhnə taxtaları almağa daha çox üstünlük verirlər. Xüsusilə də 5x15-lik taxta axtaranları, köhnə taxtaların satıldığı bazarda görmək olur. Buradakı qiymətlərə gəlincə isə öyrəndik ki, mismarlardan təmizlənmiş, ikinci əl taxtaların1 kubu 220 manatdan başlayan qiymətlə satılır. Taxtanın vəziyyətindən asılı olaraq qiymət düşə və qalxa bilər. Bu cür taxtaları alanlar əsasən tikintinin yandan və ya üzdən görünməyən yerlərində istifadə edirlər. Mütəxəssislər bildirdilər ki, sovet dövrünün taxtaları ikinci əl olsa da, yeni taxtalardan daha keyfiyyətlidir...

Onu da qeyd edək ki, köhnə taxtaların da qiyməti ötən aylarla müqayisədə yüksəkdir. Satıcılar bildirdilər ki, bu taxtaların qiyməti yeni taxtanın qiymətinə uyğun olaraq dəyişir. Təbii ki, qiyməti də satıcıların özləri təyin edirlər...

Bazarda öyrəndik ki, taxta məhsullarının da qiymətində ötən aylarla müqayisədə ciddi dəyişiklik yoxdur. Son zamanlar tikinti materiallarının içərisində bəzi sement markalarının qiyməti 1 manata qədər ucuzlaşıb. Eyni zamanda mişar daşının da qiymətində bir neçə qəpik ucuzlaşma var. Bunun xaricində digər materialların qiymətində ciddi dəyişiklik yoxdur.

❑ Əli RƏİS,
"Yeni Müsavat"

Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondu

KİVDF

www.kivdf.gov.az

**Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi haqqında həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması, Azərbaycanın ədalətli mövqeyinin müdafiə edilməsi**



YENİ MÜSAVAT

N 164 (7334) 7 avqust 2019



# Paşinyan Qarabağda sərsəmlədi, Bakıdan sərt cavab aldı

## Ermənistanın baş naziri Xankəndində eyforiyaya qapılıb ağlına və ağzına gələni danışdı; İrəvan müharibə yolunu seçir?

**Hakimiyyətə gəldikdən sonrakı aylar ərzində "mən Ermənistanın baş naziri olaraq, yalnız Ermənistan adından danışıqlar apara bilərəm, lakin Dağlıq Qarabağın adından iştirak edə bilmərəm" deyən Nikol Paşinyan 2018-ci ilin mayından etibarən dediklərini unudub növbəti, ziddiyyətli bəyanatı ilə diqqəti özünə cəlb etmək istədi. Söhbət erməni baş nazirin 5 avqustda işğal altındakı Xankəndi şəhərində səsləndirdiyi fikirlərdən gedir.**

Bundan qabaq "Dağlıq Qarabağ xalqı bizim seçkilərdə iştirak etmir, mənə səs verməyib. Onların öz prezidenti, öz parlamenti, öz hökuməti var və Qarabağ xalqı adından danışıqlar prosesində Qarabağ xalqı tərəfindən seçilmiş nümayəndələr danışmalıdır" kimi sərsəm iddialar səsləndirib Qarabağ separatçılarını danışıqlarda "tərəf" olaraq tanıtmağa cəhd edən Paşinyan bu metodun işə yaramadığını görüncə, "val"ı dəyişdi, bu dəfə tam əks mövqe sərgilədi, nə "Qarabağ prezidenti", nə "baş naziri". Nə də "spikeri" yada düşdü. Bir qədər ətraflı...

Ermənistanın baş naziri Nikol Paşinyan, gözlənildiyi kimi, avqustun 5-də axşam saatlarında Xankəndinin mərkəzi meydanındakı mitinqdə çıxış edib. Məlumatlara görə, Xankəndində 31 il əvvəl - erməni separatizminin yeni alovlandığı dövrlərdə səslənən "Birləşmək" ("miatsum") şüarları bu gün də təkrarlanıb. Özü də Paşinyanın dilindən.

Ermənistan baş naziri deyib ki, İrəvanın Dağlıq Qarabağa dair danışıqlarda yürütdüyü diplomatiyanın yekun məqsədi "miatsumdur". Onun sözlərinə görə, münaqişənin nizamlanmasına dair istənilən qərar ancaq Ermənistan və Dağlıq Qarabağ əhalisinin ümumxalq dəstəyi ilə qəbul oluna bilər.

Paşinyanın bu sözlərinə meydana toplaşanlar "miatsum" qışqıraraq reaksiya veriblər. Paşinyan qeyd edib ki, Azərbaycanla aparılan danışıqların yekun məqsədi "Qarabağın öz müqəddəratını təyin etməsi yolu ilə əldə edilən nəticələri möhkəmləndirməkdir". Onun sözlərinə görə, erməni hökumətini Qarabağa dair hansısa gizli qəsd planında ittiham etmək mənasızdır, çünki hökumətin belə planı yoxdur və olmayacaq. Hərçənd Paşinyan Qarabağ məsələsinin "sülh yolu ilə həllinə istiqamətləndiklərini" deyib, baxmayaraq ki, onun "miatsum" şüarı məsələnin sülh yolu ilə nizamlanmasına şans buraxmır.

Heç şübhəsiz ki, Ermənistan hökumətinin başçısı bu cür artistlik etməklə özünü "qalib" kimi göstərməyə çalışır, eyni zamanda ona təhlükə yaradan Qarabağ klanını elə onların öz arqumentləri ilə - "miatsum" - tərk-silah etməyə cəhd göstərir.

Xatırladaq ki, bu gün Paşinyanı həbsxanadan hədələyən klan liderlərindən biri, eks-prezident Robert Köçəryan 1998-ci ildə vətəndaşı olduğu Azərbaycana asi çıxaraq, Xankəndi küçələrində "miatsum" qışqıran separatçıların önündə dayanırdı. Bu gün Paşinyan başqa vasitələrin işə yaramadığını görüb Köçəryanın sığındığı Qarabağ klanını zərərsizləşdirmək və hakimiyyətini qorumaq üçün köhnə "silah"a əl atıb. Bu metodların onun işinə nə dərəcədə yarayacağını demək çətindir. Amma bunlar ermənilərin öz davalarıdır, bizi maraqlandıran və narahat edən bu şouların və həyasızlıqların Azərbaycan torpaqlarında nümayişidir. Ermənilər 6 avqustdan "ümumerməni oyunları" adlı şouya da start veriblər ki, bu da separatçıların "müstəqil" olduqlarını iddia etmək sarıdan növbəti cəhddir. N.Paşinyanın, Qarabağ danışıqlarında Azərbaycan prezidenti ilə bir araya gələn şəxsin bu şouların baş qəhrəmanı kimi görünməsi və sərsəm bəyanatları açıq şəkildə beynəlxalq hüquqa meydan oxumaqdır, həm də faktiki olaraq danışıqlardan imtina mövqeyidir. Ekspertlərimiz da belə bir durumda danışıqların mənasının olmadığını deyirlər.

**"Paşinyan fəaliyyətinin ilk günlərindən işğal altında olan Azərbaycan ərazilərində formalaşdırılmış qanunsuz rejimi danışıq proseslərinə cəlb etməyə çalışıb və bütün ritorikasını bu amilin üzərində qurub. İlkin iddialar da ondan ibarət idi ki, Dağlıq Qarabağdakı ermənilər ona səs vermədikləri üçün o da həmin erməniləri təmsil edə bilməz. Xankəndindəki mitinq zamanı səsləndirdiyi fikirlər isə işğal edilmiş Azərbaycan torpaqlarının ilhaqı anlamına gəlir ki, bu da danışıqlar prosesinin əsas istiqamətlərindən biri olan "münaqişə" amilini sıradan çıxardır".**

**Politoloq Elçin Mirzəbəyli bu fikirləri "Yeni Müsasvat"a açıqlamasında bildirdi. Analitikin fikrincə, Paşinyan öz çıxışı ilə bir daha təsdiqlədi ki, Azərbaycanla Ermənistan arasında hər hansı mübahisəli, yaxud münaqişəli məsələ yoxdur, işğal faktı var və bu faktı da yalnız hərb yolu ilə aradan qaldırmaq olar:** "Bu iddia ilə Nikol Ermənistan SSR Ali Sovetinin Dağlıq Qarabağın Ermənistana birləşdirilməsi ilə bağlı 1 dekabr 1989-cu il və 9 yanvar 1990-cı il tarixli qərarlarının üzərinə qayıtdı. Qeyd edim ki, bu qərarlar SSRİ Ali Soveti Rəyasət Heyətinin 10 yanvar 1990-cı il tarixli qərarı ilə konstitusiyaya zidd olduğu üçün qanunsuz elan olunmuş və ləğv edilmişdi".

**E.Mirzəbəyli erməni baş nazirin ziddiyyətlər üzərində qurulmuş fəaliyyətinə diqqət çəkdi:** "Nikol Paşinyan daha öncə Dağlıq Qarabağın müstəqil hüququn subyekti kimi danışıqlar prosesində iştirakını ortaya atmaqla prosesi atəşkəsə qədərki müstəviyə, daha dəqiq desək, Minsk prosesinin başladığı dönəmə qaytarmağa cəhd göstərirdi. İndi isə Minsk prosesindən daha əvvələ, separatizm dalğasının başladığı mərhələyə qaytarmağa cəhd göstərir. Bu, şübhəsiz ki, açıq-aşkar müharibə çağırışıdır".

**Politoloq Məhəmməd Əsədullazadə də hesab edir ki, danışıqların mənası qalmayıb:** "Ermənistanın baş naziri Nikol Paşinyanın işğal olunmuş ərazilərdə "Qarabağ Ermənistandır" bəyanatını aparılan danışıqların sonu kimi qiymətləndirirəm. Nikol prezident İlham Əliyevlə şifahi razılaşmanın və xarici işlər nazirlərinin Moskva və Vaşinqton görüşlərinin üstündən xətt çəkdi. Demək, Paşinyan bir daha bununla müharibə tərəfdarı olduğunu göstərmiş oldu. Bununla o, nəticəsiz danışıqların müharibə müstəvisinə keçməsi üçün Azərbaycana fürsət vermiş olur. Rəsmi Bakı hərəkətə keçməli, cəbhədə ciddi hərəkətə keçməlidir. Paşinyanın bu bəyanatı verməklə Ermənistanın kursunu dəyişdirməyə çalışır".

**M.Əsədullazadənin sözlərinə görə, Rusiya təbii ki, regionda yeni müharibənin alovlanmasını istəməyəcək:** "Paşinyana Qarabağla bağlı təzyiqlərini artıra bilər. Paşinyana ona görə müharibə lazımdır ki, mümkün qədər öz siyasi mövqeyini daha da möhkəmləndirsin".

****

**Rəsmi Bakı sərsəm bəyanatları ilə daxildə xal toplamağa çalışan Paşinyana tutarlı cavab verib.** "Ermənistanın baş nazirinin Azərbaycanın işğal olunmuş ərazilərinə qanunsuz səfər edərək Xankəndi şəhərində "Qarabağ - Ermənistandır" sözlərini qəti şəkildə rədd edirik". Virtualaz.org-un məlumatına görə, bunu Azərbaycan Respublikası Prezidenti Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyev deyib. Cənab Hacıyev qeyd edib ki, Dağlıq Qarabağ - Azərbaycandır! Dağlıq Qarabağ Azərbaycanın tarixi torpağıdır və ayrılmaz hissədir. Beynəlxalq ictimaiyyət Dağlıq Qarabağ daxil olmaqla, Azərbaycanın ərazi bütövlüyü və suverenliyini tanıyır və dəstəkləyir. Azərbaycan dövləti və xalqı Ermənistanın işğalçılıq və qanlı etnik təmizləmə vasitəsilə ölkəmizin ərazi bütövlüyünü pozması ilə heç vaxt barışmayacaq və Dağlıq Qarabağın Ermənistana birləşdirilməsi cəhdlərinə imkan verməyəcək. "Ermənistanın baş naziri N.Paşinyanın Azərbaycanın işğal olunmuş ərazilərini Ermənistan adlandırması, Ermənistanla qondarma rejimin birləşdirilməsinə çağırış etməsi Ermənistanın əsl məqsədinin işğalçılıq olduğunun növbəti açıq ifşasıdır. Azərbaycanın işğal olunmuş ərazilərinin ilhaqına çağırmaq beynəlxalq ictimaiyyətə, xüsusilə münaqişənin danışıqlar yolu ilə həllinə məsul olan ATƏT-in Minsk Qrupunun həmsədrlərinə hörmətsizlik və məsuliyyətsizlik kimi qiymətləndirilməlidir. Ermənistan baş nazir səviyyəsində beynəlxalq hüququn norma və prinsiplərini, BMT Nizamnaməsini, Helsinki Yekun Aktını ayaq altına atır, təhqir edir və Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin həlli üzrə ATƏT-in Minsk Qrupunun həmsədrlərinin vasitəçilik etdiyi danışıqlar prosesini məhv edir. Bundan sonra danışıqlar prosesinin gələcəyi barədə suala ATƏT-in Minsk Qrupunun həmsədrləri cavab verməlidir", - deyə Prezident Administrasiyasının şöbə müdiri vurğulayıb.

H.Hacıyev bildirib ki, bu açıqlama ilə Ermənistanın baş naziri, həmçinin özü-özünü inkar edir və bir müddət əvvəl Dağlıq Qarabağ adından guya danışa bilməməsi haqqında bəyanatının cəfəngiyyat və yalandan başqa bir şey olmadığını etiraf edir. Bununla Ermənistan rəhbərliyi açıq-aşkar sübut edir ki, Ermənistanın danışıqlar prosesində iştirakı riyakarlıq və beynəlxalq ictimaiyyəti aldatmaqdan başqa bir şey olmayıb.

"Ermənistan rəhbərliyini əmin etmək istərdik ki, Ermənistanın 2050-ci ilədək inkişafına dair səsləndirilən məqsədlər utopiya olduğu kimi, Azərbaycanın işğal olunmuş ərazilərinin Ermənistana birləşdirilməsi cəhdi də fantaziyadan başqa bir şey deyil. Ermənistan tərəfi bu təxribatçı və destruktiv açıqlama ilə regionu yeni təhlükə və risklərlə üzbəüz qoyur və ölkədaxili problemlərdən yayınmaq üçün qəsdən vəziyyəti gərginləşdirir. Yaranmış vəziyyətə görə məsuliyyət tam şəkildə Ermənistanın üzərinə düşür. Heç kimin şübhəsi olmasın ki, Azərbaycan beynəlxalq səviyyədə tanınmış sərhədləri daxilində ərazi bütövlüyü və suverenliyini, etnik təmizləməyə məruz qalmış vətəndaşlarının öz doğma torpaqlarına geri qayıtmasını və beynəlxalq hüququn aliliyini təmin edəcəkdir", - deyə Prezident Administrasiyasının rəsmisi vurğulayıb.





**Hikmət Hacıyev:** "Yaranmış vəziyyətə görə məsuliyyət tam şəkildə Ermənistanın üzərinə düşür"

**Elçin Mirzəbəyli:** "Bu, şübhəsiz ki, açıq-aşkar müharibə çağırışıdır"

YENİ MÜSAVAT
N 164 (7334) 7 avqust 2019

# Türkiyə tarixi əməliyyatın anonsunu verdi - ABŞ əndişədə...

## Ekspert: "Amerika Türkiyəyə başqa yol qoymayıb..."

**ABŞ Türkiyənin Fəratın şərqindəki hərbi əməliyyatının qarşısını almaq üçün Suriyaya təzyiq göstərə bilər.**

Axar.az xəbər verir ki, bunu türkiyəli siyasi ekspert Turan Oğuz bildirib. O qeyd edib ki, Suriyada təhlükəsizlik bölgəsinin yaradılması üçün ABŞ-la Türkiyə arasında anlaşma əldə edilməyib. Buna səbəb Türkiyənin təhlükəsizlik bölgəsini 32 kilometrlik bir məsafədə yaratmaq istəyidir. ABŞ isə bunu 15 kilometrlik bir ərazidə tələb edir: "ABŞ Türkiyə ilə anlaşmasa, Dəməşqə hava məkanını bağlaması üçün təzyiq göstərə bilər. Ancaq Türkiyə tarixi ərzində Suriya sərhədinə sayca ən çox əsgər toplayıb. Bununla Türkiyə əməliyyata başlamaqda nə qədər qərarlı olduğunu ortaya qoyub. Əgər Dəməşq hava məkanını bağlayarsa, Türkiyənin bu addımı heçə sayacaq qədər alternativ variantı var".



Türkiyə dövləti Fərat çayının şərqində qurulmuş terror yuvasına qarşı əməliyyat aparmağa hazırlaşır.

Bu barədə açıqlamanı Türkiyə prezidenti Rəcəb Tayyib Ərdoğan verib. ABŞ Xarici İşlər Nazirliyinin mətbuat katibi Morqan Ortaqus məsələ ilə bağlı Rusiya mətbuatına müsahibəsində deyib: "Suriyanın şimalında aparılması planlaşdırılan birtərəfli hərbi əməliyyatlar, xüsusilə ABŞ hərbçilərinin əməliyyat bölgəsinin yaxınında olması ehtimalı, ABŞ-ın və yerli suriyalı tərəfdaşların İŞİD-ə qarşı əməliyyatlarının davam eləməsi səbəbindən ciddi narahatlıq yaradır".

Morqan Ortaqus bu cür əməliyyatları qəbuledilməz hesab etdiklərini qeyd edərək, ortaq yanaşmanın bir daha müəyyənləşdirilməsi üçün Türkiyəni ABŞ-la birlikdə çalışmağa çağırdıqlarını bildirib.

Türkiyənin Suriyada başlayacağı hərbi əməliyyat bu ölkənin indiyə qədər keçirdiyi ən genişmiqyaslı əməliyyat ola bilər. Əməliyyatlarda 80 minədək hərbiçinin iştirak edə biləcəyi qeyd olunur.

**Politoloq Əhəd Məmmədli əməliyyatların Türkiyənin haqqı olduğunu söylədi:** "Amerika okeanın o tayından Suriyaya əsgər yeridə bilər, 500 il ərazisi olan ölkəyə Türkiyə əsgərini yeridə bilməz? Niyə Türkiyənin Suriyaya ordu yeritməsi qəbulolunmazdır? Çünki Amerika belə istəyir? Amerika anlamalıdır ki, artıq onların qəbulolunmaz ritorikasının Türkiyəyə dəxli yoxdur. Daha Türkiyə nə vaxt hara girəcəyini heç kəsdən soruşmayacaq. Artıq Ankara Vaşinqtonu və Moskvanı xəbərdar edib ki, Fəratın şərqində hərbi əməliyyatlara başlayacaq. Bu əməliyyat Türkiyə üçün PYD-YPQ-PKK-nın sonunu gətirmək üçün çox əhəmiyyətlidir. Son illərdə PKK sarsıdıcı zərbələr alıb. Bu sarsıdıcı zərbələr siyasi müstəvidə də davam etdi. Son seçkilərdə cənubi-şərqi Türkiyədə PKK tərəfdarları ən az səs aldılar. İndi bu terror təşkilatının əsas dayaqları Şimali Suriyada yerləşir. Şimali Suriyada böyük ərazilərə nəzarət edirlər. Təbii ki, bütün bunlara ABŞ-ın açıq dəstəyi nəticəsində nail olublar. Türkiyə sərhədində belə bir terror təşkilatının mövcud olması yolverilməzdir. ABŞ 10 min silah dolu tırı YPQ-PYD terror təşkilatına yollayıb. Bunun fotofaktlarından tutmuş videogörüntülərinə qədər sübutları var. Bu bir balaca ölkənin ordusunun silahı deməkdir. Amerika Türkiyəyə başqa yol qoymadı. Fıratın şərqinə hərbi müdaxilə qaçılmazdır. Türkiyə ilə sərhəddə kürd dövlətinin qurulmasına imkan verməkqətiyyən olmaz. ABŞ-İsrailin Yaxın Şərqdə müstəqil Kürdüstan projesinin həyata keçməsinə Türkiyə ordusu imkan verməyəcək. ABŞ və İsrailin də narahatlığı məhz budur. Türkiyə Fıratın şərqində aparacağı antiterror əməliyyatı ilə ABŞ və İsrailin Yaxın Şərq projesini məhv edəcək. Düşünmürəm ki, YPQ-PYD-yə görə ABŞ Türkiyə ilə açıq qarşıdurma mərhələsinə keçsin. Artıq təhlükəsizlik zonasının yaranması danışıqları gedir. Fikrimcə, ABŞ fakt qarşısında qalandan sonra Türkiyə ilə bu məsələdə razılığa gələcək. Aydın məsələdir ki, Amerika kommunist eşkiyalarına görə önəmli hərbi müttəfiqi Türkiyə ilə müharibə edən deyil. İŞİD təhlükəsi ABŞ üçün bir bəhanədir. İŞİD-in artıq heç bir təhlükəsi qalmayıb. Onlara ən böyük zərbəni Türkiyə vurub. İŞİD-ə qarşı yeganə quru hərbi əməliyyatı aparan ölkə Türkiyə olub. Türkiyə ordusu olan yerdə İŞİD-in möhkəmlənməsi mümkünsüzdür. YPQ də, İŞİD də hamısı Amerikanın məhsullarıdır. Amerikanın bir sözü kifayətdir ki, İŞİD də, YPQ də geri çəkilsinlər. Amerika müsəlman coğrafiyasında Kürdüstan adlı ikinci İsrailin qurulmasında maraqlıdır. Sadəcə, bu dəfə qura bilməyəcəklər. Çünki qarşılarında əldəqayırma ərəb ölkələri deyil, türk dövlətidir. Bu cür əməliyyatları keçirmək heç vaxt gec deyil. Türkiyə dövləti bu cür addımlar atmazdan əvvəl ölçüb-biçir, sonra qərara gəlir. Görünür, hərbi əməliyyat üçün indi daha məqsədəuyğundur. Türkiyə Amerikaya hərbi birləşməsini Fıratın şərqindən çıxartmaq üçün maksimum vaxt verdi. Türkiyə hər şey etdi ki, Amerikaya heç bir bəhanə verməsin. Artıq heç bir bəhanə qardaş ölkəni verdiyi qərardan geri çəkindirən deyil".

**Politoloq Türkiyənin əməliyyat üçün qarşısındakı əngələ də toxundu:** "Türkiyənin Fıratın şərqində antiterror əməliyyatı keçirməyinin qarşısını alan yeganə qüvvə ABŞ-dır. Məhz ona görə də bu əməliyyat uzandı. Fikrimcə, artıq Türkiyə üçün qırmızı xətdir. Və bu qırmızı xəttin üstündə ABŞ-ın belə durması PKK-çıları Türkiyə ordusunun tokatından xilas edə bilməyəcək".

❑ **Cavanşir ABBASLI,**
**"Yeni Müsavat"**

# ABŞ sanksiyalarının İrana təsirsizliyinin sirri

## Sülhəddin Əkbər: "İranın siyasi, dini, təhlükəsizlik sistemi kifayət qədər güclüdür"
## İlham İsmayıl: "ABŞ-ın İranla bağlı indiki siyasəti nəticə verməyəcək"

**ABŞ prezidenti Donald Trampın İranla bağlı imzaladığı sanksiyalar genişlənməkdədir. Rəsmi Vaşinqton 2015-ci ildə İranla imzalanan "nüvə razılaşması" xitam verdiyini açıqladı. Donald Tramp İranı cəzalandırmaq məqsədilə bu ölkənin beynəlxalq neft ixracına və sənaye məhsullarının ixracına məhdudiyyətin tətbiq edilməsi barədə göstəriş verdi.**




Sülhəddin Əkbər


İlham İsmayıl

2015-ci ildən bu günə qədər sanksiyaların siyahısı xeyli genişlənib, İranın çöküşü haqda rəylər də müvafiq olaraq artıb. Amma uzun illər geosiyasi düşmənçilik vəziyyətində olan İran-ABŞ arasındakı siyasi gərginlik Donald Trampın prezident seçilməsindən sonra daha da gərginləşib. Bu gərginliyin əsas səbəbi Vaşinqtonun və onun müttəfiqləri olan ərəb ölkələrinin İranın Şərq regionunda artan siyasi-hərbi nüfuzudur. Yəmən, İraq, Livan, Suriya, Bəhreyn kimi ölkələrdə şiə müsəlmanların artan fəallığı körfəz monarxiyalarını olduqca narahat edir.

Yeni qəbul edilən sanksiyalar 2015-ci illə müqayisədə özündə daha ağır şərtləri ehtiva edir. Bu sənədə görə, İran özünün "nüvə silahı" arzusundan birdəfəlik əl çəkməli və adıçəkilən ölkələrdə fəaliyyət göstərən şiə icmalarına verdiyi siyasi-hərbi dəstəyə son verməlidir.

**Təhlükəsizlik üzrə ekspert İlham İsmayıl deyir ki, qonşu dövlətin 1979-cu ildən belə sanksiyalara immuniteti var:** "İran həmin dövrdən sonra güclənib, güclənmək üzrə də gedir. Düzdür, sanksiyalardan sonra İranda bahalaşma gedib, qıtlıq yaranıb, neft satışında problemlər var. Amma nəzərə almaq lazımdır ki, İran dini əsasları olan ideoloji dövlətdir. Bu dövlət hansısa sağçı, solçu ideyalar üzərində qurulmayıb. İdeoloji dövlətlərlə təhdid dili ilə danışmaq çətin məsələdir. Zamanında SSRİ ideoloji dövlət idi. O zamanlar əhalisi çətin durumda yaşayırdı. O dövrdə ABŞ SSRİ-yə sanksiyalar tətbiq edirdi. Amma SSRİ-ni sanksiyalara görə deyil, aşkarlıq və yenidənqurma tezisləri ilə dağıtdılar. İran böyük dövlətdir, təbii ehtiyatları yetərincədir, onu sanksiyalarla dağıtmaq qeyri-mümkündür. ABŞ istəyirsə ki, İran planet üçün təhlükəli dövlət olmasın, tamam başqa format seçməlidir. Sanksiyaların siyahısını genişləndirməklə, Cavad Zərifə, Ruhaniyə qarşı addımlar atmaqla, neft satışına embarqolar qoymaqla məsələni həll etmək mümkün olmayacaq".

**İlham İsmayıl deyir ki, qarşıya qoyulan məqsədə çatmaq üçün daha ciddi tədbirlər görülməlidir:** "İranda əhali rejimi dəyişdirmək gücündə deyil. SSRİ-də rejimi xalq dəyişdirdi. Xalq o səviyyəyə çatdırıldı ki, rejimi dəyişdi. ABŞ-ın İranla bağlı indiki siyasətinin nəticə verməyəcəyini düşünürəm".

**Azərbaycan-Atlantik Əməkdaşlıq Assosiasiyasının sədri Sülhəddin Əkbər də deyir ki, İran sanksiyalar rejiminə öyrəşib, bu baxımdan ABŞ sanksiyalarının tezliklə təsirinin olacağını gözləmək lazım deyil:** "Çünki 10 illərdir ABŞ İrana sanksiyalar tətbiq edir. Qısa bir zamanda nüvə razılaşmasından sonra yüngülləşdirilsə də əslində heç götürülməmişdi. İranın sosial-iqtisadi sistemi, İran cəmiyyəti sanksiyaların tətbiqinə böyük ölçüdə uyğunlaşıb. İran cəmiyyəti, tarixi də nəzərə alınarsa, müxtəsər cəmiyyətdir, xarici təzyiq, təhdid, müdaxilə olduqda heç nəyə baxmayaraq xarici təhlükə qarşısında birləşir. Bunu unutmaq olmaz. İranın qədim dövlətçilik ənənələrini nəzərə almaq lazımdır".

**Sülhəddin Əkbərin sözlərinə görə, ABŞ-ın İrana qarşı ağır sanksiyalarından qısa zaman keçib. Təsirlərinin üzə çıxması üçün isə uzun zaman lazımdır:** "İranın siyasi, dini, təhlükəsizlik sistemi kifayət qədər güclüdür. Yəni zor aparatı kifayət qədər güclüdür. İran cəmiyyəti də bundan çəkinir".

**Sülhəddin Əkbərə görə, sanksiyaların təsirli olması üçün digər addımlar atılmalıdır:** "İran daxilində aktiv iş aparılmalıdır. Bu iş isə hələlik başlanmayıb, aparılmır".

**Sülhəddin Əkbər hesab edir ki, ABŞ prezidenti Donald Trampın məqsədi İranı Şimali Koreya kimi hədələməklə danışıqlar masasına əyləşdirməkdir:** "İranı güc nümayişi ilə danışıqlara məcbur etmək strategiyası aparılır. Tramp komandasının İranın dağıdılması məqsədi görünmür. İrana güc nümayişi, ağır sanksiya tətbiqi ilə dini-siyasi rəhbərliyi danışıqlar masası arxasına gətirmək və 5+1 nüvə sazişindən daha əlverişli saziş imzalamağa məcbur etməkdir. Tramp hələlik İrana münasibətdə Şimali Koreyaya tətbiq olunan strategiyaya bənzər strategiyadan çıxış edir. Odur ki, sanksiyalar təsirsiz kimi görünür".

❑ **E.MƏMMƏDƏLİYEV,**
**"Yeni Müsavat"**

YENİ MÜSAVAT
N 164 (7334) 7 avqust 2019

# "Dəvə kəsmək istəyirəm..." - məşhurlardan kimlər qurban kəsəcək?

## Qurbanlıq necə kəsilməli və necə paylanmalıdır...

**Gələn həftə müsəlman ölkələri, o cümlədən Azərbaycanda Qurban bayramı qeyd olunacaq. Bu il Qurban bayramı 12-13 avqust tarixlərinə təsadüf edir. Hər il olduğu kimi, bu il də ölkəmizdə müsəlmanların bayram günlərində qurban kəsib, ehtiyacı olan insanlara, qohum və yaxınlara paylayacağı, uzaqda yaşayan qohumlara baş çəkib, yaxınlarının qəbirlərini ziyarət edəcəyi gözlənilir.**

Bəs tanınmışlardan kimlər qurban kəsəcək?

Mövzu ilə bağlı bir neçə tanınmışlar arasında minisorğu keçirdik.

**ADP sədri Sərdar Cəlaloğlu** hər zaman Qurban bayramında qurban kəsdiyini və bu il də ənənəsinə sadıq qalacağını bildirdi.

**AĞ Partiya sədri Tural Abbaslı bu il də qurban kəsməyə niyyətli olduğunu bildirdi:** "İnşallah, bu il də niyyətim var. İmkan çatan qədər qurban kəsməyə çalışacam. Əlbəttə ki, niyyətimiz var, bu niyyətin qismət olması isə Tanrıdan asılıdır. Ümumiyyətlə, Qurban - müsəlmanların müqəddəs bayramıdır. İmkanı olanlar həmin günlərdə qurban kəsməli, imkansızlara, yaxınlara və özlərinə qurban əti hədiyyə etməlidirlər. Bununla da həm yardımlaşma nümunəsi olur, həm də dinimizin ayinlərini yerinə yetirmiş oluruq. Arzu edirəm ki, hər bir müsəlmana qurban kəsmək imkanı nəsib olsun".

**Əməkdar artist Elza Seyidcahan da, hər il olduğu kimi bu bayramda da qurban kəsəcəyini bildirdi:** "Qurban bayramı bizim müqəddəs bayramımızdır. Allah İbrahim peyğəmbərə onun imanını yoxlamaq üçün oğlu İsmayılı qurban kəsməyi əmr edir. İbrahim peyğəmbər buna razı olduğunu bildirəndə Allah bunu öz elçisinə rəva bilmədi və qurbanlıq üçün ona qoç göndərdi. Çox şükürlər olsun ki, Allah bizə də qurban kəsmək üçün imkan yaradır. Məlum olduğu kimi, indi zəvvarlar Həcc ziyarətinə gedir. Allah onların ziyarətlərini qəbul etsin. Ümumiyyətlə, arzum budur ki, hər kəsin ziyarətini və kəsəcəyi qurbanları qəbul etsin, xoş niyyətlərinə çatdırsın, günahlarını bağışlasın".

**Tamada Nazilə Səfərli:** "Bu il başqa qurbanım da var. Doğrudur, deyirlər bayram günündə başqa qurban kəsmək olmaz. Amma yəqin ki, buna görə bayramdan bir gün əvvəl qurban kəsməyə başlayacam. Yəni bayramlıqdan əlavə qurbanım olacaq. Oğlum bu yaxınlarda qəzadan sağ-salamat qurtardı, şükür ki, ölüm-itim olmadı, buna görə daha bir qurbanım var.

İstəyirəm ki, dana kəsim ki, çox adama çatsın. Çünki illərdir ki, mən qurbanlıq kimi qoyun kəsirəm və bu çox adama çatmır, evə də gəlib çatmır. Arzulayıram ki, dəvə kəsim. Lakin dəvə bugünkü büdcəmə uyğun gəlmir. Əlbəttə ki, dəvə kəsmək çoxunun arzusudur. İnşallah ki, gələcəkdə Allah daha artıq imkan yetirər və dəvə kəsərik".

Bəs qurbanlıq necə kəsilməlidir?

Dindarlar bildirir ki, Həcc ziyarətində qurban kəsmək vacibdir. Lakin Həcc ziyarətində olmayan şəxslərin də qurban kəsməsi savabdır, müstəhəbdir. Lakin vacib deyil. İmkan olmadan, özünü çətinliyə salıb qurbanlıq almaq da doğru deyil. Əksinə, imkanlı şəxslər qurbanı kəsib həmin o imkansız şəxslərə verməlidir. Yəni qurbanın Allah dərgahında daha fəziləti şəkildə qəbul olunması fəqir insanların o qurban ətinin payından istifadə etməsidir.

Borc pulla qurban kəsmək doğru deyil. Əgər qurban kəsməyə imkan olmazsa, bir neçə adam bir yerə cəmləşib bir iribuynuzlu heyvanı alıb, onu qurban kəsə bilər. Bu zaman bölgü aparanda heyvanı birlikdə alan şəxslər bir-birinə halallıq verməlidir. Şərikli kəsilən qurbanın hər şərikə çatan payı da üç hissəyə bölünməlidir. Onun bir hissəsi qurban sahibinə, digər hissəsi kasıb, imkansız ailələrə, üçüncü hissəsi isə pay kimi qoyum-əqrəbaya verilir.

İlahiyyatçılar bildirir ki, qurbanı əsasən Qurban bayramı günü kəsmək daha uyğundur. Bayramdan sonrakı iki gün ərzində də qurban kəsmək olar, bunun bir eybi yoxdur.



Qurbanlıq heyvan üzü qibləyə yerə uzadılır. Boğazındakı 4 iri damar (qida borusu, nəfəs borusu və daha iki damar) iti kəsən dəmir (polad) bıçaqla birdəfəyə kəsilir. Damarların bəzisini kəsib gözləmək, sonra o birilərini kəsmək olmaz (dəvənin kəsilməsi bundan bir qədər fərqlidir). Qurbanlıq heyvanı müsəlman olan şəxs kəsməlidir. Heyvan üzü və ayaqları qibləyə sarı olmaqla (sol tərəfi üstə) yatırılır. Qurbanı kəsən zaman Allahın adı çəkilməlidir. Yəni qurban kəsən adam heyvanın boğaz damarlarını üzəndə "bismillah" və ya buna bənzər Allah adı olan zikrlərdən birini deməlidir. Qəsdən Allahın adı çəkilmədən kəsilmiş heyvan murdar sayılır və əti yeyilməz. Heyvanın boğazından kifayət qədər qan gəlməlidir.

Qurban kəsən adamın özünün də üzü qibləyə durması, heyvanı kəsməzdən əvvəl qabağına su qoyaraq içməsinə imkan verməsi də müstəhəb şərtdir. Həmçinin heyvana əziyyət olmasın deyə, bıçağı itiləmək və boğazını tez üzmək məsləhətdir. Buna görə də, heyvanı kəsə bilməyən və təcrübəsi olmayan adamın bu işi təcrübəli bir şəxsə həvalə etməsi daha yaxşıdır. Əksinə, heyvanı başqa heyvanların gözü qarşısında kəsmək, boyundan başlayaraq boğaza doğru kəsmək, canı bədənindən çıxmayınca başını üzmək doğru sayılmır.

Heyvanın hansı hissələrini yemək olmaz?

Qurban niyyəti ilə, yaxud başqa niyyətlə kəsilməsindən asılı olmayaraq, heyvanın bədəninin bəzi üzvlərini yemək İslam şəriətində haram sayılır. Bunlar qan, peyin, erkək heyvanın cinsiyyət üzvü, dişi heyvanın cinsiyyət üzvü, balalıq, düşul adlı vəzi, xayalar, beyindəki noxud formalı hissə, onurğa beyni, onurğanın iki tərəfindəki piy, öd kisəsi, dalaq, sidik kisəsi, gözün hədəqəsidir.

❑ **Xalidə GƏRAY,**
**"Yeni Müsavat"**

# Qərbin terrora yanaşmasında "ikili standartlar"

## Müsəlman kütləvi qətl törədəndə terror sayılır, xristian törədəndə - manyaklıq...

**ABŞ-da 13 saat ərzində 29 nəfərin ölümü ilə nəticələnən qətl insidentlərinin motivləri araşdırılır. Yeni Amerikada bir həftə ərzində 3 yerdə kütləvi qırğın olub - bazar günü Ohayo ştatının Dayton şəhərində 6 nəfər, şənbə günü Texasın El-Paso şəhərində 20 nəfər, iyulun 28-də isə Kaliforniyanın Gilrou şəhərində 3 nəfər.**

Hücumların hər üçündə yaralananlar var və onların bəzilərinin vəziyyəti ağırdır. ABŞ prezidenti Donald Tramp bazar günü bütün hökumət binaları üzərindəki bayraqların endirilməsinə göstəriş verib. Yarıya endirilən bayraqlar gələn 5 gün ərzində qaldırılmayacaq. Rəsmilər daxili terrorizmdə ittiham edilən Texas cinayətkarına ölüm cəzası verilməsinə çalışacaqlarını deyib.

**"Ölkəmizdə nifrətə yer yoxdur", - deyə Tramp müxbirlərə bildirib. O, qətlləri əqli problemlərlə əlaqələndirərək, insidentlərlə bağlı daha kəskin bəyanatlarla çıxış edəcəyini deyib.** "Ölkəmiz faciəvi hücumda qətlə yetirilənlərin ailələri ilə matəm saxlayır, yaralananların ağırı və iztirablarını bölüşür" - prezident bildirib.

ABŞ-ın Ohayo ştatının Deyton şəhərində silahlı hücum zamanı 9 nəfər ölüb, 16 adam yaralanıb. Polisin bildirdiyinə görə, hücumçu tək hərəkət edib. Hücumun motivləri bəlli deyil. Hücumçunun 24 yaşlı Konnor Betts olduğuna dair xəbərlər yayılıb. O, psixologiya fakültəsinin tələbəsidir.

Bundan əvvəl ABŞ-ın Kaliforniya ştatında keçirilən sarımsaq festivalında kütləvi qətl hadisəsi baş verib. Hücumçunun açdığı atəş nəticəsində azı üç nəfər həyatını itirib. Qilrou şəhərində baş verən hadisə ilə bağlı məlumat verən polis hücumçunun əlində tüfəng olduğunu bildirib. Qilrou polis idarəsinin rəisi Skot Smiti hücumçunun polis atəşi nəticəsində öldürüldüyünü bildirib. O, həmin şəxsin çox güman ki, festival ərazisinə hasarı aşaraq keçdiyini deyib. Belə ki, fevstivala gələnlər yoxlanışdan keçib. Senator Kori Buker və Berni Sanders kimi prezidentliyə namizədlər prezident Trampı mühacirət əleyhinə ritorikalarına görə günahlandırıb. "Donald Tramp buna görə məsuliyyət daşıyır. Çünki o, qorxu, nifrət və fanatizmi qızışdırır", - deyə Buker CNN xəbər agentliyinə bildirib. Kaliforniya və Ohayo ştatlarındakı silahlı hücumların səbəbi məlum deyil.

Lakin rəsmilərin dediyinə görə, Meksika ilə Birləşmiş Ştatların sərhədində yerləşən Texas ştatındakı hücumda hədəf çox guman ki, ispandillilər olub.

**El-Paso şəhərinin polis rəisi Qreq Allen:** "Hazırda bu hücumun nifrət zəminində olduğu barədə məlumatımız var. Federal Təhqiqat Bürosu bu işlə digər federal orqanlarla birgə çalışır."

Bütövlükdə bir həftədə 3 yerdə qırğın olub. Lakin Amerika rəsmiləri dilinə terror sözünü gətirməyə, hadisələri terakt kimi qiymətləndirməyə tələsmirlər. Və silahlı basqın edənlər də ərəb-müsəlman deyil. Belə çıxır ki, yalnız ekstremist İslam təşkilatlarının üzvləri



adam öldürəndə terror olur, amerikalı canilər onlarla insan qətlə yetirəndə, bu, psixikası pozulmuş manyakın cinayəti olur.

Niyə terrora yanaşmada "ikili standartlar"a yol verilir? Vaşinqton ölkəsində xristian terrorçu olmasını nə üçün etiraf eləmir? Bəyəm terrorçunun milliyyəti, vətəni olur? Yalnız müsəlman - ərəb ölkələrindən terrorçu çıxır?

**Azərbaycan Sosial Demokrat Partiyasının (ASDP) sədri, deputat Araz Əlizadə "Yeni Müsavat"a bildirdi ki, ABŞ-ın özü terrorçular böyüdür:** "Amma heç vaxt boynuna almır ki, terrorçu yetişdirir. Dünyanın hansısa coğrafiyasında müharibələr olanda Amerika tövsiyə edir ki, zərərçəkən tərəf insan haqları tribunalına müraciət eləsin. Amma özü həmin məhkəməni tanımır. Amerika bəyan edir ki, onun əsgərini yalnız özü mühakimə edə bilər. Bu, ikili standartlarla yanaşma deyil, "Ağanəzərəm, belə gəzərəm" misalıdır. Sadəcə, bu dəfə təəccüblənirəm ki, nə əcəb Amerika üç ştatda baş verən vəhşi teraktları müsəlmanın, ərəbin üstünə atmadı. Çünki bu hadisələrdə İslama aid heç bir motiv yoxdur, əllərinə fürsət düşmədi. Əks halda, İranın, yaxud Rusiyanın üstünə atacaqdılar".

**A.Əlizadə vurğuladı ki, Əfqanıstandakı marginal silahlı təşkilat olan Talibanı da ABŞ-ın Mərkəzi Kəşfiyyat İdarəsi (MKİ) yaradıb:** "Nə tökərsən aşına, o da çıxar qaşığına". Amerika Talibanla bir masa arxasında müzakirə aparır, İŞİD-lə əməkdaşlıq edir, amma başqalarını günahlandırır".

**Deputatın fikrincə, ABŞ artıq dünyadakı nüfuzunu itirib, hegemonluğunu əldən verib:** "Amerika dişi tökülmüş şirə oxşayır. Tramp Şimali Koreyanı əzməklə təhdid edirdi. Görəndə ki, Kim Çen İn onu vecinə almır, qoşunlarını geri çəkdi. Eləcə də Suriyaya baxaq, Bəşər Əsəd yerindədir, Amerika isə Suriyadan çıxır. İndi də İrana "xox" gəlir. Amerika dünyada heç bir müharibədə qalib gəlməyib. Hitleri isə SSRİ hesabına məğlub elədi. Amma II Dünya müharibəsindən sonra faşistlərlə ticarətin hesabına varlandılar. Ona görə də Vaşinqtonun Cavad Zərifə sanksiya tətbiq eləməsi heç bir effekt verməyəcək.

Çünki Amerika ideologiyası olmayan dövlətdir, İranın isə ideologiyası var. İdeologiyası olmayanlar heç nəyə nail ola bilməzlər".

❑ **Emil SALAMOĞLU,**
**"Yeni Müsavat"**

YENİ MÜSAVAT
N 164 (7334) 7 avqust 2019

# "Aynanın heykəli var, Atatürkün yox" - bağlanan iki parkdan bir reportaj

## Sakinlər Eldar Əzizovdan abadlaşdırılan xiyabanda cümhuriyyət qurucusuna da büst qoyulmasını xahiş edirlər; obyektlər sökülüb, amma...

**"Gənclik" metro stansiyasından çıxanda böyük park bizi qarşılayır. Bu park Bakıda bəlkə də ən uzun xiyabanlardan biridir. Nərimanov rayonundan başlayıb Binəqədi rayonunda bitir. Türkiyə Cümhuriyyətinin qurucusu Mustafa Kamal Atatürkün adını daşıyan xiyabana birləşən isə SSRİ dövlət xadimi, güllələnmiş Ayna Sultanova parkıdır.**

Yəni böyük bir istirahət ərazisində iki siyasi xadimin adına parklar var. Hazırda hər iki parkda əsaslı yenidənqurma işləri gedir. Çoxdandır baxımsız qalan, dağılıb getmiş, təmiri uzun müddət yubanan Atatürk və Ayna parkları ölkə prezidentinin tapşırığı ilə müasirləşdirilir. Bu geniş meydan şəhərin kifayət qədər prestijli yeridir. Orada çoxlu restoranlar, çayxana-kafelər fəaliyyət göstərirdi. Ən maraqlısı isə odur ki, kafe-restoranların əksəriyyəti sökülüb, bəziləri yenidən qurulur.

Heç şübhəsiz, park ərazisində müasir şəhərsalma standartlarına əsasən əyləncə məkanları da olmalıdır, dondurma dadmaq, yaxud kiçik bir qəlyanaltı eləmək üçün kafe də vacibdir. Lakin hər şey mizan-tərəzisində... tüstü-kababsız!

Vaxtilə bir neçə onillik yaşı olan ağacları qırıb yerində "Büllur", "İsa bulağı", "Qızılgül" adlı restoranlar tikmişdilər. Bundan sonra parkda hansı restoranların qalacağını zaman göstərəcək. Çünki hələlik iş gedir və yalnız Bakı şəhər rəhbərliyi bilir ki, Atatürk parkı hansı restoranların üzünə güləcək. Ətrafda yaşayan sakinləri də parkın abadlaşdırılması razı salmaqdadır. Ancaq onların ümdə bir arzuları var. Sual edirlər ki, Azərbaycan tarixində birmənalı qarşılanmayan A.Sultanovanın heykəli saxlandığı halda niyə Atatürkün bu xiyabanda heykəli qoyulmur.

Sakinlər bildirirlər ki, Türkiyənin tarixi şəxsiyyətinin adını daşıyan parkda ən azı bir büstünün qoyulması vacibdir. Bu, həm parka əzəmət gətirəcək, həm də ad-san. "Gənclik"də söhbətləşdiyimiz bir neçə sakin ölkə rəhbərliyindən xahiş etdi ki, A.Sultanova kimi Atatürkün də büstü parkda ucaldılsın.

"Atatürk prospekti Bakının ən tanınmış yerlərindən biridir. O kişinin adını daşıyır. Amma ona aid burada bir nişanə yoxdur. İndi park abadlaşır, səliqəli olacaq, məqamıdır ki, Atatürkün adına layiq bir heykəl qoyulsun.

Ayna Sultanovanın heykəlinin götürülməsini tələb edənlər var idi. Amma lazım deyil. Tarix qalmalıdır, ona hər nəsil öz qiymətini verəcək. Sadəcə, Kamal paşanın da büstü olsun", - deyə AMEA-da işlədiyini deyən Nadir müəllim qeyd etdi.

**Onun sözlərinə görə, həm A.Sultanova, həm Atatürk parkları illərlə bərbad gündə olub:** "Abutalıbovun dövründə dəfələrlə yazdıq, bizə cavab verilirdi ki, plandadır, nəzərdə tutulub, amma təmir olunmurdu. Xaləddin İsgəndərova da məktublar yollanmışdı, amma Binəqədi ərazisinə düşən Ayna parkı təmir edilmirdi. Neçə ildir ki, buranı hasarlayıb belə saxlamışdılar. Şayiə yayırdılar ki, guya satılıb. Eldar Əzizov gələndən sonra hər iki parkın bəxti açıldı. Adam parka gələndə utanırdı. Şəhərin hər yerində təzə parklar salınıb, amma bu cür yerlərə əl gəzdirilmirdi. Bundan sonra insanların ailəvi gəzintisi, uşaqların oynaması, pensiyaçıların dincəlməsi üçün yaxşı şərait olacaq. İntəhası, obyektlərin sayı azaldılsa yaxşıdır".

Müşahidələrimizə əsasən deyək ki, hər iki parkda fəhlələr işləyir. Amma yenidənqurma işlərinin nə vaxt yekunlaşacağı bilinmir. İşçilər deyirlər ki, payıza qədər təmir davam edəcək. Öyrənirik ki, burada uşaqlar üçün yeni attraksionlar qurulacaq, skamyalar təzələnəcək. Artıq ağaclar budanıb, parkın üz-gözü açılıb, döşəmələr yenilənir, plitələr qoyulur.

**BŞİH isə rəsmi açıqlamada bildirir ki, parkın vəziyyəti ilə bağlı ətraf ərazilərdə yaşayan vətəndaşlardan haqlı narazılıq və iradlar daxil olurdu:** "Bununla əlaqədar Bakı Şəhər İcra Hakimiyyəti və Nərimanov Rayon İcra Hakimiyyəti birgə parkın əsaslı təmiri və yenidənqurulması ilə bağlı vətəndaşların istək və arzuları nəzərə alınmaqla yeni layihə sənədləri hazırlanması qərara alınıb. Hazırda parkda təmizlik və yenidənqurmaya hazırlıq işlərinə başlanıb. Yalnız müvəqqəti və qeyri-qanuni fəaliyyət göstərən, günün tələblərinə uyğun olmayan, parkda antisanitariya şəraiti yaradan obyektlər sökülüb, rəsmi mülkiyyət sənədləri olan digər obyektlərin sahiblərinə isə müvafiq yenidənqurmalar aparılması tövsiyə olunub".

Yada salaq ki, Ayna Sultanova parkında yenidənqurma işlərinin aparılması məqsədilə 2018-ci il dövlət büdcəsində nəzərdə tutulmuş prezidentin ehtiyat fondundan Binəqədi Rayon İcra Hakimiyyətinə 1,5 milyon manat vəsait ayrılıb.







❑ **Emil SALAMOĞLU,**
**"Yeni Müsavat"**
**Fotolar müəllifindir**

# Plastik qablarda satılan qazlı sulardan gələn təhlükə - SOS!

## Bakı ətrafındakı mağazalarda bu cür suların saxlanma qaydalarına əməl edilmir

**Yay aylarında insanlar qazlı sulardan daha çox istifadə edirlər. Bakının demək olar ki, hər küçəsində satılan bu cür içkilərin üzərində saxlanma şəraiti də qeyd edilib. Həmin qeyddə bildirilir ki, içkilər sərin şəkildə saxlanılıb, elə də qəbul edilməlidir. Mütəxəssislər də bildirirlər ki, plastik qabda olan qazlı suların Günəş şüaları altında saxlanması olduqca təhlükəlidir. Bu, zəhərlənməyə yol aça bilər.**



Qazlı sulardan zəhərlənmə halları ilə bağlı indiyədək sosial şəbəkələrdə, xəbər portallarında yayılan xeyli məlumata rast gəlmək mümkündür. Məsələn, 2016-cı ildə Ağcabədi rayonunda məskunlaşmış Xocavənd sakini Murad Nəsirovun qazlı su içdikdən sonra zəhərləndiyi və dünyasını dəyişdiyi xəbəri yayılmışdı. Eləcə də diyetoloqlar bildirirlər ki, qazlı sulardan zəhərlənmə, allergiya halları baş verə bilər. Mütəxəssislərə görə, əsas məsələ qazlı suların necə və harada gəldi saxlanmasıdır.

"Yeni Müsavat"ın əməkdaşı olaraq şəhərdə olan dükanlarda müşahidə etdik ki, bu cür suların saxlanması qaydalarına heç də əməl edilmir. İri marketlər şəbəkəsində sular soyuducularda, Günəş şüası düşməyən yerlərdə saxlanılsa da, məhəllə mağazalarında vəziyyət fərqlidir. Xüsusilə də kiçik mağazaların daxilində yer az olduğu üçün, dükan sahibləri suları mağazanın çölünə, Günəş şüaları düşən yerə yığırlar. Plastik qablarda olan bu içkilər yayın istisində kifayət qədər qızır. Soyuducudakı içkilər satıldıqca, çöldəki içkilər içəri gətirilir. Bəzi hallarda bir günün içərisində həmin sular kifayət qədər qızır, sonra isə mənfi temperaturda saxlanılaraq soyudulur.

**Bazarlarda, dönərxanalarda da vəziyyət eynidir. Dönərxanalarda antigigiyenik hallar azmış kimi, bu cür içkilər də piştaxtaya yığılaraq, Günəş altında saxlanılır. Lakin bütün bunlara heç bir rəsmi qurumdan irad bildirilmir. Bunu biz yox, satıcılar bildirirlər. Satıcılar söylədilər ki, suların bu cür vəziyyətdə saxlanmasının məqsədəuyğun olmadığını onlar da yaxşı bilirlər:** "Ancaq qoyacaq yerimiz olmadığı üçün məcbur qalıb mağazanın çölünə yığırıq. Ancaq bizə indiyədək heç bir qurumdan bu barədə irad bildirilməyib..."

"Yeni Müsavat"a danışan Azad İstehsalçılar Birliyinin sədri Eyyub Hüseynov söylədi ki, ona da hər gün məsələ ilə bağlı müraciət edənlər az olmur: "Ümumiyyətlə, sularla bağlı çoxlu böyük müəmmalar var. Su təbiətin bir möcüzəsidir. Qoxusu, dadı, rəngi yoxdur və insanlar hiss üzvləri ilə onun keyfiyyətini müəyyən edə bilmirlər. Digər qidalarla bağlı isə bu, belə deyil. Ona görə də istisna olunmur ki, ən brend suyun belə bir hissəsi təmizlənir, bir hissəsi isə birbaşa olaraq şəbəkədən doldurulur. Mənə əhali müraciət edib deyir ki, necə olur litri 30 qəpiyə və litri 8 manata olan sular var. Yəni ölkədə su sahəsində böyük problem yaşanır. Suyun parametrini araşdırmaq üçün gərək onun 300 parametri üzərində analiz aparılsın. Plastik qablarda saxlanılan və isti havada çöldə olan suyu almaqdan insanlar imtina etməlidirlər. Artıq bu cür sular yararsızdır. Plastik qabın tərkibində olan kimyəvi maddələr isti havada suya keçir".

Onu da qeyd edək ki, plastik qablardan imtina məsələsi uzun zamandır ki, Avropanın gündəmindədir. Azərbaycanda da Ekologiya və Təbii Sərvətlər Nazirliyi tərəfindən əhaliyə bildirilir ki, plastik qablardan, sellofan torbalardan istifadə ətraf mühit üçün təhlükə yaradır. Çünki bu qablar uzun müddət çürümür, torpağa qarışmır, parçalanmır. Nəticədə ətraf mühitdə qalaqlanıb qalır. Avropa İttifaqı dünya okeanının çirklənməsinə səbəb olan birdəfəlik istifadə edilən plastik məhsullara məhdudiyyətin qoyulmasını təklif edib. Avropa Komissiyası bu məhsullarla bağlı yeni qaydaların gətirilməsi təklifini irəli sürüb. Təklifə əsasən, Aİ üzvü olan ölkələr plastik ərzaq və içki qablarının istifadəsini alternativ məhsullar istehsal edərək azaldacaq. Təklifə görə, Aİ üzvü ölkələr 2025-ci ilədək plastik qabların 90 faizini toplamaq məcburiyyətində olacaq.

Yəni ekspertlərə görə, plastik qablarda düzgün formada saxlanılmayıb, satılan sular insanlara, onların qabları isə təbiətə xeyli zərər vurur. Lakin hələ ki bu barədə ciddi məhdudlaşdırıcı tədbirlər görülmür. Mütəxəssislər bildirirlər ki, əgər rəngi olan qazlı suyu içərkən boya qoxusuna bənzər əlavə qoxu gəlirsə, o zaman həmin suyu içmək olmaz. Bu, artıq onun lazımi şəraitdə saxlanılmayıb, tərkibini dəyişdiyindən xəbər verir...

❑ **Əli RAİS,**
**"Yeni Müsavat"**



# Yevlaxda qəbiristanlıqda narkoplantasiya aşkarlandı

**Yevlax Rayon Polis Şöbəsinin (RPŞ) əməkdaşları tərəfindən kultivasiya yolu ilə yetişdirilən narkotik tərkibli bitkilərin aşkar edilməsi və bu qanunsuz fəaliyyətlə məşğul olan şəxslərin ifşa olunaraq məsuliyyətə cəlb olunmaları istiqamətində tədbirlər davam etdirilir.**

DİN mətbuat xidmətinin Bərdə regional qrupundan virtualaz.org-a verilən məlumata görə, Yevlax RPŞ-nin əməkdaşları tərəfindən "Xaş-xaş-2019" şərti adlı kompleks əməliyyat-axtarış və proflaktik tədbirləri nəticəsində çətənə bitkisi yetişdirməkdə şübhəli bilinən Qaraoğlan kənd sakini Rəşid Məmmədov saxlanılıb.

R. Məmmədovun kənd qəbiristanlığının yaxınlığındakı 0.05 hektar torpaq sahəsini zəbt edərək həmin ərazidə aqrotexniki qaydada qulluq etməklə yetişdirdiyi, təmiz çəkisi 1 ton 152 kiloqram, uzunluğu 1 metrdən - 4 metrədək olan 192 ədəd narkotik tərkibli çətənə kolu aşkar edilərək götürülüb. Həmçinin ərazidə axtarış zamanı oradan əlavə olaraq 605 qram qurudulmuş marixuana da aşkar edilərək götürülüb.

Faktla bağlı Yevlax RPŞ-də cinayət işi başlanılıb, araşdırmalar davam etdirilir.

YENİ MÜSAVAT
N 164 (7334) 7 avqust 2019

# Rza Zərrab işində müəmmalar

## İran əsilli iş adamı barədə mübhəmlər davam edir: ABŞ-da həbsdə, yoxsa kefdədir?

**Xəbər verdiyimiz kimi, iyulun 19-da ABŞ-da həbsdən azad olunan "Halk Bank"ın keçmiş müavini Mehmet Hakan Atilla Türkiyəyə göndərilib. Türkiyəli eks-bankir ABŞ İmmiqrasiya və Gömrük Mühafizə Bürosunun səlahiyyətli şəxsləri tərəfindən Nyu-Yorkun Kennedi hava limanına gətirilərək Türkiyə Hava Yollarına (TYH) məxsus "TK-02" tipli təyyarə ilə İstanbul aeroportuna yola salınıb.**




Xatırladaq ki, Hakan Atilla 2017-ci il 27 mart tarixində Nyu-Yorkun Kennedi hava limanından Türkiyəyə qayıdanda saxlanılaraq həbs edilmişdi. O, ABŞ-ın İrana qarşı sanksiyalarını pozmaqda, ABŞ-da həbsdə olan cənubi azərbaycanlı iş adamı Rza Zərrabla və başqaları ilə sövdələşməyə girərək, fırıldaqçı qızıl və ərzaq alqı-satqısı vasitəsilə İrana köməklik göstərməkdə ittiham olunaraq barəsində 32 ay müddətinə həbs qərarı çıxarılmışdı.

Rza Zərrab məhkəmədə Atillanın əleyhinə ifadə vermişdi.

27 iyulda isə Azərbaycan əsilli iş adamı Rza Zərrab barəsində irəli sürülmüş cinsi zorakılıq ittihamından bəraət alıb. Məhkəmə milyarderin kamera yoldaşı, məhkum Fauzi Yaberin cinsi təcavüz və zorlamaya cəhd ittihamı ilə açılan dosyeni bağlamaq qərarı verib.

Zərrabın Manhetten ştatındakı "Metropolitan Correctional Center MCC" həbsxanasında qaldığı vaxt eyni kamerada qaldığı Yaber bu ittihamı 2017-ci ildə irəli sürmüşdü. Məhkəmə 20 aydır davam edirdi, Fauzi Yaber Zərrab əleyhinə irəli sürdüyü ittihama görə qarşı tərəfdən təzminat tələb edirdi.

Buna baxmayaraq, hazırda Rza Zərrab ortalıqda görünmür. Bununla belə, onun dosyesinə yeni bir "gizlilik möhürlü" sənədlər girməyə davam edir. Amerika hüquq sistemində isə ittihamlar "qiyabi şəkildə" edilmir. İttiham olunan şəxsin də məhkəmə zalında olması lazımdır. Belə ki, Rza Zərrab haqqındakı iddianamə də sonuncu ABŞ-a ayaq basmadan öncə Böyük Münsiflər Heyəti tərəfindən qəbul edilmiş, amma hələ yaxalanmamasına görə "möhürlənmişdi". Zərrab saxlandığı zaman iddianamə də cəmiyyətə açıqlanmışdı. Hüquqşünaslar indi Zərrabın gizli bir yerdə danışmağa davam etməsilə birlikdə, sənədə girən yeni möhürlü, gizli sənədlərin də ABŞ torpaqlarında olmayan xarici vətəndaşlar haqqında "iddianamələr ola biləcəyinə" diqqət çəkir.

### Zərrab prokurorluqla işbirliyinə girdi, "şahid" oldu

Zərrab 2017-ci ilin dekabrında başlanması nəzərdə tutulan prosesə qısa müddət qalmış, sentyabr ayında prokurorluqla "iş birliyinə"getməyə qərar vermişdi. Zərrabın verdiyi məlumatlar əsasında özü şahid olmuş, "Zərrab işində" tək cavabdeh isə Hakan Atilla olmuşdu.

Zərrab şəbəkəni necə qurduğunu, iranlılarla necə əlaqəyə girdiyini, İran investisiyalarının Türkiyədə "Halkbank" vasitəsilə dələnməsi üçün necə bir şəbəkə qurduğunu detalları ilə öncə prokurorluğa, ardınca da məhkəməyə danışıb.

Hazırda isə Türkiyə mediası Rza Zərrabın harada ola biləcəyi ilə bağlı "baş sındırır". İddialar aşağıdakı kimidir:

### 1.Nyu-Yorkda türmədə qalır

**Nyu-Yorkda fəaliyyət göstərən vəkil Cahit Akbulut "Rza Zərrab haradadır" sualına cavabda "Nyu-York ətrafında, adı açıqlanmayan bir türmədə hələ də həbsdədir" iddiasını səsləndirib. R.Zərrabın azadlıqda olduğu istiqamətindəki xəbərlərin yersiz olduğunu deyən Akbulut aşağıdakıları vurğulayıb:** "Türkiyə mediasında Sərrafın azadlıqda olduğu istiqamətində yer alan xəbərlər yersizdir. Həyat yoldaşı Ebru Gündeşin hamilə olduğunu belə iddia etdilər. Rza Zərrab həyat yoldaşı Ebru Gündəşlə Nyu-Yorkda gəldiyi zaman, sadəcə, türmədə görüşdü. Belə bir sərbəst qalma vəziyyəti amerikan ədalət sistemində mümkünsüz bir şeydir".

### 2. Azadlığa buraxılıb, ABŞ-da yaşayır

R.Zərrabın azadlığa buraxıldığı və həyat yoldaşı ilə tez-tez görüşdüyü də yenə iddialar arasındadır. Etirafçı olmağı qəbul etdikdən sonra Zərrabın Nyu-Yorkda, şəhərin məşhur restoranı Nobuda görüntüləndiyi və restoranla üzbəüz "Four Seasons Downtown" hotelində göründüyü iddia edilmişdi. "Hürriyet" müxbiri Razi Canikligil Zərrabı qapıda gözlədiyi halda Vaşinqton seriyalı "Cadillac Escalade" markalı, sürücüsü lüks maşını ilə birlikdə görüntülədiyini açıqlamışdı.

### 3. Dubaya köçüb

**Daha bir iddia isə Rza Zərrabın məhkəmədə iş birliyindən sonra üzünü dəyişdirərək Dubaya köçməsi ilə bağlıdır. Bu iddiaya Zərrabın türmədə olduğu zaman vəkilinə Dubaya köçməklə bağlı arzusunu deməsi səbəb olub. Zərraba aid əl yazısı ilə vəkilinə yazılmış məktubda aşağıdakılar qeyd edilmişdi:** "Dubaydakı vəkil Abdurrahman Al Sharif ilə görüşüb, gələcəkdə Dubayda yaşaya bilməyim üçün Dubayda oturum alıb-ala bilməyəcəyimi dəqiqləşdir. Vəkilə deyib ki, Amerikada prokurorla iş birliyinə gedib, razılaşma əldə edərsə, cəzası bitdikdən sonra Dubaya köçə bilərmi? Amerikadan birbaşa Dubaya deport edilsəm, oturumumu həll edə bilərmi? Bütün bunlarla bağlı danışmaq üçün vəkildən görüş istə, gedib üz-üzə danış".

Bu məktub da Zərrabın türmədən çıxarıldıqdan sonra Dubaya köçməsi ilə bağlı iddialara əsas olaraq göstərilir.

### 4. FTB nəzarətində tutulur

Rza Zərrabın ABŞ-da türmə xaricində FTB nəzarətində saxlanması da yenə iddialar sırasında yer alır. Zərrab şahidliyi zaman, türmədə saxlanarkən ona qarşı bıçaq çəkildiyini iddia etmiş və FTB nəzarətində olduğunu demişdi. Nyu York Cənubi Bölgə Prokurorluğu da Zərrabın FTB nəzarətində olduğunu demiş, amma harda saxlandığı ilə bağlı sualları cavabsız qoymuşdu.

### Zərrab nədə ittiham olunub?

**"Yeni Müsavat" xatırladır ki, ittihamnamədə şübhəlilərə qarşı altı ittiham irəli sürülmüşdü:**

*ABŞ və xüsusilə də ABŞ Maliyyə Nazirliyini aldatmaq üçün plan qurmaq*

*Beynəlxalq Təcili İqtisadi Güc Qanununu (International Emergency Economic Powers Act) pozmağa cəhd*

*Bank sistemində saxtakarlıq*

*Bank sistemində saxtakarlıq etmək üçün plan qurmaq*

*Pul yuyulması*

*Pul yuyulması üçün plan qurmaq.*

Zərrab haqqında 90 ilə qədər həbs və 50 milyon dollar pul cəzası və Atilla haqqında 50 ilə qədər həbs və 2 milyon dollar pul cəzası istənilib.

İttihamnamədə eləcə də şübhəlilərin sanksiyaları pozmaq üçün qurduqları sistemdə "İran və Türkiyənin yüksək vəzifəli hökumət üzvlərinin də iştirak etdiyi və bu sistemi qoruduğu" irəli sürülüb.

Bundan başqa, Zərrab, Atilla və iş ortaqlarının sanksiyaları pozmaq üçün iki fərqli üsula əl atdıqları bildirilir. Çağlayan və Aslan barəsində isə bu üsulların funksionallığını təmin etmək üçün "dəyəri milyon dollarla ölçülən nağd pul və cəvahiratı rüşvət kimi aldıqları" iddia edilib.

İttihamnaməyə görə, sanksiyaları pozmaq üçün tətbiq olunan üsullar "neft qarşılığı qızıl" və "xəyali tranzit ticarət" olaraq qeyd edilib.

İttihamnamədə ilk sistem olan "neft qarşılığı qızıl" üsulunun ən az 2010-cu ildən bəri tətbiq olunması barəsində məlumat yer alır və burada göstərilən məlumata görə, sistem belə işləyib:

Sanksiyalar ucbatından Türkiyə aldığı neft və təbii qaz üçün ödəməli olduğu məbləği İrana birbaşa göndərə bilməyib. Buna uyğun olaraq İran, Türkiyədə yerləşən "Halkbank" adlı bankda bir hesab açıb. Türkiyə də ödəmələri bu hesaba yatırıb.

Daha sonra, bu hesabdakı pullar Zərrabın şirkətlərinə köçürülüb və bu şirkətlər üzərindən qızıl alınıb. Həmin qızıllar Türkiyədən Dubaya ixrac olunub və burada yenidən pula çevrilib və çantalarda İrana aparılıb.

Beləliklə, sanksiyalar başqa ölkələr üzərində dolayı yollarla pozulub və Aslan və Atilla başda olmaqla Halkbank rəhbərlərinin ABŞ Maliyyə Nazirliyi səlahiyyətli üzvləri ilə qurduqları əlaqələrdə qızıl alqısının İran dövləti tərəfindən yox, şəxslər və şirkətlər tərəfindən həyata keçirildiyi ortaya çıxıb. İttihamnamədə bu öz əksini "yalan bəyanat" verməik kimi tapır.

Eləcə də şübhəlilər Türkiyədən ixrac edilən qızılın Dubaya deyil, İrana göndərilmiş kimi göstərərək "sənədlərin saxtalaşdırılmasında" günahkar bilinirlər.

İkinci üsulun isə 2012-ci ildə İranın qiymətli metal idxalına yönəlmiş sanksiyaların pozulması ilə birlikdə qüvvəyə mindirildiyi göstərilir. ABŞ-ın yeni tənzimləmələri, İranın başqa ölkəyə satdığı enerji məhsulları müqabilində alacağı ödənişləri yenə o ölkəyə və yalnız qida və ya tibbi məmulat alqısında istifadəsini nəzərdə tutur.

### Sübutlar bunlardır:

Prokurorluğun təqdim etdiyi iddialara əsasən, Zərrab və digər şübhəlilər bu dəfə qızıl ixracatı əvəzinə, Türkiyə və Dubay üzərindən İrana buğda ticarəti etməyə başlayıb. İttihamnamədə buğda ticarətinin aparılmadığı və yalnız kağız üstündə göstərilərək İranın hesablarından alınan pulun yenə də Zərraba və iş ortaqlarına aid şirkətlər vasitəsilə təkrar İrana göndərildiyi önə çəkilir.

Prokurorluğun ittihamnaməsində şübhəlilər arasında baş tutan bəzi telefon zəngləri və e-mail yazışmaları yer alır.

Prokurorluq bir növ ortaya atdığı iddiaları, ittihamlarının istinad etdiyi hüquqi tənzimləmələri və bu iddiaları sübut etmək üçün təqdim etdiyi dəlillərlə bağlı bəzi detalların qeyd olunduğu sənədi oktyabrın 30-u məhkəməyə verib.

**"Məhkəmə prosesində təqdim ediləcək dəlillərə, qurulan qəsdlərin həyata keçirilməsi məqsədilə aralarında və başqaları ilə apardıqları saysız əlaqə yazıları daxildir," ittihamnamədə deyilir. Təqdim olunacaq dəlillərə aşağıdakılar daxildir:**

*Şübhəlilərin hesablarının istintaqı nəticəsində əldə olunan e-mail yazışmaları;*

*Zərrab və Atillanın telefonlarından əldə edilən elektronik əlaqə yazıları;*

*Türkiyə təhlükəsizlik qüvvələrinin şübhəlilərin telefonlarını dinlənməsi vasitəsilə əldə olunan səsyazmalar;*

*Şübhəlilərin telefonlarından və Türkiyə təhlükəsizlik qüvvələrinin Zərrabın iş yeri ilə "Halkbank" arasındakı zənglər əsnasında əldə etdiyi sənədlərin şəkilləri;*

*"Telefon zənglərinin səsyazmaları və kasetləri ilə bərabər, Zərrabın iş yeri ilə "Halkbank" arasındakı zənglərinin sənədlər əsasında həqiqiliyi və necə əldə olunması, bu barədə məlumatı olan bir və ya daha artıq şahid tərəfindən təsdiq ediləcək," prokurorluğun təqdim etdiyi məlumatda deyilir.*

Lakin bu şahid və ya şahidlərin kimliyinə dair hər hansı bir məlumat verilmir.

**Eyni məlumatın başqa bir qismində 2013-cü ilin 17 dekabrında Türkiyədə təşkil olunan korrupsiya iddiaları ilə əlaqədar bir əməliyyatda Zərrab, Aslan və Happaninin nəzarət altına alındığı diqqətə çatdırılır:** "Bu istintaq Türkiyə hökuməti içində mühüm miqdarda və yüksək səviyyədə korrupsiyanın ortaya çıxarıb və bu səbəbdən də istintaqda yer alan təhlükəsizlik işçiləri ilə prokurorlara qarşı cəld və sərt bir şəkildə hərəkətə keçilib," deyilir.

Məlumatda Zərrabın həbsindən sonra, 2014-cü ilin fevralında sərbəst buraxıldığı və haqqındakı ittihamların 2014-cü ilin iyulunda aradan qaldırıldığı vurğulanır. Bu vəziyyətin isə Zərrab və Halkbanka "saxta qida ticarətlərini davam etdirmək" üçün şərait yaratdığı göstərilir.

2013-cü ilin dekabrın 17-də korrupsiya iddiaları ilə bağlı aparılan əməliyyat çərçivəsində polis tərəfindən qeydə alınan telefon zənglərinin mühüm bir hissəsinin ABŞ-dakı ittihamnamədə yer aldığı görünür.

Bununla birlikdə ittihamnamədə şübhəlilərin öz aralarında və ya başqaları ilə danışdıqları, lakin Türkiyədəki polis məlumatlarına daxil olmayan zənglər də var.

**❑ Sevinc TELMANQIZI, "Yeni Müsavat"**

YENİ MÜSAVAT

Son səhifə

N 164 (7334) 7 avqust 2019

## Bunları bilirsinizmi?

* Dəvəquşlarının gözləri beyinlərindən böyükdür.
* Dünyada ən kiçik ordu Monako knyazlığındadır: 2 zabit və 60 əsgər.
* Ən uzun hörüklərin sahibi XIX əsrdə İngiltərədə yaşamış Ovens adlı bir qadın olub. Onun hörüklərinin uzunluğu 2 m 50 sm olub.
* İnsanlar bütün ömrü boyunca 20 kiloqram toz udurlar.
* Kanada da yerin cazibə qüvvəsi dünyanın digər əraziləri ilə müqayisə də daha azdır. Bu səbəbdən kanadalılar özlərini tərəzidə çəkərkən öz normal çəkilərindən az çıxırlar.
* Hindistanda bığ saxlayan polislər daha ciddi göründükləri üçün digər polislərdən 5% çox maaş alırlar.
* İnsan bədənindəki damarların uzunluğu təxminən 96 min kilometrdir.
* 1 kilo kökəlmək üçün bədənimiz 20 km yeni damar əmələ gətirir.
* Dünyada ən uzun müddətə hakimiyyətdə qalmış sülalə Osmanlı sülaləsidir (623 il)
* Qarışqa yuvalarının girişi hər zaman şimala tərəf olur.
* Vaxtının çoxunu musiqi dinləyərək keçirən insanlar daha çox depressiv insanlar olurlar.
* Şekspir 23 apreldə doğulub və 23 apreldə vəfat edib.
* Norveçin şimalında hər yay 14 həftə gecə-gündüz günəşli keçir.
* Timsahlar dillərini çölə çıxara bilmirlər.
* Ağcaqanadların 47 dişi olur.
* Almaniyadakı zooparkların birində “Dünyanın ən təhlükəli heyvanı” zalı var. İçəri daxil olduqda qarşınıza nəhəng bir güzgü çıxır.
* Xoşbəxtliyin ən böyük düşməni düşünməkdir. Elm sübut edib ki, az düşünən insanlar daha xoşbəxtdirlər.



## Fil balasına hücum edən şir öldü

**Cənubi Luanqvadakı milli parkda ac şir fil balasına hücum edib. “Daily Mail”in xəbərinə görə, bir neçə saatdan sonra şir ölü vəziyyətdə tapılıb. Fil balası özünün üstün çəkisinə görə sağ qala bilib. O, bütün ağırlığı ilə şirin üstünə çöküb və sonuncu hücum məkanını dəyişənə qədər orda qalıb.**

Vəhşi heyvanların nadir mübarizə fotoları kanadalı fotoqraf Nyu Cey Uayta məxsusdur. Çəkilişlərdə fil balası arıq şiri necə məğlub etməyə çalışır. Daha sonra o, hücumçunu təqib edir və qovur. “Heyvanların həyat, yaşamaq uğrunda necə mübarizə apardıqlarını izləmək çox çətin və ağır idi. Xüsusən o zaman ki, tərəflərdən birinin həyatı yeni başlayıb, digəri isə qocadır”.

Fotoqrafın sözlərinə görə, o, parkda səyahət zamanı xəstə, arıq şiri görüb. O, səhər saatlarında Günəş şüalarının altında istirahət edirmiş və bədəni çox yorğun, yarıölü vəziyyətdə olub. “Onun arıq bədənindən, çıxmış sümüklərindən və halsız uzanmasından hiss olunurdu ki, əziyyət çəkir. Biz bir qədər uzağa gedəndə hiss etdim ki, onun halı çox pisdir və ölməyinə sayılı dəqiqələr qalıb”.

Hadisədən bir müddət sonra şir ölüb.

## Bu ölkənin ən gözəl qadınları... ən köklər sayılır

**Dünyada qəbul edilən gözəllik kriteriyalarına görə, qadın müəyyən bədən formalarına malik olmalıdır. Amma bu ölkədə qadının arıq olması rüsvayçı fakt kimi qəbul edilir. Söhbət Afrikada yerləşən Mavritaniyadan gedir. Belə ki, bu ölkənin ən gözəl qadınları ən kök olanlar hesab edilirlər. Arıq qadınlara isə yeməyə çörək belə ala bilməyən yoxsul kimi baxırlar.**



Bu ölkədə evlənmə yaşına gələn qızlar ailə qurmaq üçün kök olmalıdırlar. Bunun üçündə özləri üçün xüsusi qida rasionu hazırlayırlar. Bura dəvə südü, zeytun yağına batırılmış çörək, keçi ətindən olan bol kalorili yeməklər daxildir. Mavritaniyada bu adət “gavage” adlanır. Bu rasion sayəsində iki günə 5 kq-a yaxın kökəlmək mümkündür.

Bu adət haqqında sənədli film çəkilişlərində iştirak edən kişilər belə kök qadınların daha cəlbedici olduğunu düşündüklərini deyiblər. “Gavage” adət-ənənəsinə məruz qalanlar isə bunun müəyyən zamandan sonra işgəncəyə çevrildiyini, hətta yeməkdən imtina edəndə valideynlərin şiddətinə məruz qaldıqlarını, barmaqlarının qırıldığını deyirlər.

## İki il içdiyi çaya görə həyatı zəhər oldu



**London sakini iki il boyunca güclü ürəkbulanma və öskürəkdən əziyyət çəkib. Buna səbəb onun səhərlər südlü çay içmək istəyi olub.**

28 yaşlı Antonia Trrel son iki il boyunca özünü hər zaman pis hiss edib. O, terapevtə müraciət etsə də, sonuncu bu problemin səbəbini anlaya bilməyib. “Mən hər zaman özümü yaxşı hiss etmirdim. Əksinə, gündən-günə daha da pisləşirdim. İşə getmək çox çətin idi” - britaniyalı etiraf edib.

Həkimlər ona qida rasionundan bəzi ərzaqları çıxarmağı məsləhət görüb. Onlar bu yolla qıza hansı qidaların ürəkbulanması yaratdığını müəyyən etməyə çalışıblar. Amma bu üsul qıza kömək etməyib.

Qayınanasının məsləhəti əsasında qız qan analizi verib. Bu zaman məlum olub ki, onun ağartı məhsullarına allergiyası var. Terell süd məhsullarını çox yeyir və üstəlik, çaya da süd əlavə edirdi ki, bu da ürəkbulanmaya gətirib çıxarırdı. İlk vaxtlar qadın buna inanmırdı. Çünki sevimli içkisindən imtina etmək istəmirdi. Amma britaniyalı qız süd məhsullarını rasionundan çıxaran kimi durumu da yaxşılaşıb.



## Göbələk yığmağa getdi, damarını kəsdi və öldü

**Meşəyə göbələk yığmaq üçün gedən Polşa sakini təsadüfən damarını kəsib və qan itirdiyi üçün dünyasını dəyişib. Bu barədə “Dziennik Wshodni” nəşri xəbər verir.**

Starı Zamost bölgəsinin sakini təkbaşına meşəyə gedib. O, qohumlarına xəbər verib ki, tezliklə geri qayıdacaq. Amma bir neçə dəqiqə sonra qadın təcili yardım xidmətinə zəng edərək deyib ki, bıçaqla boğazını kəsib. Dispetçer hadisənin harada baş verdiyini dəqiqləşdirmək istəyəndə xətt kəsilib. Böyük ehtimalla 59 yaşlı zərərçəkmiş həmin vaxt huşunu itirib. Həkim və polis heyəti hadisənin baş verdiyi məkanı tapsa da, qadını xilas etmək mümkün olmayıb. Rayon prokurorluğu baş vermiş hadisənin istintaqını aparır. Qadının bıçaqla boğazını necə kəsə biləcəyi hələ də sual altındadır.

## Pişik bütün ailəni ölümdən xilas etdi

**İngiltərənin Bazildon şəhərində ev pişiyi piton yaxalayıb. Bu barədə lenta.ru saytı xəbər yayıb. Pişik ilanı həyətdə, həm də qoxusunu alaraq tapıb. Pişiyin təlaşı ev əhlinin diqqətini çəkib və onlar ilanın üstünə bir qutu keçirərək, zəhərli ilanlarla mübarizə üçün müvafiq quruma müraciət ediblər. Amma sözügedən qurumun işçiləri evə gələndə artıq piton saxlandığı yerdən qaçmış və evdəki çamadanda gizlənmişdi. İlanın uzunluğu 45 santimetrə çatırdı.**



İdarənin işçiləri bildirib ki, ilanlar məşhur qaçış ustalarıdır: “Biz təxmin edirik ki, onlar evdə saxlanıblar və sahiblərindən qaçıblar. Çalışacağıq ki, onun sahibini tapıb, onları calaşdıraq”.

Şah pitonu zəhərli deyil və uzunluğu 1.2-1.5 metrə çatır. Xırda quşlar və həşəratlarla qidalanır. O, insan üçün hər hansı təhlükə yaratmır. Buna görə də onu ev heyvanı kimi saxlayırlar.

Mart ayında xəbər verilmişdi ki, Hindistanın Bxubaneşvar şəhərində iti həyətlərində ilan dişləyib və onun sancmasından ölüb.

Səhifəni hazırladı: SELCAN

Təsisçi: Rauf ARİFOĞLU
Baş redaktorun birinci müavini: Azər AYXAN

e-mail adres: yenimusavat@mail.ru

Ünvan: Bakı şəhəri, R.Rüstəmov küçəsi 2528-ci məhəllə ev 44/d
Tel: 520 01 23 (24, 25, 26, 27, 28)

Redaktor: Zahid SƏFƏROĞLU

“Yeni Müsavat”ın kompüter mərkəzində yığılıb, səhifələnib, “Azərbaycan” nəşriyyatında çap edilib. Əlyazmalar geri qaytarılmır. Müəlliflərlə redaksiyanın mövqeyi uyğun gəlməyə bilər.

Lisenziya N: B 114
SAYI: 3.050